RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 73 (10093) 29 aprel 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Sülh və əməkdaşlıq yolunda liderlik nümunəsi

Azərbaycan Prezidenti İlham Əliyevin sülh təşəbbüsləri, regionda barışın möhkəmləndirilməsi, beynəlxalq arenada əməkdaşlıq istiqamətində davamlı, məqsədyönlü və uğurlu fəaliyyəti beynəlxalq səviyyədə yüksək qiymətləndirilir. Dövlətimizin başçısının Azərbaycan ilə Ermənistan arasında sülhün əldə olunması və dialoqun təşviqi istiqamətində göstərdiyi səylərə görə "Sülh və Barışıq üçün Gernika mükafatı"na layiq görülməsi bunun bariz nümunəsidir. Xatırladaq ki, bu ilin fevralında Əbu-Dabidə Prezident İlham Əliyevə "Zayed İnsan Qardaşlığı mükafatı" da sülh və regional barışığa töhfə verdiyinə görə təqdim olunmuşdu.

Prezident İlham Əliyevin "Sülh və Barışıq üçün Gernika mükafatı"nın təqdimolunma mərasiminin iştirakçılarına müraciətində qeyd olunub ki, Gernika faciəsinin tarixi yaddaşını yaşatmaq, sülh və barışıq proseslərində töhfəsi olan insanları tanıtmaq məqsədi daşıyan bu mötəbər mükafata layiq görülmək böyük şərəfdir.

Tarixdə elə hadisələr olur ki, illər ötsə də xatırlanır. Gernika faciəsi də ötən əsrdə dinc əhaliyə qarşı törədilmiş ən dəhşətli və qanlı hadisələrdən biri kimi yaddaşlara həkk olunub. 1937-ci il aprelin 26-da İspaniyanın Gernika şəhəri hava hücumuna məruz qalıb. Yüzlərlə insan həyatını itirib, minlərlə sakin yaralanıb. Bu hücum mülki əhaliyə qarşı yönəlmiş genişmiqyaslı bombardmanlardan biri kimi tarixə düşüb.

Gernika faciəsi beynəlxalq ictimaiyyətdə böyük sarsıntı yaradıb və müharibənin qəddarlığını simvolizə edən hadisəyə çevrilib. Hadisə yalnız hərbi yox, həm də mənəvi və mədəni baxımdan böyük itki sayılır. Bu faciə sonradan sənət və ədəbiyyatda da əks olunub, xüsusilə məşhur rəssam Pablo Pikassonun 1937-ci ildə yaratdığı eyniadlı əsəri yaddaşlarda dərin iz buraxıb. Bu gün də Gernika bombardmanı müharibənin dəhşətlərini xatırladan və sülhün əhəmiyyətini vurğulayan tarixi bir xəbərdarlıq kimi səslənir. Hər il Gernika qurbanları anım günündə ehtiramla yad edilir.

Prezident İlham Əliyevin "Sülh və Barışıq üçün Gernika mükafatı"nın təqdimolunma mərasiminin iştirakçılarına müraciətində bildirilib: "Bu mükafatın 26 aprel - Gernika qurbanlarının anım günündə təqdim olunması xüsusi rəmzi məna daşıyır. 89 il əvvəl Gernikada dinc əhaliyə qarşı törədilmiş amansız cinayət ötən əsrin ən dəhşətli və qanlı səhifələrindən biridir. Hesab edirəm ki, dinc insanlara qarşı istənilən cinayət bütövlükdə bəşəriyyətə və insanlığa qarşı yönəlir. Gernika şəhərinin bu ağrı-acısını bölüşür, qurbanların əziz xatirəsini dərin ehtiramla yad edirəm".

3

# Azərbaycan-BƏƏ: münasibətlər strateji tərəfdaşlığa əsaslanır



## Azərbaycan Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Qəbələdə Birləşmiş Ərəb Əmirliklərinin Xarici İşlər Nazirliyinin Dövlət naziri Səid bin Mübarək Əl-Hacirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev strateji tərəfdaşlığa əsaslanan ikitərəfli əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etdiyini deyərək, bu xüsusda Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə dostluq münasibətlərinə toxundu. Prezident İlham Əliyev özünün Birləşmiş Ərəb Əmirliklərinə, Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın isə Azərbaycana, o cümlədən Qarabağa səfərlərini, həmçinin bu səfərlər zamanı aparılmış müzakirələri məmnunluqla xatırladı, bütün bunların əlaqələrimizin genişləndirilməsində mühüm rol oynadığını vurğuladı.

Prezident İlham Əliyev Səid bin Mübarək Əl-Hacirinin ölkəmizə böyük nümayəndə heyəti ilə gəldiyini deyərək, bu səfərin münasibətlərimizin dərinləşdirilməsi baxımından roluna toxundu.

Qəbula görə minnətdarlığını bildirən Səid bin Mübarək Əl-Haciri Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Azərbaycan Prezidenti salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şeyx Məhəmməd bin Zayed Al Nəhyana çatdırmağı xahiş etdi.

Qonaq dövlətimizin başçısının liderliyi ilə Cənubi Qafqaz regionunda sülh gündəliyinin irəli aparılması prosesində əldə edilmiş uğurlar, həmçinin Azərbaycan ilə Ermənistan arasında sülhün əldə olunması və dialoqun təşviqi istiqamətində göstərdiyi səylərə görə Azərbaycan Prezidentinin "Sülh və Barışıq üçün Gernika mükafatı"na layiq görülməsi münasibətilə təbriklərini çatdırdı.

Təbriklərə görə təşəkkür edən Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin qurucusu, sabiq Prezidenti Şeyx Zayed bin Sultan Al Nəhyanın humanitar irsini və dəyərlərini təşviq edən "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsini xatırladı və buna görə Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə bir daha minnətdarlığını çatdırmağı qonaqdan xahiş etdi.

Görüşdə ölkələrimiz arasında ikitərəfli gündəliyin zəngin olduğu vurğulandı, siyasi, iqtisadi, ticari, enerji, həmçinin bərpaolunan enerji, birgə investisiya fondunun fəaliyyəti, birgə hərbi təlimlər və digər istiqamətlərdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

Söhbət zamanı Yaxın Şərqdəki vəziyyətə toxunuldu, regiondakı bütün məsələlərin diplomatik yolla həll edilməsinin vacibliyi bildirildi.

# Azərbaycan-Çexiya münasibətlərində yeni mərhələ



Azərbaycan Çexiya ilə münasibətlərin inkişafına hər zaman əhəmiyyət verir. Eyni zamanda Çexiya Baş naziri Andrey Babişin Aİ hüdudlarından kənara ilk rəsmi səfərini məhz Azərbaycana etməsi rəsmi Praqanın Bakıya verdiyi strateji önəmin aydın təzahürü idi.

Prezident İlham Əliyev Azərbaycan-Çexiya biznes-forumunda bu mühüm məqama diqqət çəkərək vurğuladı ki, biz bunu dostluq, hörmət əlaməti kimi görürük və bu, həmçinin göstərir ki, həqiqətən hər iki ölkənin bir-birinə ehtiyacı var.

Aprelin 27-də Qəbələdə keçirilən görüşlər, mətbuata verilən bəyanatlar və birgə biznes-forum iki ölkə arasındakı münasibətlərin dərinliyini bir daha təsdiqlədi.

Prezident İlham Əliyev mətbuata bəyanatında ölkələrarası əlaqələrin dinamikasına diqqət çəkərək bildirdi: "Bizim indi çox fəal siyasi dialoqumuz var. Bu gün bir çox məsələlər - həm regional, həm ikitərəfli, həm də daha qlobal xarakter daşıyan məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. İqtisadi sahədə görüləcək işlərlə bağlı konkret təkliflər var".

8

RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN

# Azərbaycanın yeni inkişaf mərhələsi - rəqəmsal gələcəyin yol xəritəsi

## ETN İnformasiya Texnologiyaları İnstitutu ilə "Azərbaycan" qəzetinin birgə konfransı

Dövlətimizin başçısı bu gün Azərbaycanın yeni rəqəmsal gələcəyinin memarı kimi ardıcıl addımlar atır. Cari ilin fevral ayında "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın təsdiqlənməsi bu istiqamətdə strateji yol xəritəsidir. Ardınca mart ayında ölkənin rəqəmsal arxitekturasının yaradılmasına həsr olunmuş müşavirənin keçirilməsi göstərdi ki, bu məsələ dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Prezidentin "Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" fərmanı da xüsusi əhəmiyyət daşıyır. Həmin fərmanla Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının yaradılması və ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın şuranın sədri təyin olunması bu sahəyə verilən yüksək diqqətin təsdiqidir.

6-7

# Qoşa qanadlı "Günəşli"

## Xəzərin qoynundakı bu neft yatağının həm dayaz, həm dərin hissəsi bol sərvətlidir

AÇG-nin digər yataqlarından olduğu kimi, "Dərinsulu Günəşli"dən də ilk neft öncədən qazılmış quyulardan alındı. Bu cür quyular, adətən, əvvəlcədən qazılır və platforma tam quraşdırılandan sonra ona birləşdirilərək işə salınır. Daha sonra platformanın özündən quyuların qazılmasına başlanır. Quyuların sayı çoxaldıqca, hasilat da artır.

"Dərinsulu Günəşli" kompleksi "Günəşli" yatağının şərqində, suyun dərinliyinin 175 metr olduğu ərazidə yerləşir. O, iki nəhəng dəniz qurğusundan ibarətdir. Bunlardan birincisi qazma, texnoloji təchizat və yaşayış platformasıdır. İkincisi isə hasilat, kompressor, suvurma və texnoloji təchizat platforması adlanır. Platformalar arasında körpü salınıb.

Qazma, texnoloji təchizat və yaşayış platformasının üst modulları Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda (BDÖZ) inşa edilib. Qurğunun dayaq bloku da BDÖZ-də tikilib, 2006-cı ilin payızında daşıma barjı üzərinə yüklənib və 2007-ci ilin yazında dənizə yola salınıb. İkinci platformanın dayaq bloku həmçinin BDÖZ-də inşa edilib.

11



## "Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2026-cı il yanvarın 16-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 aprel 2026-cı il*

## "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 15-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 78 (Cild I); 2024, № 4, maddə 365, № 5 (I kitab), maddə 499; 2026, № 1, maddə 19) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.0.8-ci maddədə "mədəniyyət sənayesi -" sözləri "mədəni və yaradıcı sənaye - mədəniyyətə və yaradıcılığa əsaslanan iqtisadi fəaliyyət növlərinin məcmusundan ibarət iqtisadi münasibətlər sistemi, habelə" sözləri ilə əvəz edilsin.

2. 3.2.15-ci maddədə "mədəniyyət, o cümlədən əyləncə sənayesinin" sözləri "mədəni və yaradıcı sənayenin" sözləri ilə əvəz edilsin.

3. 4.0.1-ci maddədə "mədəniyyət sənayesi" sözləri "mədəni və yaradıcı sənaye" sözləri ilə əvəz edilsin.

4. 5.3-cü maddə ləğv edilsin.

5. 14.2.2-ci və 27.3-cü maddələrdə "mədəniyyət sənayesinin" sözləri "mədəni və yaradıcı sənayenin" sözləri ilə əvəz edilsin.

6. Aşağıdakı məzmunda 45.4-cü maddə əlavə edilsin:

"45.4. Mədəniyyət sahəsində layihələrin qrant maliyyələşdirilməsi mədəniyyət xidmətlərinin, habelə mədəni və yaradıcı sənaye sahələrinin inkişafına və keyfiyyətinin artırılmasına yönəldilmiş innovativ fəaliyyət və tədqiqatların stimullaşdırılması, mədəniyyət müəssisələrinin infrastrukturunun inkişaf etdirilməsi, eləcə də mədəniyyət sahəsində maarifləndirmə məqsədilə "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir. Mədəniyyət sahəsində layihələrin qrant maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 aprel 2026-cı il*

## "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 aprel tarixli 384-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 aprel tarixli 384-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun 45.4-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 45.4-cü maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun 45.4-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, mədəniyyət sahəsində layihələrin qrant maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 aprel tarixli 384-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 122 (Cild I); 2026, № 1, maddə 41) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "45.1-ci maddələrində" sözlərindən sonra ", 45.4-cü maddəsinin ikinci cümləsində" sözləri əlavə edilsin;

3.2. 2.2-1-ci bəndə "maddəsində" sözündən sonra "və 45.4-cü maddəsinin ikinci cümləsində" sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1209 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; 2025, № 7, maddə 662; 2026, № 1, maddə 41; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli 609 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"nin 3.1.14-cü yarımbəndində "mədəniyyət sənayesinin" sözləri "mədəni və yaradıcı sənayenin" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 aprel 2026-cı il*

## Sel və daşqınların təhlükəli və zərərli təsirlərinə qarşı mübarizə ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Cari ilin mart-aprel ayları ərzində güclü leysan yağışları və yaranan sel suları Bakı şəhərində və Azərbaycanın müxtəlif bölgələrində ciddi dağıntılara səbəb olmuş, kənd təsərrüfatına, infrastruktur (yol, körpü, elektrik) obyektlərinə və yaşayış evlərinə ciddi ziyan vurmuşdur. Aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən mövcud vəziyyətin təhlili aparılaraq, operativ və təxirəsalınmaz tədbirlər nəticəsində fəsadların aradan qaldırılması istiqamətində əməli işlər görülmüş, su basmış ərazilərdən suların çəkilməsi, sel və daşqın sularının maneəsiz ötürülməsi, əhalinin təxliyəsi və təhlükəsizliyi təmin edilmiş, infrastrukturun bərpası və təmir-tikinti işləri həyata keçirilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, sel və daşqınların fəsadlarının aradan qaldırılması ilə bağlı işlərin davam etdirilməsinin vacibliyini nəzərə alaraq **qərara alıram:**

1. Bakı şəhərində və Azərbaycanın müxtəlif bölgələrində güclü leysan yağışları və yaranan sel suları nəticəsində dəymiş zərərin fəsadlarının aradan qaldırılması istiqamətində görülən işlərin davamlılığının təmin edilməsi, habelə gələcəkdə analoji halların təkrarlanmaması üçün Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan bu Sərəncama Əlavədə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün ümumilikdə 85.869.260,0 (səksən beş milyon səkkiz yüz altmış doqquz min iki yüz altmış) manat, o cümlədən Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə 8.876.210,0 (səkkiz milyon səkkiz yüz yetmiş altı min iki yüz on) manat, Bakı Şəhər İcra Hakimiyyətinə 1.437.315,0 (bir milyon dörd yüz otuz yeddi min üç yüz on beş) manat, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə 21.443.875,0 (iyirmi bir milyon dörd yüz qırx üç min səkkiz yüz yetmiş beş) manat, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 39.103.600,0 (otuz doqquz milyon bir yüz üç min altı yüz) manat və "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinə 15.008.260,0 (on beş milyon səkkiz min iki yüz altmış) manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 aprel 2026-cı il*

## Sahibkarlıq fəaliyyəti sahəsində fərqlənən şəxslərin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının iqtisadi inkişafına verdikləri töhfəyə və sahibkarlıq sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilətəltif edilsinlər:

Abbasova Şənay Cəlaləddin qızı
Ağamirov İlkin Musa oğlu
Allahverdi Bəxtiyar Adil oğlu
Babaşov Nemət Adışirin oğlu
Bayramov Mübariz Xanlar oğlu
Bəşirov Səhliyalı Vahid oğlu
Əliyev Əli Vəli oğlu
Əliyev Vaqif Əli oğlu
Hacıyev Rauf Akif oğlu
Hüseynov Bəxtiyar Niyazi oğlu
Hüseynova Samirə Atamalı qızı
İlyas Emin Firudin oğlu
Krimpe Jana
Qasımov İsrafil Məmməd oğlu
Qəfərova Rəna Əbülfəz qızı
Məmmədov Muxtər Bilal oğlu
Məmmədova Rəna Müzəffər qızı
Mənsimov Elnur Ataş oğlu
Nurəliyev Nurlan İbadulla oğlu
Taşbağ Necmeddin
Van Ciyi
Vəliyev Ceyhun Əjdər oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 aprel 2026-cı il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Qvineya Respublikası Hökuməti arasında Qvineya Respublikasında "ASAN xidmət" modelinin tətbiqi ilə bağlı əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2026-cı il martın 16-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Qvineya Respublikası Hökuməti arasında Qvineya Respublikasında "ASAN xidmət" modelinin tətbiqi ilə bağlı əməkdaşlığa dair Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qvineya Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 aprel 2026-cı il*

## "Dövlət xidmətləri haqqında" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 279-VIIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 dekabr tarixli 543 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət xidmətləri haqqında" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 279-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Dövlət xidmətləri haqqında" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 279-VIIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 dekabr tarixli 543 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 12 (I kitab), maddə 1134) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 1.6-1-ci və 1.7-1-ci bəndlər əlavə edilsin:

"1.6-1. həmin Qanunun 6.3-cü maddəsində,12.3-cü maddəsinin birinci (ikinci halda) və ikinci cümlələrində "orqan (qurum)" dedikdə kiçik və orta biznes evlərinə münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərinə münasibətdə isə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi nəzərdə tutulur;";

"1.7-1. həmin Qanunun 10.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinəzərdə tutulur;";

1.2. 1.8-ci bənd ləğv edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 aprel 2026-cı il*

## "Vahid elektron arxiv" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi və "Milli arxiv fonduna məxsus elektron sənədlərin daimi dövlət mühafizəsinə qəbulu, mühafizəsi, istifadəsi və arxiv sənədlərinin rəqəmsallaşdırılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 9 fevral tarixli 80 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 122** **Bakı şəhəri, 28 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 fevral tarixli 1815 nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Vahid elektron arxiv" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi:

2.1. "Vahid elektron arxiv" informasiya sisteminin (bundan sonra - Sistem) aparılması, fəaliyyətinin təşkili, saxlanılması, ondan səmərəli istifadənin təmin edilməsi və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün;

2.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə Sistemin "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Qərarın 1-ci hissəsi nəzərə alınmaqla, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

4. "Milli arxiv fonduna məxsus elektron sənədlərin daimi dövlət mühafizəsinə qəbulu, mühafizəsi, istifadəsi və arxiv sənədlərinin rəqəmsallaşdırılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 9 fevral tarixli 80 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 212) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2-ci hissədə "Vahid Elektron Arxiv Məlumat Sisteminin (bundan sonra - Sistem) Əsasnaməsinin" sözləri "Vahid elektron arxiv" informasiya sistemi (bundan sonra - Sistem) haqqında Əsasnamənin" sözləri ilə əvəz edilsin;

4.2. 4-cü hissə ləğv edilsin;

4.3. həmin Qərarla təsdiq edilmiş "Milli arxiv fonduna məxsus elektron sənədlərin daimi dövlət mühafizəsinə qəbulu, mühafizəsi, istifadəsi və arxiv sənədlərinin rəqəmsallaşdırılması Qaydaları" üzrə:

4.3.1. 4.5-ci bənddə "Milli Arxiv İdarəsinin Vahid Elektron Arxiv Məlumat Sistemində (bundan sonra - VEAMS)" sözləri "Vahid elektron arxiv" informasiya sistemində" sözləri ilə əvəz edilsin;

4.3.2. 5.3-cü bənddə "VEAMS-nin" sözü "Vahid elektron arxiv" informasiya sisteminin" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 118** **Bakı şəhəri, 27 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 69 (Cild I); 2024, № 1, maddə 126, № 2, maddə 245, № 7, maddə 914; 2025, № 3, maddə 265, № 5, maddə 512; 2026, № 12 (II kitab), maddə 1260) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri"ndə "2710 12 413 0","2710 12 510 1" və "2710 19 421 0-2710 19 480 0" alt yarımmövqelərinə aid sətirlər aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 2710 12 413 0 | mühərrik benzinləri, aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox olmayan, 95-dən az oktan ədədi ilə | 1 ton üçün 200 manat (2026-cı il 1 may tarixindən 2027-ci il 31 mart tarixinədək - 1,0 manat) |
| 2710 12 510 1 | mühərrik benzinləri, aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox, 95-dən az oktan ədədi ilə | 1 ton üçün 200 manat (2026-cı il 1 may tarixindən 2027-ci il 31 mart tarixinədək - 1,0 manat) |
| 2710 19 421 1 - 2710 19 480 9 | digər qazoyllar, o cümlədən dizel yanacağı | 1 ton üçün 80 manat (2026-cı il 1 may tarixindən 2027-ci il 31 mart tarixinədək - 1,0 manat) |

2. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin 2026-cı il 1 may - 2027-ci il 31 mart tarixlərində idxal etdiyi Aİ-92 benzini və dizel yanacağı üçün müvafiq olaraq 205 min ton və 201 min ton yuxarı hədd müəyyən edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 119** **Bakı şəhəri, 27 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465, № 7, maddələr 891, 903, № 9, maddələr 1045, 1106, № 10, maddələr 1165, 1178, № 11, maddə 1257, № 12 (I kitab), maddələr 1319, 1324; 2025, № 2, maddə 187, № 3, maddələr 266, 268, №5, maddə 512, № 9, maddələr 845, 868, № 10, maddə 971, № 12 (II kitab), maddə 1261; 2026, №1, maddə 80; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 6 fevral tarixli 39 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə "2710 12 413 0", "2710 12 510 1", "2710 19 426 0", "2710 19 429 0" alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "15 (2025-ci il 1 iyun tarixinədək - 0%)" sözləri "15 (2026-cı il 1 may tarixindən 2027-ci il 31 mart tarixinədək idxal olunan 205 min ton Aİ-92 benzini və 201 min ton dizel yanacağı üçün - 0%)" sözləri ilə, "2710 19 421 1", "2710 19 421 9", "2710 19 422 1", "2710 19 422 9", "2710 19 423 1", "2710 19 423 9", "2710 19 424 1", "2710 19 424 9", "2710 19 425 1", "2710 19 425 9", "2710 19 460 1", "2710 19 460 9", "2710 19 480 1" və "2710 19 480 9" alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "15" rəqəmləri "15 (2026-cı il 1 may tarixindən 2027-ci il 31 mart tarixinədək idxal olunan 205 min ton Aİ-92 benzini və 201 min ton dizel yanacağı üçün - 0%)" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 211 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qeyri-rezidentlərin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların bu dövlətlərin səlahiyyətli orqanlarına verilməsi Hədləri və Qaydası"nda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 120** **Bakı şəhəri, 27 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 211 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 784 (Cild I) ilə təsdiq edilmiş "Qeyri-rezidentlərin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların bu dövlətlərin səlahiyyətli orqanlarına verilməsi Hədləri və Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1.2-2-ci və 1.3-1-ci bəndlər əlavə edilsin:

"1.2-2. Maliyyə institutları tərəfindən fiziki və hüquqi şəxslərə hesab açıldıqda və ya maliyyə xidmətləri göstərildikdə vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin icrası məqsədilə şəxsin rezidentliyinin müəyyən edilməsi üçün dürüst olmayan və (və ya) təhrif olunmuş məlumatların və sənədlərin təqdim edilməsinə və ya təqdim edilmiş məlumatlarda və sənədlərdə şəxsin rezidentlik statusunun dəyişdirilməsinə səbəb olan dəyişiklik baş verdiyi halda, bu barədə məlumatların və sənədlərin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə təqdim edilməməsi halları müəyyən edildikdə maliyyə institutu tərəfindən şəxs və aşkar olunmuş pozuntu barədə yazılı məlumat dərhal Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə (bundan sonra - Dövlət Vergi Xidməti) verilməlidir.";

"1.3-1. Xarici ölkənin qanunvericiliyinə uyğun olaraq hüquqi təsisat formasında yaradılmış hesabatverən maliyyə institutu adından çıxış etməklə onun maliyyə hesablarının saxlanılmasını və bu Qaydalarla müəyyən edilmiş hesabatvermə və hərtərəfli yoxlama öhdəliklərinin yerinə yetirilməsini təmin edən şəxs (trasta münasibətdə trastın idarəçisi) hesabatverən maliyyə institutunun Qanunla müəyyən edilən məsuliyyəti həddində məsuliyyət daşıyır.".

2. 2.2.1-ci yarımbənddə "şəxsdir" sözü "şəxs, o cümlədən xarici hüquqi təsisatdır" sözləri ilə əvəz edilsin.

3. 2.2.4.1-ci abzasda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin, həmin abzasın mətni birinci cümləsi hesab edilsin və aşağıdakı məzmunda ikinci, üçüncü cümlələr, 2.2.4.1.1-ci və 2.2.4.1.2-ci abzaslar əlavə edilsin:

"Depozitar fəaliyyəti dedikdə, fəaliyyətinin əhəmiyyətli hissəsi digər şəxslər üçün maliyyə aktivlərinin saxlanılmasından ibarət olan fəaliyyət nəzərdə tutulur. Hüquqi şəxsin aşağıdakı müddətlərdən daha az olan müddət ərzində digər şəxslər üçün maliyyə aktivlərinin saxlanılması və əlaqədar maliyyə xidmətlərinin göstərilməsi fəaliyyətindən əldə etdiyi mənfəət onun ümumi fəaliyyəti üzrə əldə etdiyi mənfəətin ən azı 20%-ni təşkil edirsə, maliyyə aktivlərinin saxlanılması hüquqi şəxsin fəaliyyətinin əhəmiyyətli hissəsini təşkil etmiş hesab olunur:

2.2.4.1.1. hüquqi şəxsin depozitar kimi təsbit edildiyi ildən əvvəlki ilin 31 dekabrında (və ya təqvim ili olmayan hesabat dövrünün son günündə) başa çatan üçillik müddət;

2.2.4.1.2. hüquqi şəxsin fəaliyyət göstərdiyi müddət;".

4. 2.2.18-ci yarımbənddə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (bundan sonra - Dövlət Vergi Xidməti)" sözləri "Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin.

5. 2.2.21-ci yarımbənddə (ikinci halda) "olmayan" sözü "olan" sözü ilə, "2.2.4.2-ci" sözləri "2.2.4.4.2-ci" sözləri ilə əvəz edilsin və "iştirakçı" sözündən sonra "olmayan" sözü əlavə edilsin.

6. 4.8.5.1-ci və 4.9.5.1-ci abzaslarda "2.2.4.4-cü" sözləri "2.2.4.4.2-ci" sözləri ilə əvəz edilsin.

7. 6.2-ci bənddə "iyul" sözü "iyun" sözü ilə əvəz edilsin.

8. Həmin Qaydaya 2 nömrəli əlavəyə aşağıdakı məzmunda 7-ci hissə əlavə edilsin:

"Bu Qaydaların 4.5.6.1-4.5.6.3-cü abzaslarında göstərilən bütün tələblərə cavab verən və hesab qalığı 1000 ABŞ dolları məbləğini keçməyən əvvəlcədən mövcud olan qeyri-aktiv hesablar (annuitet sığortası müqaviləsi istisna olmaqla).".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 avqust tarixli 372 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təbii inhisar subyektlərinin Siyahısı"nda dəyişiklik edilməsi haqqında"

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 121** **Bakı şəhəri, 28 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasına əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 avqust tarixli 372 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 8, maddə 988; 2025, № 4 (I kitab), maddə 398, № 12 (II kitab), maddə 1209) ilə təsdiq edilmiş "Təbii inhisar subyektlərinin Siyahısı"nın 14-cü və 15-ci hissələri ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Sülh və əməkdaşlıq yolunda liderlik nümunəsi



Ölkəmizin sülhün, sabitliyin bərqərar olması istiqamətində atdığı addımlar öz bəhrəsini verir. Bu gün Cənubi Qafqazda barışa, təhlükəsizliyə regionun lider dövlətinin - Azərbaycanın böyük səyləri və təşəbbüsləri nəticəsiz qalmır. Artıq bütün dünya ölkəmizin bu istiqamətdə gördüyü işləri görür və təqdir edir.

Azərbaycan beynəlxalq aləmdə sülhün, sabitliyin və regionda əməkdaşlığın təminatçısı kimi tanınır. Dövlətimizin diplomatik fəaliyyəti, iqtisadi və humanitar təşəbbüsləri, sərhəd və təhlükəsizlik məsələlərində göstərdiyi məsuliyyət etibarlı tərəfdaş kimi mövqeyimizi möhkəmləndirir. Bu istiqamətdə atılan hər bir addım həm ölkəmizin, həm də regionun gələcəyi üçün əhəmiyyətli nəticələr doğurur.

Azərbaycan Prezidenti İlham Əliyevin sülh təşəbbüsləri, regionda barışın möhkəmləndirilməsi, beynəlxalq arenada əməkdaşlıq istiqamətində davamlı, məqsədyönlü və uğurlu fəaliyyəti beynəlxalq səviyyədə yüksək qiymətləndirilir. Dövlətimizin başçısının Azərbaycan ilə Ermənistan arasında sülhün əldə olunması və dialoqun təşviqi istiqamətində göstərdiyi səylərə görə "Sülh və Barışıq üçün Gernika mükafatı"na layiq görülməsi bunun bariz nümunəsidir. Xatırladaq ki, bu ilin fevralında Əbu-Dabidə Prezident İlham Əliyevə "Zayed İnsan Qardaşlığı mükafatı" da sülh və regional barışığa töhfə verdiyinə görə təqdim olunmuşdu.

Prezident İlham Əliyevin "Sülh və Barışıq üçün Gernika mükafatı"nın təqdimolunma mərasiminin iştirakçılarına müraciətində qeyd olunub ki, Gernika faciəsinin tarixi yaddaşını yaşatmaq, sülh və barışıq proseslərində töhfəsi olan insanları tanıtmaq məqsədi daşıyan bu mötəbər mükafata layiq görülmək böyük şərəfdir.

Tarixdə elə hadisələr olur ki, illər ötsə də xatırlanır. Gernika faciəsi də ötən əsrdə dinc əhaliyə qarşı törədilmiş ən dəhşətli və qanlı hadisələrdən biri kimi yaddaşlara həkk olunub. 1937-ci il aprelin 26-da İspaniyanın Gernika şəhəri hava hücumuna məruz qalıb. Yüzlərlə insan həyatını itirib, minlərlə sakin yaralanıb. Bu hücum mülki əhaliyə qarşı yönəlmiş genişmiqyaslı bombardmanlardan biri kimi tarixə düşüb.

Gernika faciəsi beynəlxalq ictimaiyyətdə böyük sarsıntı yaradıb və müharibənin qəddarlığını simvolizə edən hadisəyə çevrilib. Hadisə yalnız hərbi yox, həm də mənəvi və mədəni baxımdan böyük itki sayılır. Bu faciə sonradan sənət və ədəbiyyatda da əks olunub, xüsusilə məşhur rəssam Pablo Pikassonun 1937-ci ildə yaratdığı eyniadlı əsəri yaddaşlarda dərin iz buraxıb. Bu gün də Gernika bombardmanı müharibənin dəhşətlərini xatırladan və sülhün əhəmiyyətini vurğulayan tarixi bir xəbərdarlıq kimi səslənir. Hər il Gernika qurbanları anım günündə ehtiramla yad edilir.

Prezident İlham Əliyevin "Sülh və Barışıq üçün Gernika mükafatı"nın təqdimolunma mərasiminin iştirakçılarına müraciətində bildirilib: "Bu mükafatın 26 aprel - Gernika qurbanlarının anım günündə təqdim olunması xüsusi rəmzi məna daşıyır. 89 il əvvəl Gernikada dinc əhaliyə qarşı törədilmiş amansız cinayət ötən əsrin ən dəhşətli və qanlı səhifələrindən biridir. Hesab edirəm ki, dinc insanlara qarşı istənilən cinayət bütövlükdə bəşəriyyətə və insanlığa qarşı yönəlir. Gernika şəhərinin bu ağrı-acısını bölüşür, qurbanların əziz xatirəsini dərin ehtiramla yad edirəm".

"Sülh və Barışıq üçün Gernika mükafatı" müharibə və zorakılığa qarşı mübarizə aparan sülh, insan haqları və tolerantlıq sahəsində fəaliyyətləri yüksək qiymətləndirilən şəxslərə və təşkilatlara verilir. Əsas məqsəd yalnız nailiyyətləri tanımaq deyil, həm də dünyada sülh mədəniyyətini təşviq etmək, zorakılığa qarşı alternativ yolların mümkünlüyünü göstərməkdir. Belə təşəbbüslər Gernika adını yalnız faciədən doğan bir xəbərdarlıqla yanaşı, ümid və barışıq simvoluna çevirir.

Dövlətimizin başçısının müraciətində Gernika şəhərinin tarixindən irəli gələn sülh və barışıq mesajının bütün xalqlar üçün mühüm əhəmiyyət kəsb etdiyi vurğulanaraq diqqətə çatdırılıb ki, müharibələrin acı nəticələrini yaşamış xalqların xatirəsi və təcrübəsi gələcək nəsillərin daha sabit və təhlükəsiz dünyada yaşaması üçün mühüm dərs olmalıdır.

Azərbaycan müharibədən ən çox zərər çəkən ölkələrdən biridir. Odur ki, xalqımıza müharibələrdən, soyqırımlardan, işğallardan əziyyət çəkmiş, böyük faciələr yaşamış insanların dərdləri, ağrı-acıları yaxşı tanışdır. Dövlətimizin başçısının vurğuladığı kimi: "30 ilə yaxın müddət ərzində münaqişə şəraitində yaşamış, müharibənin ağır fəsadları ilə üzləşmiş Azərbaycan xalqı da sülhün və barışığın dəyərini çox yaxşı anlayır. Azərbaycan bu gün sülh şəraitində yaşamağın nə olduğunu öyrənir. Bu, bizim üçün yeni və qeyri-adi bir hissdir. Çünki müstəqilliyimizi bərpa edəndən bəri biz bu hissi yaşamamışdıq".

Ötən ilin avqustunda Vaşinqtonda baş tutmuş tarixi Zirvə görüşündə Azərbaycan və Ermənistan arasında sülh sazişinin mətninin parafl andığını, eyni zamanda Birgə Bəyannamə imzalandığını qeyd edən Prezident İlham Əliyev nəzərə çatdırıb ki, bununla da üç onillik ərzində davam edən münaqişə tamamilə sona çatmış, xalqlarımız üçün sülhün, barışığın, qarşılıqlı tərəfdaşlıq dövrünün əsası qoyulmuşdur: "Hazırda Azərbaycan bu yeni reallığa və sülh mühitində yaşamağa uyğunlaşır. Ümumi müsbət atmosfer, sabitliyə və təhlükəsizliyə daha çox inam bizi irəliləməyə və inkişaf gündəliyimizə daha çox vaxt və resurs ayırmağa imkan verir. Biz eyni zamanda sülhü möhkəmləndirmək və onu əməli fəaliyyətə çevirmək üçün addımlar atırıq və artıq hər iki cəmiyyətimiz sülhün iqtisadi, ticari və digər sahələrdə real faydalarının şahidi olur. Bu gün artıq Azərbaycanın neft məhsulları, üçüncü ölkələrdən taxıl və digər məhsullar ölkəmizin ərazisindən keçməklə Ermənistana ixrac edilir".

Qeyd etdiyimiz kimi, bu gün Azərbaycan Prezidentinin sülh və əməkdaşlıq uğrunda gördüyü səylər təkcə regional deyil, qlobal miqyasda da nümunə kimi qəbul olunur. Dövlətimizin atdığı addımlar regionda davamlı sülhün təmin olunmasına zəmin yaradır. Azərbaycan həm də iqtisadi və humanitar əməkdaşlıq layihələri ilə xalqlar arasında qarşılıqlı etimadın möhkəmləndirilməsinə xidmət edir. Bu uğurlar ölkəmizin beynəlxalq nüfuzunu artırır və digər dövlətlər üçün sülhün mümkünlüyü nümunəsini göstərir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Rabat şəhərində işgüzar səfərdədir



Mərakeşli həmkarı Hicham El Blaouinin dəvəti ilə Rabat şəhərində işgüzar səfərdə olan baş prokuror Kamran Əliyev ölkəmizin Mərakeş Krallığında səfirliyini ziyarət edərək Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül qoyaraq xatirəsini yad edib. Səfirliyin heyəti ilə görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin və əməkdaşlığın gücləndirilməsi barədə fikir mübadiləsi aparıb.

Mərakeş Krallığının Prokurorluğunda keçirilmiş görüşdə baş prokuror Kamran Əliyev dəvətə görə təşəkkürünü bildirərək qeyd edib ki, Mərakeş Krallığı ortaq dəyərləri paylaşdığımız Azərbaycan üçün dost ölkədir və beynəlxalq platformalarda mütəmadi olaraq ölkəmizlə həmrəy mövqe nümayiş etdirib. Xüsusilə son illərdə ölkələrimiz arasında qarşılıqlı əlaqələr dövlət başçıları Prezident cənab İlham Əliyev və əlahəzrət Kral VI Məhəmmədin uzaqgörən siyasəti və səyləri nəticəsində daha da dərinləşib. Dövlət rəhbərləri arasında mövcud səmimi münasibətlər isə qurumlar arasında əməkdaşlığın inkişafına rəvac verir.

Öz növbəsində Hicham El Blaoui qurumlararası tərəfdaşlıq münasibətlərinin inkişafından məmnunluğunu ifadə edib. Mərakeş Krallığı Prokurorluğunun fəaliyyəti barədə məlumat verən ev sahibi son illərdə Azərbaycan Prokurorluğunda həyata keçirilmiş köklü islahatlar və tətbiq edilmiş yeni institutlar nəticəsində fəaliyyətin səmərəliliyinin artırılması barədə məlumatlı olduqlarını qeyd edib, ölkəmizin təcrübəsinin, xüsusilə prokurorluq orqanlarının fəaliyyətinin elektronlaşdırılması və cinayət təqibinin rəqəmsallaşdırılması ilə bağlı görülən işlərin onlar üçün xüsusi maraq kəsb etməsini və təcrübə mübadiləsinin həyata keçirilməsini istədiklərini bildirib. Görüşdə cinayətkarlığın müxtəlif formalarına qarşı mübarizə, o cümlədən transmilli cinayətlər və maliyyə cinayətlərinin istintaqı, ekstradisiya və cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım sahələrində praktiki əməkdaşlıq məsələləri, həmçinin hüquqi və institusional əməkdaşlığın ikitərəfli və beynəlxalq platformalar çərçivəsində genişləndirilməsi perspektivləri, eləcə də qarşılıqlı təlim səfərlərinin təşkili və təcrübə mübadiləsi ətrafında fikir mübadiləsi aparılıb.

Sonra nümayəndə heyəti Mərakeş Prokurorluğunun fəaliyyəti ilə yaxından tanış olub, ailə və uşaq hüquqlarının qorunması, mülki işlərdə dövlət maraqlarının müdafiəsində prokurorluğun rolu, korrupsiya hallarına qarşı mübarizə tədbirləri, o cümlədən müvafiq Çağrı Mərkəzinin fəaliyyəti ilə bağlı Mərakeş Prokurorluğunun təcrübəsi barədə məlumat verilib.

Görüş zamanı gələcəkdə qurumlar arasında əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması ətrafında müzakirə aparılaraq razılıq əldə edilib.

Görüşdə ölkəmizin Mərakeş Krallığındakı fövqəladə və səlahiyyətli səfiri Nazim Səfərov da iştirak edib.

Nümayəndə heyətinin səfəri davam edir, digər dövlət qurumlarının rəhbərləri ilə də görüşlərin keçirilməsi nəzərdə tutulub.

# Akademik Zərifə Əliyeva oftalmologiya sahəsində müstəsna xidmətləri ilə yadda qalıb

Aprelin 28-də Səhiyyə Nazirliyi, akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi və Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin birgə təşəbbüsü ilə akademik Zərifə Əliyevanın anadan olmasının 103 illiyinə və mərkəzin 80 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans keçirilib.






Tədbir iştirakçıları Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müdrik rəhbər, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin məzarı önünə gül dəstələri qoyublar. Akademik Zərifə Əliyevanın əziz xatirəsi ehtiramla yad edilib, məzarı önünə əklil qoyulub və tər çiçəklər düzülüb.

Konfrans Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə səhiyyə naziri Teymur Musayev, Milli Onkologiya Mərkəzinin Baş direktoru akademik Cəmil Əliyev, Milli Onkologiya Mərkəzinin baş-boyun şişləri şöbəsinin onkoloq-cərrahı, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru professor Əziz Əliyev, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli, Milli Məclisin Səhiyyə komitəsinin sədri akademik Əhliman Əmiraslanov, yerli mütəxəssislər, o cümlədən Rusiya, Türkiyə, İtaliya, Özbəkistan və digər ölkələrdən gələn tanınmış oftalmoloqlar iştirak ediblər.

Konfransın açılışında çıxış edən səhiyyə naziri Teymur Musayevin sözlərinə görə, akademik Zərifə Əliyevanın çoxistiqamətli elmi yaradıcılığı 12 monoqrafiyada, 160-dan çox elmi işdə öz əksini tapıb. Bununla yanaşı, böyük alim 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir. Akademikin uğurlu elmi fəaliyyətinin əsas mahiyyəti yalnız göz xəstəliklərinin müxtəlif bölmələrini əhatə edən elmi işlərdən deyil, problemin həllinə xüsusi yanaşma bacarığının olmasından ibarətdir. Akademik Zərifə Əliyevanın elmi fəaliyyəti yalnız ölkəmizdə deyil, beynəlxalq miqyasda da yüksək qiymətləndirilib.

Hazırda Azərbaycan səhiyyəsinin Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın diqqət və qayğısı sayəsində inkişaf etdiyini bildirən T.Musayev fikirlərinə belə davam edib: "Bu tərəqqi yolunda ən qabaqcıl mövqe tutan elmi-tibbi müəssisələrdən biri Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzidir. Keçmişin zəngin elmi irsi və qazanılmış təcrübə mərkəzin müasir inkişaf mərhələsinə zəmin yaradıb. Tarixi nailiyyətlər üzərində formalaşan möhkəm təməlləri olan mərkəz müasir dövrdə yeni inkişaf mərhələsinə keçib. Milli Oftalmologiya Mərkəzinin fəaliyyəti sübut edir ki, müasir səhiyyə yalnız texnologiya və biliklə deyil, həm də insanlara yaxın olmaq, onların ehtiyaclarını hiss etmək və vaxtında dəstək göstərmək bacarığı ilə ölçülür. Zərifə xanım Əliyevanın adını daşıyan bu müqəddəs ocaq, əslində, təkcə bir tibb müəssisəsi deyil, bir missiyadır. Bu missiya insanlara işıq bəxş etmək və sağlam gələcəyin təmin olunmasına xidmət etməkdir".

Sonra akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi haqqında videoçarx nümayiş etdirilib.

Daha sonra çıxış edən mərkəzin direktoru professor Elmar Qasımov qeyd edib ki, akademik Zərifə Əliyevanın elmi əsərləri müasir həkimlərin masaüstü kitabı kimi istifadə olunur və bir çox xarici dillərə tərcümə edilib.

Mərkəzin fəaliyyətindən bəhs edən Elmar Qasımov 23 şöbədən ibarət tibb ocağında dövlət tərəfindən lazım olan bütün tədbirlərin görüldüyünü və hər il avadanlığın yeniləndiyini deyib: "Mərkəzdə peşəkar və yüksəkpotensiallı tibb heyəti var. Milli Oftalmologiya Mərkəzinin Gəncə, Şəki və Masallı filialları fəaliyyətdədir. Artıq xəstələr Bakıya gəlmədən yaşadıqları yerlərdə müalicə ala bilirlər. Orada çalışan tibb heyəti məhz mərkəzin təcrübəsindən keçib. Mərkəzin nəzdində iki səyyar klinika var: avtomobil və dəmiryolu səyyar klinikası. Böyük qürur hissi ilə qeyd etmək istərdim ki, bizim dəmiryolu səyyar klinikası Vətən müharibəsi zamanı bir ay ərzində sərhəddə dayanıb və bütün xəstələrə lazımi müalicəni göstərib. Milli Oftalmologiya Mərkəzi həm tibb, həm elm, həm də təhsil ocağıdır".

Elmar Qasımov qeyd edib ki, bugünkü tədbir oftalmologiya sahəsində yeni elmi yanaşmaların formalaşmasına və innovativ müalicə metodlarının tətbiqinə töhfə verir: "Bu cür beynəlxalq əməkdaşlıq həm klinik təcrübənin zənginləşdirilməsi, həm də yeni texnologiyaların ölkəmizdə tətbiqi baxımından mühüm əhəmiyyət kəsb edir".

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli isə çıxışında bildirib ki, akademik Zərifə Əliyevanın elmi fəaliyyəti Azərbaycan tibb elminin beynəlxalq nüfuzunun artmasına böyük töhfə verib və bu irs gələcək nəsillər üçün mühüm elmi məktəb rolunu oynayır.

Milli Məclisin Səhiyyə komitəsinin sədri akademik Əhliman Əmiraslanov çıxışında səhiyyə sahəsində aparılan islahatların və beynəlxalq əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Türk Cümhuriyyətləri Oftalmologiya Dərnəyinin sədri professor Öner Gelişken akademik Zərifə Əliyevanın elmi məhsuldarlığı ilə yanaşı, insanyönümlü yanaşmasının, etik dəyərlərin bu gün də həkimlər üçün nümunə olduğunu diqqətə çatdırıb.

Konfrans çərçivəsində akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzində Göz Bankının rəsmi açılışı da olub.

Beynəlxalq konfransda oftalmologiyanın aktual məsələləri geniş şəkildə müzakirə edilib. Tədbir çərçivəsində Milli Göz Bankının Azərbaycanda keratoplastika xidmətlərinin inkişafındakı rolu, donor mərhələsindən buynuz qişanın transplantasiyasına qədər olan proses, donorolma motivasiyası, həmçinin müxtəlif keratoplastika üsulları və onların uzunmüddətli nəticələri diqqət mərkəzində olub. Eyni zamanda dərin ön lamellyar keratoplastikadan sonra göz yaşı təbəqəsində iltihabi və antiiltihabi sitokinlərin qiymətləndirilməsi, eləcə də endotelial keratoplastika zamanı optimal nəticələrin biomarkerləri kimi elmi mövzular da təqdim edilib.

Konfrans çərçivəsində aparılan müzakirələr həm nəzəri biliklərin, həm də praktiki təcrübənin paylaşılmasına şərait yaradır və aparılan elmi diskussiyalar oftalmologiya sahəsində yeni yanaşmaların formalaşmasına töhfə verəcək.

# *Bir ömrün işığında:* insanlığa xidmətin ali nümunəsi

Aprelin 28-də Nəsimi Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatı və Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının birgə təşkilatçılığı ilə Azərbaycanın görkəmli alimi, Əməkdar elm xadimi, tibb elmləri doktoru, akademik Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Bir ömrün işığında: insanlığa xidmətin ali nümunəsi" mövzusunda tədbir keçirilib.





Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Tahir Budaqov bildirib ki, Zərifə xanım Əliyevanın həyat yoluna nəzər saldıqda yalnız fədakar bir alimin deyil, eyni zamanda zəngin mənəviyyata malik nümunəvi bir şəxsiyyətin obrazı canlanır: "Onun həyat fəlsəfəsi elmə sədaqət, insanlığa xidmət və milli-mənəvi dəyərlərə bağlılıq prinsiplərini özündə təcəssüm etdirir. Zərifə xanım Əliyevanın fəaliyyəti yalnız tibb sahəsi ilə deyil, bütövlükdə cəmiyyətin inkişafı ilə sıx bağlı olmuşdur. O, insan sağlamlığının, milli və bəşəri dəyərlərin qorunmasında, intellektual və vətənpərvər gənc nəslin formalaşmasında əvəzsiz xidmətlər göstərmişdir".

Onun sözlərinə görə, Zərifə xanım Əliyeva göz xəstəliklərinin öyrənilməsi və profilaktikası sahəsində apardığı fundamental tədqiqatlarla oftalmologiya elminin inkişafında yeni bir mərhələnin əsasını qoymuşdur: "Onun elmi nailiyyətləri günümüzdə aktuallığını qorumaqla müasir tibbin inkişafına dəyərli töhfələr verməkdə davam edir. Nümunəvi pedaqoq olan Zərifə xanım Əliyevanın yetişdirdiyi kadrlar bu gün Azərbaycanda və ölkə hüdudlarından kənarda uğurla fəaliyyət göstərirlər".

Tahir Budaqov vurğulayıb ki, Zərifə xanım Əliyeva ailə dəyərlərinə xüsusi önəm verən, övladlarının tərbiyəsinə böyük məsuliyyətlə yanaşan qayğıkeş bir ana kimi yadda qalmışdır: "O, müstəqil Azərbaycan dövlətinin qurucusu, bütün mənalı ömrünü Vətəninin tərəqqisinə həsr etmiş dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, sədaqətli və etibarlı silahdaşı olmuşdur. Məhz belə möhkəm mənəvi dəyərlər üzərində qurulmuş ailədə boya-başa çatan cənab İlham Əliyev Ulu Öndərin yoluna yüksək sədaqət nümayiş etdirməklə Azərbaycanı tərəqqi və Zəfər zirvəsinə yüksəltmişdir. O, prinsipial siyasəti ilə qloballaşma prosesinin geniş vüsət aldığı bir dövrdə xalqımızın mənəvi dəyərlərinin qorunması, milli kimliyimizin yaşadılması və ailə institutunun möhkəmləndirilməsi istiqamətində ardıcıl nailiyyətlərə imza ataraq cəmiyyətin sağlam təməllər üzərində inkişafını təmin etmişdir".

Natiq bildirib ki, dövlət başçısının siyasi iradəsi ilə ölkəmizdə bütün istiqamətlərdə, o cümlədən tibb sahəsində ardıcıl islahatlar həyata keçirilir, səhiyyə sisteminin modernləşdirilməsi, elm və təhsilin davamlı inkişafı üçün mühüm addımlar atılır: "Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan humanitar layihələr də bu prosesə müstəsna töhfə olmaqla bərabər, Zərifə xanımın zəngin elmi irsinin və ideyalarının yaşadılmasına xidmət göstərir. Xüsusi qeyd etmək istərdim ki, Nəsimi rayonu ərazisində fəaliyyət göstərən Azərbaycan Tibb Universiteti də Zərifə xanım Əliyevanın əsasını qoyduğu ənənələri davam etdirərək yüksəkixtisaslı kadrların - Vətənə ləyaqətlə xidmət edən gənc həkimlərin və tədqiqatçıların formalaşmasında önəmli rol oynayır".

"Şərəfli bir ömür yaşamış Zərifə xanım Əliyevanın işıqlı obrazı həmişə bizimlə olacaqdır. Onun əziz xatirəsi qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaq və zəngin mənəvi irsi nəsillərdən-nəsillərə ötürüləcəkdir", - deyə Tahir Budaqov əlavə edib.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəyli çıxışında bildirib ki, fədakarlığına, xeyirxahlığına və yüksək intellektinə görə insanların dərin hörmət və məhəbbətini qazanmış Zərifə xanım Əliyeva böyük ziyalı, işıqlı, nurlu şəxsiyyət idi: "Onun mənəvi dünyası olduqca zəngin idi, oftalmologiya elminin inkişafındakı xidmətləri isə əvəzsizdir".

F.Bədəlbəyli Zərifə xanım Əliyevanın sənətə və musiqiyə bağlı olduğunu qeyd edib. Onun sözlərinə görə, sadə və təvazökar insan olan Zərifə Əliyeva hər zaman sənətkarlara qayğı ilə yanaşıb. "Onun ailəsində, evində həmişə musiqi səsi eşidilərdi. Zərifə Əliyevanın bacısı Gülarə Əliyeva məşhur "Dan ulduzu" ansamblını yaratmışdı. Zərifə xanımın özü də pianinoda çox gözəl ifa edirdi. O, Ulu Öndər Heydər Əliyevlə birlikdə tez-tez mədəni tədbirlərə, konsertlərə gələrdi. Mən özümü xoşbəxt hesab edirəm ki, Zərifə xanımı şəxsən tanımışam. Biz onun sənətkarlara diqqətini heç vaxt unutmuruq. Gənclərimiz də bilməlidirlər ki, tariximizdə belə dəyərli qadınlar olub", - deyə rektor vurğulayıb.

Natiq söyləyib ki, insanların böyük sevgisini qazanmaq, özündən sonra nurlu xatirələr qoymaq çox az adamın taleyinə yazılır: "Akademik Zərifə Əliyevanın ömür kitabında Azərbaycan naminə misilsiz xidmətləri olan görkəmli dövlət xadimlərinin taleyi yaşayır. Zərifə xanım həyatı daim mübarizələrdə keçən Ümummilli Lider Heydər Əliyevlə çiyin-çiyinə addımlayır, çətin günlərdə ona arxa-dayaq olurdu. Bu gün Ulu Öndər Heydər Əliyevin və Zərifə xanımın xalqa məhəbbəti və xidməti Azərbaycan Prezidenti İlham Əliyevin, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətində davam edir".

Çıxış edən Bakı Musiqi Akademiyasının professoru, Xalq artisti, general-mayor Yusif Axundzadə bildirib ki, Zərifə xanım Əliyeva bənzərsiz, işıqlı bir ömür yaşayıb: "Bu işıqdan hamıya - ailəsinə, əhatəsində olan hər kəsə, gözünün nurunu itirmiş insanlara pay çatırdı. Onun ömür yolu parlaq səhifələrlə zəngindir".

Y.Axundzadə əlavə edib ki, akademik Zərifə Əliyeva zəngin irs qoyub, öz tədqiqatları ilə Azərbaycan tibb elmini əhəmiyyətli dərəcədə irəliyə aparıb: "Zərifə xanımı xatırlayanda göz önündə mənəvi kamilliyin uca zirvəsinə yüksəlmiş görkəmli elm fədaisi canlanır. Onun simasında nəcib Azərbaycan qadını, vəfalı ömür-gün yoldaşı, fədakar ana obrazını görürük".

Bakı Musiqi Akademiyasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Zərifə Əliyevanın bacısı qızı Ayəndə Adilova qeyd edib ki, Zərifə xanım Əliyeva yüksək insani keyfiyyətləri ilə Azərbaycan qadınının ideal obrazını yaradıb: "Zərifə xanım musiqisevər bir insan idi. Onun bacısı, mənim anam Gülarə Əliyeva "Dan ulduzu" instrumental ansamblını yaradandan sonra birlikdə ailə tədbirlərində tez-tez pianinoda ifa edirdilər. Musiqi onların evində daim səslənirdi".

"Oftalmologiya elminə verdiyi töhfələrlə yanaşı, insanpərvərliyi ilə də seçilən Zərifə xanımın həyat yolu bizim üçün parlaq nümunədir", - deyə A. Adilova əlavə edib.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra konsert proqramı təqdim olunub.

***"Azərbaycan"***

# Çexiyanın Baş nazirinin Azərbaycana səfəri başa çatıb




Çex Respublikasının Baş naziri Andrey Babişin Azərbaycan Respublikasına rəsmi səfəri aprelin 28-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, Qəbələ Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Çexiyanın Baş naziri Andrey Babişi Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və digər rəsmi şəxslər yola saldılar.

# Elektron hökumət mexanizmlərinin hüquqi əsasları daha da təkmilləşdirilir

Aprelin 28-də Milli Məclisin İnsan hüquqları komitəsinin videokonfrans formatında iclası keçirilib.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Zahid Oruc gündəliyə "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin (birinci oxunuş) daxil edildiyini söyləyib.

Məsələ barədə məlumat verən komitə sədri bildirib ki, qanun layihəsində edilən dəyişikliklərin əsas məqsədi elektron hökumət mexanizmlərinin hüquqi əsaslarını daha da təkmilləşdirmək, dövlət idarəçiliyində operativliyi və səmərəliliyi artırmaqdır. Layihə vətəndaş müraciətlərinin Elektron Hökumət İnformasiya Sistemi (EHİS) üzərindən daha çevik və şəffaf idarə olunmasını, xidmət keyfiyyətinin yüksəldilməsini və rəqəmsallaşma prosesinin gücləndirilməsini nəzərdə tutur. Eyni zamanda qanun layihəsində edilən dəyişikliklər təkrar xarakterli müddəaların aradan qaldırılmasına və prosedurların optimallaşdırılması ilə dövlət tənzimlənməsinin daha effektiv həyata keçirilməsinə xidmət edəcək.

Müzakirələrdə komitənin üzvləri Naqif Həmzəyev, Azər Allahverənov, Hikmət Məmmədov, Mübariz Qurbanlı, Vüqar Rəhimzadə, Sevil Mikayılova və Elman Nəsirov çıxış edərək qanun layihəsinə dair fikirlərini səsləndiriblər, qeyd və təkliflərini irəli sürüblər.

Müzakirələrdən sonra onlayn iclasın gündəliyində olan qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

# "HACCP-nin tətbiqi Azərbaycan şirkətlərinə beynəlxalq standartlara uyğun fəaliyyət imkanı yaradır"

Qida təhlükəsizliyi üzrə beynəlxalq ekspert Anna Vasylenko bildirib ki, HACCP qida təhlükəsizliyinin davamlı şəkildə təmin olunması və təhlükəsiz qida istehsalının təşkili baxımından ən effektiv və etibarlı mexanizmlərdən biridir. Onun sözlərinə görə, qida zəncirində fəaliyyət göstərən bütün müəssisələr üçün bu sistem təhlükələrin əvvəlcədən müəyyən edilməsi və idarə olunmasına imkan yaradır.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) yaydığı məlumatda bildirilib. Qeyd olunub ki, HACCP-ın tətbiqi Azərbaycan şirkətlərinə beynəlxalq səviyyədə qəbul olunmuş standartlara uyğun fəaliyyət göstərməyə imkan yaradır. Bu isə yerli məhsulların rəqabət qabiliyyətinin artırılmasına və ixrac potensialının genişlənməsinə töhfə verir.

Vasylenko, həmçinin vurğulayıb ki, qida təhlükəsizliyi yalnız istehsal mərhələsi ilə məhdudlaşmır, bu proses obyektlərin düzgün planlaşdırılması, layihələndirilməsi və tikintisi mərhələsindən başlayır və qida zəncirinin bütün mərhələlərini əhatə edir. Bu kimi tədbirlər qida təhlükəsizliyi sahəsində qabaqcıl təcrübələrin paylaşılması və tətbiqi baxımından mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, AQTA və Azərbaycan Memarlar İttifaqının birgə təşkilatçılığı ilə keçirilən "Təhlükəsiz qidanın memarlığı" mövzusunda konfrans çərçivəsində HACCP (Təhlükələrin Təhlili və Kritik Nəzarət Nöqtələri) sisteminin əhəmiyyəti əsas müzakirə mövzularından biri olub.

# Leyla Əliyeva və Arzu Əliyeva Şəkidə uşaq evi sosial xidmət müəssisəsində olublar





Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Arzu Əliyeva Şəkidə Sosial Xidmətlər Agentliyinin 6 saylı uşaq evi sosial xidmət müəssisəsini ziyarət ediblər.



AZƏRTAC xəbər verir ki, səfər zamanı Leyla Əliyeva və Arzu Əliyeva müəssisənin fəaliyyəti, valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün yaradılan şərait, onların təlim-tərbiyəsi və sosial müdafiəsi istiqamətində görülən işlərlə yaxından tanış olublar. Bildirilib ki, 1936-cı ildən fəaliyyət göstərən uşaq evi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2018-ci ildə yeni bina ilə təmin edilib.

Sonra Leyla Əliyeva və Arzu Əliyeva uşaqların xüsusi hazırladıqları mədəni proqramı izləyiblər. Proqram çərçivəsində uşaqlar tərəfindən rəqs və musiqi nömrələri təqdim olunub, teatr məşğələsində hazırlanmış səhnəciklər nümayiş etdirilib. Uşaqların yaradıcılıq bacarıqlarını, istedadını və səhnə mədəniyyətini əks etdirən çıxışlar maraqla qarşılanıb.

Sonda müəssisənin kollektivi və uşaqlar ilə xatirə şəkilləri çəkdirilib, hədiyyələr təqdim edilib.

# Leyla Əliyeva və Arzu Əliyeva Şəkidə Xan məscidini ziyarət ediblər



Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Arzu Əliyeva Şəki şəhərinə səfər çərçivəsində Xan məscidini ziyarət ediblər.



AZƏRTAC xəbər verir ki, ziyarət zamanı məscidin imamı Vüqar Məmmədov Leyla Əliyevaya və Arzu Əliyevaya Xan məscidi kompleksi barədə ətraflı məlumat verib. Bildirilib ki, XVIII əsrə aid olan Şəki Xan məscidi şəhərin mühüm dini-mədəni və tarixi-memarlıq abidələrindən biridir. Tarixi mənbələrə və abidə üzərindəki kitabələrə əsasən, məscid Hacı Məhəmmədhüseyn Xan tərəfindən inşa etdirilib.

Qeyd olunub ki, tarixi Şəki Xan məscidində bərpa işləri Heydər Əliyev Fondu tərəfindən həyata keçirilib. Eləcə də məscid kompleksinin ərazisində muzey yaradılıb. Muzeydə Şəki xanlığı dövrünə aid eksponatlar, müxtəlif mənbələrdən toplanmış maddi-mədəniyyət nümunələri nümayiş olunur.

Muzey Şəki xanlığının yaranması və formalaşması tarixini, eləcə də onun milli dövlətçilik tariximizdə xüsusi yerini əyani şəkildə nümayiş etdirir.

Sonda Leyla Əliyevaya və Arzu Əliyevaya "Qurani-Kərim" hədiyyə olunub.

# Leyla Əliyeva və Arzu Əliyeva Şəkidə tarixi-memarlıq abidələrinin bərpadan sonra açılışında iştirak ediblər

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva Şəkidə "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun ərazisində yerləşən bir sıra tarixi-memarlıq abidələrinin bərpadan sonra açılışında iştirak ediblər.









AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva və Arzu Əliyeva Şəki Tarix-Diyarşünaslıq Muzeyi, Şəbəkə Emalatxanası və Təlim Mərkəzində yaradılmış şəraitlə tanış olublar. Bildirilib ki, həyata keçirilən bərpa və konservasiya işləri tarixi irsin qorunmasına, Şəkinin qədim sənətkarlıq ənənələrinin yaşadılmasına, həmçinin şəhərin turizm potensialının daha da artırılmasına xidmət edir.

Şəki Tarix-Diyarşünaslıq Muzeyində bölgənin tarixini, mədəniyyətini, etnoqrafiyasını, ənənəvi sənətkarlığını və kulinariya irsini əks etdirən eksponatla baxış keçirilib. Muzeydə ümumilikdə üç mindən çox maddi-mədəni dəyərə malik eksponat qorunur, onlardan 1826-sı sərgi zallarında təqdim edilir.

Qeyd olunub ki, "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun ərazisində digər tarixi-memarlıq abidələrinin bərpa və konservasiya işləri mərhələli şəkildə davam etdiriləcək. Səfər zamanı Şəbəkə Emalatxanası və Təlim Mərkəzinə də baxış keçirilib. Qeyd olunub ki, burada şəbəkə sənətinə həsr olunmuş sərgi salonu, emalatxana və təlim otaqları yaradılıb. Leyla Əliyeva və Arzu Əliyeva məşhur şəbəkə ustası Tofiq Rəsulov və onun şagirdləri ilə görüşüb, şəbəkə nümunələrinin hazırlanması prosesində iştirak ediblər. Onlar Azərbaycanın bu qədim sənət növünün yaşadılması və gələcək nəsillərə ötürülməsi istiqamətində gördüyü işlərə görə Tofiq Rəsulova minnətdarlıqlarını bildirib, ustaya və şagirdlərinə uğurlar arzulayıblar.

Sonra şirniyyat hazırlanmasında iştirak edən Leyla Əliyeva və Arzu Əliyeva həmçinin ABAD və Keramika Tətbiqi Sənət Mərkəzi ilə tanış olublar.

# Leyla Əliyeva və Arzu Əliyeva Şəkidə ABAD Keramika və Tətbiqi Sənət Mərkəzi ilə tanış olublar

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Arzu Əliyeva Şəkidə "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun ərazisində fəaliyyət göstərən ABAD Keramika və Tətbiqi Sənət Mərkəzi ilə tanış olublar.





AZƏRTAC xəbər verir ki, mərkəzin yaradılmasında əsas məqsəd Azərbaycanın, xüsusilə Şəki bölgəsinin qədim keramika irsinin qorunması, bu sənət ənənələrinin gələcək nəsillərə ötürülməsi və ölkəmizin mədəni irsinin tərkib hissəsi kimi beynəlxalq səviyyədə tanıdılmasına töhfə verməkdir.

Qeyd olunub ki, mərkəzdə yerli sənətkarlar üçün əlverişli istehsal şəraiti yaradılıb, onların məhsullarının bazara çıxışı və yaradıcılıq fəaliyyətinin inkişafı dəstəklənir.

Daha sonra Leyla Əliyeva və Arzu Əliyeva ABAD-çı rəssam keramistlərin fəaliyyəti ilə yaxından tanış olub, keramika məhsullarının hazırlanması prosesində sənətkarlarla birlikdə iştirak ediblər. Sənətkarlar tərəfindən müxtəlif keramika



nümunələrinin hazırlanmasında Leyla Əliyevanın rəsm əsərlərindən ilham alındığı diqqətə çatdırılıb. Leyla Əliyeva əsərlərinə göstərilən diqqətə görə keramistlərə təşəkkür edib, milli sənət ənənələrinin qorunması və inkişafı istiqamətində fəaliyyətlərini yüksək qiymətləndirib, onlara yeni yaradıcılıq uğurları arzulayıb.

Sonda mərkəzin kollektivi və sənətkarlarla xatirə şəkilləri çəkdirilib.

# Azərbaycan növbəti beynəlxalq tədbirə hazırlaşır

## WUF13 iştirakçı ölkələrə şəhərsalma təcrübələrini bölüşmək üçün geniş imkan verəcək

Ötən əsrin əvvəlindən başlanan urbanizasiya prosesi bu gün də davam edir. İnkişaf etmiş ölkələr üzrə şəhərlərdə yaşayan əhalinin səviyyəsi 90 faizdən yuxarıdır və həmin ölkələrdə bu proses, demək olar ki, başa çatıb. Lakin inkişaf etməkdə olan və geridə qalan ölkələrdə isə urbanizasiya prosesləri davam edir.

Hazırda iqtisadi cəhətdən geridə qalan ölkələrdən inkişaf etmiş ölkələrə insanların kütləvi köç etməsi üzündən mədəniyyətlərarası ziddiyyətlərin baş verməsinin şahidi oluruq. İş və yaxşı yaşamaq üçün insanların şəhərlərə üz tutması meqapolislərdə ciddi sosial problemlərin meydana gəlməsi ilə müşahidə edilir, başqa sözlə, artan əhalinin iş, təhsil, səhiyyə və mənzillə təminatı ciddi sıxıntılara gətirib çıxarır. Bunun üçün dünya səviyyəsində şəhərsalmada yeni qaydalardan istifadə olunması, təcrübə mübadiləsinin aparılması zərurəti yaranır və belə qlobal məsələlərin həllinə Birləşmiş Millətlər Təşkilatı səviyyəsində diqqət yetirilir.

Məlum olduğu kimi, gələn ay Bakıda Dünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) keçiriləcək. Belə bir mötəbər tədbirin ölkəmizdə keçirilməsi BMT səviyyəsində Azərbaycana göstərilən etimadın göstəricisidir. Digər tərəfdən, ölkəmizin dünyada şəhərsalma ilə bağlı həllərin öyrənilməsinə ehtiyacı var. 30 illik erməni işğalı nəticəsində şəhər və kəndlərimiz xarabazarlığa çevrilib. İndi biz həmin dağılmış yaşayış məntəqələrini müasir şəhərsalma təcrübəsindən istifadə edərək yenidən qururuq.

Bu beynəlxalq tədbirlə əlaqədar ölkə ictimaiyyətinin forum barədə məlumatlandırılması məqsədilə müxtəlif şəhərlərdə WUF13 festivallarının keçirilməsinə başlanılıb. Bu çərçivədə günün birinci yarısı tədbirin keçirildiyi şəhərlərdə WUF13 ilə bağlı məlumatlandırma sessiyaları təşkil ediləcək. Axşam saat 18:00-da isə festival açıq havada keçirilərək ictimai proqramlarla yekunlaşacaq.

Festivalın açılışı dünən Bakıda Dənizkənarı Bulvar ərazisində yerləşən Saat Qülləsi meydanında baş tutub. Növbəti tədbirlərin aprelin 29-da Sumqayıtın Göyərçin Parkında, aprelin 30-da Quba şəhərinin Nizami Parkında, mayın 2-də Lənkəran şəhərinin Qala Xiyabanı Parkında, mayın 4-də Qəbələ şəhərinin Heydər Əliyev Parkında, mayın 5-də Şəki şəhərinin Bəxtiyar Vahabzadə Parkında, mayın 6-da Mingəçevir şəhərinin Heydər Əliyev meydanında, mayın 8-də Gəncənin Heydər Əliyev adına meydanında keçirilməsi nəzərdə tutulur. Festival marafonu mayın 10-da Xankəndi şəhərinin Zəfər meydanında davam edəcək. Mayın 13-də isə Bakıda Dənizkənarı Bulvar ərazisində yerləşən Saat Qülləsi meydanında xüsusi tədbirlə başa çatacaq.

Bunlardan savayı, WUF13-ə hazırlıqla bağlı Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və BMT-nin Məskunlaşma Proqramının birgə təşəbbüsü olan Azərbaycan Şəhərsalma Kampaniyası (AUC2026) çərçivəsində Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə "Gənclər şəhərlər üçün" mövzusunda milli səviyyəli müzakirələrin ilkin məlumatlandırma görüşü keçirilib. Ölkədə fəaliyyət göstərən 33 Gənclər Evində keçən bu müzakirələrin əsas məqsədi gənclərin şəhərsalma və şəhər inkişafı proseslərində fəal iştirakını təşviq etmək olub. Bu çərçivədə gənclərlə şəhər mobilliyi, inklüziv ictimai məkanlar, davamlı şəhər inkişafı və urban problemlər üzrə müzakirələr aparılıb. Eyni zamanda ideyalar toplanıb və ilkin həll təklifləri formalaşdırılıb.

Forumun tarixində ilk dəfə olaraq Bakıda Liderlərin Zirvə Görüşü də keçiriləcək. Azərbaycan hökumətinin təşəbbüsü ilə təşkil olunan bu görüş dünyanın müxtəlif ölkələrindən dövlət və hökumət başçılarını, eləcə də yüksəksəviyyəli liderləri Bakıda bir araya gətirəcək. "Zirvə görüşü şəhərlərin gələcəyinə dair strateji prioritetləri müəyyənləşdirmək, beynəlxalq əməkdaşlığı gücləndirmək və Yeni Şəhərsalma Gündəliyinə töhfə vermək məqsədi daşıyır. Bu təşəbbüslər bir daha göstərir ki, mənzil təminatı və şəhərsalma artıq yalnız texniki məsələ deyil, qlobal səviyyədə strateji əhəmiyyət daşıyan və yüksəksəviyyəli liderlik tələb edən sahədir", - deyə WUF13-ün milli koordinatoru Anar Quliyev bildirib.

Bir sözlə, tədbirə qatılacaq ölkələr üçün WUF13 öz şəhərsalma təcrübələrini təqdim etmək, innovativ yanaşmaları bölüşmək və qlobal dialoqa töhfə vermək baxımından geniş imkan yaradacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Azərbaycanın yeni inkişaf mərhələsi - ETN İnformasiya Texnologiyaları İnstitutu ilə




**Bəzən insan bir məkana addımını atarkən aldığı ilk təəssürat sonrakı düşüncələrinin istiqamətini müəyyənləşdirir. İlk baxışda gördüyü səliqə-sahman, hiss etdiyi atmosfer, düşdüyü peşəkarlıq mühiti həmin ocağın mahiyyəti haqqında onda ciddi fikir formalaşdırır. "Azərbaycan" qəzetinin kollektivi ilə Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunda keçirilən konfrans zamanı bizdə də məhz belə bir qənaət yarandı.**

**İnstituta daxil olan andan aydın hiss edilirdi ki, burada təkcə araşdırmalar aparılmır, eyni zamanda gələcəyin üfüqləri sezilir. O üzdən bu görüş sadəcə tanışlıq və fikir mübadiləsi deyildi, həm də elmin nəbzinin, dövlətçilik düşüncəsinin və milli inkişaf strategiyasının canlı ritmini yaşamaq idi.**

İnformasiya Texnologiyaları İnstitutu uzun illərdir ölkəmizdə elmi-texnoloji yeniliklərin əsas ünvanlarından biri kimi tanınır. Obrazlı desək, bu elm məbədi Azərbaycanın rəqəmsal gələcəyinə yol göstərən mayak, İKT sahəsi üçün isə etibarlı kadr bankıdır. Burada işləyib yetişən mütəxəssislər dövlət idarəçiliyindən tutmuş müdafiə sənayesinə, ali təhsil müəssisələrinə və biznes qurumlarına qədər bir çox mühüm sahələrdə uğurla fəaliyyət göstərirlər.

Qlobal kibertəhdidlərlə mübarizədə isə institutun fəaliyyətinin və intellektual dəstəyinin xüsusi rolu var. Müasir dövrdə sərhədlərin yalnız coğrafi məkanda deyil, rəqəmsal məkanda da qorunması olduqca aktualdır. Bu baxımdan, institutun elmi potensialı və yetişdirdiyi peşəkar kadrlar ölkənin informasiya təhlükəsizliyinin möhkəmləndirilməsində mühüm rol oynayırlar. Müdafiə qurumları ilə əməkdaşlıq, qabaqcıl informasiya texnologiyalarının hərbi sənayeyə tətbiqi, mühüm əhəmiyyətli rəqəmsal sistemlərin hazırlanması bu elm ocağının strateji missiyasının istiqamətlərinin az bir hissəsidir.

İnstitut ölkəmizdə bir sıra ilklərin ünvanıdır. Azərbaycanda rəqəmsal dövlət, elektron elm mühitinin formalaşdırılması, elm və ali təhsil müəssisələrinin vahid şəbəkə platforması üzərindən inteqrasiyası, informasiya təhlükəsizliyi üzrə fundamental tədqiqatların genişləndirilməsi, süni intellekt həlləri, bulud texnologiyalarının araşdırılması istiqamətində ilk sistemli təşəbbüslər məhz burada həyata keçirilib. AzScienceNet elm-kompüter şəbəkəsinin yaradılması və idarə olunması da institutun mühüm uğurlarındandır. Bu şəbəkə Azərbaycan elmini Avropa elm və təhsil məkanına bağlayan virtual körpüdür.

İnstitutun həyatına daxil olanda diqqəti ilk cəlb edən səliqə-sahman, nizam-intizam və işgüzar mühit olur. Burada alman intizamı, yapon dəqiqliyi və Çin çalışqanlığı bir araya gələrək vahid harmoniya yaradır. Ən adi detalda əməklə insan zəkasının vəhdəti hiss olunur. Təmizlik, səliqə və estetik görünüş baxımından institut bir çox nümunəvi tibb müəssisələri ilə belə rəqabət aparacaq səviyyədədir. Bu isə təsadüfi deyil - institutda elmə münasibət həm də mühitə münasibətdə özünü göstərir.

Qəzetimizin kollektivini institutun həyətində qarşılayan AMEA-nın vitse-prezidenti, institutun baş direktoru, akademik Rasim Əliquliyev səmimi söhbət zamanı rəhbərlik etdiyi elm ocağı ilə həyat yolunun 1979-cu ildən bağlı olduğunu bildirdi. Qeyd etdi ki, bu gün göz önündə olan müasir şəraitin yaradılmasında bir mühəndis, arxitektor kimi şəxsən iştirak edib.

**Akademik Rasim ƏLİQULİYEVİN** təqdimatında institutun tarixi inkişaf yolu da bir salnamə kimi canlandı. Öyrəndik ki, bu unikal elm ocağının təməli 1971-ci ildə Azərbaycan Elmlər Akademiyası Kibernetika İnstitutunun nəzdində yaradılmış Avtomatlaşdırılmış İdarəetmə Sistemləri Şöbəsi ilə qoyulub. Sonralar bu şöbə müstəqil qurum kimi fəaliyyətini genişləndirib, daha sonra İnformasiya-Telekommunikasiya Elmi Mərkəzinə çevrilib və nəhayət, 2002-ci ildə ölkənin aparıcı elmi-tədqiqat müəssisələrindən biri olan İnformasiya Texnologiyaları İnstitutu kimi yeni mərhələyə qədəm qoyub. 2022-ci ildən isə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində fəaliyyətini davam etdirir.

Bu gün institut yalnız tədqiqat aparan müəssisə deyil, həm də gələcəyin texnoloji inkişafına töhfə verən bir strateji araşdırma mərkəzidir. Burada süni intellekt, big data analitikası, data mining, rəqəmsal dövlət və kibertəhlükəsizlik, Industry 4.0 platformasında mürəkkəb kiberfiziki və bulud sistemləri, rəqəmsal səhiyyə və intellektual tibb sistemləri, proqram mühəndisliyi kimi istiqamətlərdə əhəmiyyətli elmi araşdırmalar aparılır.

İnstitutda eyni zamanda virtual platformada Azərbaycan dili eksosisteminin formalaşdırılması, kiberdayanıqlıq, rəqəmsal kriminalistika, elmmetriya kimi milli əhəmiyyətli sahələr üzrə də mühüm innovativ tədqiqatlar həyata keçirilir. Bu yanaşma göstərir ki, institut yalnız qabaqcıl texnologiyalar yaratmır, həm də onları cəmiyyətin xidmətinə verir.

Son illər əldə edilən elmi nailiyyətlər də diqqətəlayiqdir. Böyük həcmli məlumatların intellektual analizi üçün metodların, kritik infrastrukturların kibermüdafiəsi üçün yeni həllərin işlənməsi, bulud resurslarının optimal idarə olunması modellərinin qurulması, rəqəmsal demoqrafiya sistemləri üçün süni intellekt metod və alqoritmlərinin yaradılması, kiberhücumların aşkarlanması məqsədilə dərin neyron şəbəkələrinin tətbiqi bu uğurların yalnız bir hissəsidir.

İnstitutun mühüm missiyalarından biri də elmi kadr hazırlığıdır. Burada kompüter elmləri, sistemli analiz, informasiya təhlükəsizliyi üzrə yüksəkixtisaslı mütəxəssislər, fəlsəfə doktorları və elmlər doktorları hazırlanır. Başqa sözlə, bu mərkəz təkcə bu günün deyil, sabahın da alimlərini yetişdirir.

Konfrans akademik Rasim Əliquliyevin iştirakı ilə institutun kiçik akt zalında davam etdi. Akademik sözü "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqova verməzdən əvvəl qəzetin dövlətin informasiya siyasətinin həyata keçirilməsində müstəsna rolundan xüsusi ehtiramla danışdı. Vurğuladı ki, "Azərbaycan" qəzeti dövlətçilik düşüncəsinin etibarlı tribunasına çevrilmiş nüfuzlu mətbuat orqanıdır: "Bu qəzet zamanın sınağından çıxaraq bu gün həqiqətin, obyektivliyin və milli maraqların keşiyində dayanır. Qəzetin səhifələrində yayımlanan hər yazıda siyasi mədəniyyət, məsuliyyət hissi, dövlətə sədaqət və peşəkar jurnalistikanın aydın xətti görünür. "Azərbaycan" qəzeti gündəlik informasiyanı yayan vasitə olmaqla yanaşı, cəmiyyətin düşüncə istiqamətini müəyyənləşdirən intellektual təbliğat platformasıdır".

**"Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar SADIQOV** çıxışına tədbirin təşəbbüskarı akademik Rasim Əliquliyevə, konfransın təşkilatçılarına və iştirakçılarına səmimi minnətdarlığını bildirməklə başladı. Qeyd etdi ki, belə dialoq və intellektual müzakirə platformalarının təşkili bu gün xüsusilə vacibdir, çünki dünya mürəkkəb və gərgin bir mərhələ yaşayır: "Bu gün dünyanın müxtəlif bölgələrində müharibələr gedir, şəhərlər dağılır, minlərlə insan həlak olur, cəmiyyət təhlükə və qeyri-müəyyənlik içində yaşayır. Ümumi mənzərəyə nəzər saldıqda, sanki planetimiz böyük bir qarşıdurma meydanını xatırladır. Bu qlobal gərginliyin nə zaman sona çatacağı isə bəlli deyil. Təbii ki, belə proseslər dünya iqtisadi sisteminə də ciddi təsir göstərir. Enerji daşıyıcılarının qiymətləri artır, hava məkanları bağlanır, dəniz yollarında maneələr yaranır, beynəlxalq ticarət zəncirləri qırılır. Dünyaya baxanda nikbinlik doğuran hər hansı bir mənzərəni görmək getdikcə mümkünsüz olur.

Belə bir mürəkkəb dövrdə Azərbaycan sabitlik, inkişaf və əmin-amanlıq adasını xatırladır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2020-ci ildə xalqımızın 30 il həsrətlə gözlədiyi əmri verdi, Azərbaycan öz ərazi bütövlüyünü və dövlət suverenliyini tam bərpa etdi. Bu, yalnız hərbi zəfər deyildi, uzun illər regionu təhdid edən münaqişə ocağının birdəfəlik söndürülməsi, beynəlxalq hüququn bərpası və tarixi ədalətin təntənəsi idi.

Zaman artıq sübut edib: Prezident İlham Əliyev nəyi nə zaman və necə etmək lazım olduğunu bilən nadir dövlət xadimlərindəndir. Son onilliklər dünyada bir çox münaqişələr həll olunmamış qaldığı halda, Azərbaycan lideri separatizmi aradan qaldırmağa, işğala son qoymağa və ölkənin suverenliyini tam təmin etməyə nail oldu. Bu uğurun əsasında sözsüz ki, hər bir addımı ölçülüb-biçilmiş, uzaqgörən və milli maraqlara söykənən siyasət dayanır.



44 günlük Vətən müharibəsi həm də onu təsdiq etdi ki, müasir dövrdə müharibələr artıq ənənəvi üsullarla aparılmır. Bu gün döyüş meydanında qabaqcıl texnologiyalar, süni intellekt, rəqəmsal idarəetmə, yüksək dəqiqliyə malik sistemlər və innovativ həllər əsas rol oynayır. Azərbaycan bu sahədə də ilklərə imza atan dövlət olduğunu nümayiş etdirdi. Dövlətimizin başçısı bu gün Azərbaycanın yeni rəqəmsal gələcəyinin memarı kimi ardıcıl addımlar atır. Cari ilin fevral ayında "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın təsdiqlənməsi bu istiqamətdə strateji yol xəritəsidir. Ardınca mart ayında ölkənin rəqəmsal arxitekturasının yaradılmasına həsr olunmuş müşavirənin keçirilməsi göstərdi ki, bu məsələ dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Prezidentin "Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" fərmanı da xüsusi əhəmiyyət daşıyır. Həmin fərmanla Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının yaradılması və ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın şuranın sədri təyin olunması bu sahəyə verilən yüksək diqqətin təsdiqidir.

Fevralın 11-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı müşavirədə dövlət başçısı çox mühüm strateji baxış ortaya qoyub. Prezidentin səsləndirdiyi fikirlər Azərbaycanın gələcək inkişaf istiqamətlərini aydın müəyyənləşdirir: "Nəqliyyat, energetika dəhlizləri gələcəkdə fiber-optik dəhlizlərinə də çevrilməlidir. Bu istiqamətdə müəyyən işlər görülüb. Neft-qaz kəmərləri tikilən zaman, o cümlədən bu məsələ də öz həllini tapıb. Ancaq bu, təbii ki, bugünkü tələblərə cavab vermir. Ona görə rəqəmsallaşma, süni intellekt, data mərkəzlərinin yaradılması istiqamətində də bizim təşəbbüslərimiz ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafını təmin etməlidir. Bizim bir çox üstünlüklərimiz var".

Bu proqramlarda hər detal ölçülüb-biçilib, bütün çağırışlar dəqiqliklə nəzərə alınıb. Burada söhbət yalnız texnologiyadan getmir, həm də xalqımızın gələcəyindən, Azərbaycanın dünyadakı yerindən, nüfuzundan və rəqabət qabiliyyətindən gedir.

Prezident İlham Əliyevin qarşıya qoyduğu böyük hədəflər, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu sahəyə rəhbərliyi və dövlətin siyasi iradəsi Azərbaycanın rəqəmsal inkişaf sahəsində də qısa müddətdə nümunəvi ölkələrdən birinə çevriləcəyinə möhkəm təminat verir. Əminik ki, Azərbaycan siyasi, iqtisadi və hərbi sahədə uğur modeli yaratdığı kimi, rəqəmsallaşma və innovasiya istiqamətində də yeni bir inkişaf nümunəsi ortaya qoyacaq.

Belə bir mərhələdə elmi düşüncənin imkanları ilə peşəkar media tribunasının bir araya gəlməsi Prezident İlham Əliyevin təşəbbüslərinin həyata keçirilməsinə mühüm dəstəkdir. Çünki böyük proqramların uğuru həmçinin onların mahiyyətinin cəmiyyət tərəfindən anlaşılması, qəbul edilməsi və dəstəklənməsi ilə ölçülür.

Bu görüş elmlə medianın səmərəli əməkdaşlığının yeni mərhələsinin başlanğıcıdır. Şübhə etmirik ki, ETN İnformasiya Texnologiyaları İnstitutunun intellektual potensialı və "Azərbaycan" qəzetinin güclü informasiya platforması birləşərək dövlətimizin yeni rəqəmsal arxitekturasının qurulmasına sanballı töhfələr verəcək, cəmiyyətin bu sahədə maariflənməsində mühüm rol oynayacaq".

Sonra çıxışlar oldu.

**İnstitutun icraçı direktoru, Əməkdar mühəndis, texnika üzrə fəlsəfə doktoru, dosent Rəşid ƏLƏKBƏROV:**

- Müasir dövrdə şəbəkə-kommunikasiya suverenliyi və kibersuverenlik milli təhlükəsizliyin təmin olunmasının əsas hədəflərindən birinə çevrilib. Bu suverenliyin əsasında dayanıqlı, çoxşaxəli və ölkənin nəzarətində olan telekommunikasiya infrastrukturu dayanır. Azərbaycan əlverişli coğrafi mövqeyindən istifadə edərək rəqəmsal tranzit imkanlarını genişləndirir və regional rəqəmsal ekosistemdə strateji rolunu möhkəmləndirir. Ölkənin İnternet və kommunikasiya infrastrukturunun dayanıqlığının təmin edilməsi məqsədilə beynəlxalq bağlantılar alternativ marşrutlar üzrə qurulmuşdur. Bu yanaşma şəbəkənin davamlılığını artırır və xarici təsirlərə qarşı dayanıqlığı gücləndirir.

Trans-Xəzər Rəqəmsal Magistral layihəsi Azərbaycanın Şərq-Qərb rəqəmsal dəhlizində rolunu daha da gücləndirir. Enerji və nəqliyyat dəhlizləri ilə paralel inkişaf edən fiber-optik infrastruktur ölkəni regional data tranzit mərkəzinə çevirir. Bununla yanaşı, peyk rabitə sistemləri yerüstü şəbəkələrə alternativ və fövqəladə hallarda dayanıqlı kommunikasiya imkanları yaradır.

Şəbəkə-kommunikasiya suverenliyinin mühüm istiqamətlərindən biri də məlumatların milli səviyyədə idarə olunmasıdır. Milli Bulud (Government Cloud) infrastrukturu çərçivəsində dövlət və kritik informasiya resurslarının ölkə daxilində saxlanılması təmin edilir. Bu yanaşma həm informasiya təhlükəsizliyinin lazımi səviyyədə təmin olunmasına imkan yaradır, həm də hüquqi və texnoloji nəzarəti gücləndirir. "mygov" platforması vasitəsilə dövlət xidmətlərinin mərkəzləşdirilməsi isə vahid rəqəmsal ekosistemin formalaşmasına və çoxməqsədli intellektual təhlillərin aparılmasına xidmət edir.

2026-cı il fevralın 11-də "Azərbaycanın yeni rəqəmsal arxitekturası"na həsr olunmuş müşavirədə Prezident İlham Əliyev ölkənin enerji potensialının rəqəmsal transformasiya üçün əsas baza olduğunu qeyd etmişdir. Son illərdə elektrik generasiya gücünün təxminən iki dəfə artaraq 10 min meqavata çatması süni intellekt, data mərkəzləri və yüksək sürətə malik hesablama sistemlərinin inkişafı üçün geniş imkanlar yaradır.

Bu strategiyanın tələblərinə əsasən, 2026-cı ildə Milli Superkompüter Mərkəzinin yaradılması nəzərdə tutulur. Mərkəz böyük verilənlərin ölkə daxilində emalına, süni intellekt həllərinin inkişafına və xarici hesablama sistemlərindən asılılığın azaldılmasına xidmət edəcək. Sistem həmçinin dövlət, elm və özəl sektor üçün açıq platforma kimi də fəaliyyət göstərəcəkdir.

Bu məsələlərin aktuallığını nəzərə alaraq, institutda şəbəkə-kommunikasiya suverenliyi və rəqəmsal infrastrukturun inkişafı istiqamətində elmi tədqiqatlar aparılır və yüksəkixtisaslı kadrlar hazırlanır.

**İnstitutun şöbə müdiri, AMEA-nın müxbir üzvü, professor Məsumə MƏMMƏDOVA:**

- Əhalinin sağlamlığının qorunması və vətəndaşların həyat keyfiyyətinin yüksəldilməsi milli təhlükəsizliyin əsas hədəflərindən biridir. Bu baxımdan, səhiyyə sisteminin rəqəmsallaşdırılması hər zaman dövlət siyasətinin prioritet istiqamətləri sırasında yer alıb. Son illərdə Prezident İlham Əliyev tərəfindən irəli sürülən "Azərbaycanın yeni rəqəmsal arxitekturası" çərçivəsində müxtəlif dövlət qurumlarında, o cümlədən ölkənin səhiyyə sistemində, özəl tibb sektorlarında rəqəmsallaşma prosesləri daha da sürətlənib.

Səhiyyənin rəqəmsallaşdırılması istiqamətində mühüm təşəbbüslər və layihələr həyata keçirilsə də, xəstəliklərin diaqnostikası, əhaliyə daha keyfiyyətli tibbi xidmətlərin göstərilməsi və vətəndaşların tibbi məlumatlara və biliklərə çıxışının təmin olunması rəqəmsal, xüsusən də süni intellekt texnologiyalarının daha geniş tətbiqini zəruri edir.

Bu səbəbdən 2014-cü ildən etibarən institutda elektron tibbin formalaşmasının elmi-nəzəri və tətbiqi problemlərinin tədqiqi prioritet istiqamətlərdən biri kimi müəyyən edilərək sistemli araşdırmalara başlanılıb. Bu problemlərin cəmiyyət və ölkənin tibbi ictimaiyyəti üçün əhəmiyyətini nəzərə alaraq, 2016-cı ildə maraqlı qurumlarla birgə İnformasiya Texnologiyaları İnstitutunun təşkilatçılığı ilə "Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı keçirilib.

Son illərdə qabaqcıl rəqəmsal texnologiyaların və Sənaye 4.0 həllərinin tibbə tətbiqi səhiyyənin inkişafı üçün yeni imkanlar açıb. Bu proses geniş spektrli elmi-nəzəri və tətbiqi tədqiqatların inkişafına təkan vermiş, yeni Səhiyyə 4.0 paradiqmasının formalaşmasına zəmin yaratmışdır.

Səhiyyə 4.0 konsepsiyasının əsasını süni intellekt, böyük verilənlər, rəqəmsal əkiz texnologiyaları, bulud xidmətləri və Əşyaların İnterneti texnologiyaları əsasında yaradılan kiberfiziki sistemlər təşkil edir. Bu texnologiyaların tibbə inteqrasiyası nəticəsində böyük həcmdə tibbi məlumatların fasiləsiz toplanması, səhiyyə data ekosisteminin qurulması, tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi və daha dəqiq qərarların qəbuluna dəstək mümkün olur. Eyni zamanda bu rəqəmsal innovasiyalar vətəndaşların zaman və məkandan asılı olmayaraq, tibbi xidmətlərə çıxışını asanlaşdırır, fərdiləşdirilmiş tibbin inkişafına təkan verir və səhiyyə xərclərinin azalmasına şərait yaradır.

Müasir tibbi praktikada həkimin əsas vəzifələrindən biri dəqiq diaqnozun qoyulması, xəstəliyin müalicəsi prosesinin onlayn monitorinqi, nəticələrinin proqnozlaşdırılması və düzgün müalicə taktikasının seçilməsidir. Bu baxımdan, süni intellekt texnologiyaları həkimlərə xəstəliklərin erkən aşkarlanması, əsaslandırılmış qərarların qəbulu, səhvlərin minimuma endirilməsi və pasiyentin sağlamlıq vəziyyətinin real vaxt rejimində monitorinqi üçün geniş imkanlar yaradır. Eyni zamanda süni intellekt böyük həcmli məlumatları analiz edərək pasiyentin səhhəti ilə bağlı gözlə görünməyən, hiss edilməyən gizli qanunauyğunluqları aşkarlayır.

Azərbaycanda rəqəmsal səhiyyə məlumatlarının toplanması, emalı və mübadiləsi, müxtəlif təyinatlı tibbi informasiya sistemlərinin yaradılması, tibbi məlumatlara əlçatanlığın artırılması, pasiyent məmnunluğunun təmin olunması və həkim qərarlarının intellektual dəstəklənməsi kimi məsələlərin müzakirəsi məqsədilə 2025-ci ildə İnformasiya Texnologiyaları İnstitutunda aidiyyəti qurumların dəstəyi ilə "Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransı keçirilib.

Hazırda rəqəmsal tibbin formalaşması istiqamətində institutda bir sıra mühüm elmi-praktiki tədqiqatlar davam etdirilir. Bunlara əhalinin sağlamlığı və tibbi-demoqrafik təhlükəsizliyin idarə olunması üçün modellərin hazırlanması, vahid milli tibbi informasiya fəzasının formalaşdırılması, konseptual və arxitektur-texnoloji əsaslarının işlənməsi, bəzi xəstəliklər üzrə müalicə-diaqnostik qərarları dəstəkləyən intellektual sistemlərin hazırlanması, sosial media mühitində ictimai tibbi rəylərin təhlili və tibbi təsvirlər əsasında xəstəliklərin proqnozlaşdırılması üçün süni intellekt metodlarının işlənməsi daxildir.

Bütün bunlar göstərir ki, rəqəmsal səhiyyə artıq gələcəyin deyil, bu günün reallığıdır. Azərbaycanda bu sahədə atılan addımlar müasir səhiyyə modelinin qurulması, insan sağlamlığının daha etibarlı qorunması və vətəndaş məmnunluğunun artırılması istiqamətində mühüm uğurlar əldə etməkdədir.

**İnstitutun şöbə müdiri, AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru Ramiz ALIQULİYEV:**

- Müasir dövrdə dünyanın ən dəyərli aktivi artıq neft deyil, datadır. XX əsrdə sənaye neft üzərində qurulduğu kimi, XXI əsrdə rəqəmsal iqtisadiyyat, süni intellekt, avtomatlaşdırma və idarəetmə data üzərində qurulur. Beləliklə, datanın "yeni neft" hesab edildiyi dövrdə, dövlətin öz rəqəmsal aktivləri üzərində mülkiyyət hüququnu qoruması suverenlik məsələdir. Real məkanda dövlətin suverenliyinin təmini ən ali məqsəd olduğu kimi, virtual məkanda da rəqəmsal dövlətin kibersuverenliyinin təmin olunması heç də asan məsələ deyil. Rəqəmsal dövlətin kibersuverenliyi dedikdə, bir ölkənin virtual mühitdə müstəqil qərarlarını vermə, öz infrastrukturunu qoruma və daxili rəqəmsal proseslərə nəzarət etmə qabiliyyəti və immunitetidir.

Rəqəmsal dövlətin kibersuverenliyinin əsas komponentlərindən biri də data suverenlikdir. Data suverenliyi dayanıqlı və təhlükəsiz rəqəmsal dövlətin müstəqilliyinin təməl daşıdır. Data suverenliyi olmadan rəqəmsal dövlətin kibersuverenliyi haqqında danışmaq əsaslandırılmamış bir iddiadır, reallıq deyil. Data suverenliyi - dövlət və vətəndaşlara aid datanın toplandığı məkandan asılı olmayaraq, həmin resursların mənsub olduğu ölkənin qanunvericiliyinə tabe olması prinsipidir.

Data suverenliyinin təmini bir neçə istiqamətdə xüsusilə önəmlidir və həm də kritikdir. Əvvəla, bu milli təhlükəsizlik nöqteyi-nəzərindən önəmlidir. Belə ki, dövlət sirri, vətəndaşların fərdi məlumatları və ya kritik infrastrukturların (enerji, su, nəqliyyat, elm, təhsil, bank, maliyyə, tibb və s.) datası xarici bulud servislərində saxlanılarsa, həmin data xarici dövlətlərin hüquqi yurisdiksiyasına düşə bilər.

# rəqəmsal gələcəyin yol xəritəsi

## "Azərbaycan" qəzetinin birgə konfransı

Bu mənada data suverenliyi belə risklərin qarşısını alır. İkincisi, data suverenliyi rəqəmsal asılılığı azaldır. Əgər bir dövlətin bütün datası xarici texnoloji nəhənglərin (məsələn, Amazon, Google, Azure və s.) infrastrukturunda saxlanılırsa, həmin şirkətlər və ya onların aid olduğu ölkələr istədikləri vaxt embarqo tətbiq edə bilər. Data suverenliyi isə yerli bulud texnologiyalarının və data mərkəzlərinin inkişafını tələb edərək bu asılılığı minimuma endirir. Nəhayət, data suverenliyi hüquqi, müdafiə baxımından da önəmlidir. Belə ki, kibersuverenliyin təmin olunması üçün datanın fiziki olaraq ölkə hüdudlarında saxlanılması vacibdir. Bu, hər hansı bir kiberinsident zamanı yerli qanunvericiliyin tətbiqinə və operativ müdaxiləyə imkan verir.

Yuxarıda deyilənləri nəzərə alaraq, belə qənaətə gəlinir ki, data suverenliyinin üç əsas komponenti var: 1) data rezidentliyi (datanın hansı coğrafi məkanda saxlanılması); 2) data təhlükəsizliyi (dataya kimlərin giriş icazəsinin olması və vətəndaşların hüquqlarının qorunması); 3) data idarəçiliyi (datanın idarə edilməsi və ona nəzarət edən tərəfin müəyyən edilməsi).

Beləliklə, kibersuverenlik kontekstində data sadəcə informasiya deyil, həm də strateji resursdur. Süni intellekt sistemlərinin milli maraqlara uyğun öyrədilməsi üçün "təmiz" və suveren data bazasına ehtiyac var. Əgər bir ölkə öz datasına sahib deyilsə, gələcəkdə öz milli süni intellekt modellərini qura bilməyəcək və xarici texnologiyalardan asılı olacaqdır.

Nəticə olaraq, data suverenliyi rəqəmsal dövlətin "sərhəd"lərini müəyyən edir. "Sərhəd"ləri - data resursları qorunmayan dövlətin kibərməkanda suverenliyindən danışmaq qeyri-mümkündür.

**İnstitutun şöbə müdiri, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Tofiq KAZIMOV:**

- Ötən əsrin 80-ci illərindən bu günə qədər proqram mühəndisliyi mühüm inkişaf yolu keçmişdir. 90-cı illərin əvvəllərində dünyada bu sahə sürətlə inkişaf etsə də, Azərbaycanda vəziyyət o qədər də qənaətbəxş deyildi. O zaman baş verən Qarabağ müharibəsi, iqtisadi çətinliklər və kadr axını proqram mühəndisliyinin inkişafına da mənfi təsir göstərirdi. Müstəqillik bərpa edildikdən sonra vəziyyət dəyişdi.

Prezident İlham Əliyev tərəfindən təsdiqlənmiş "2023-2027-ci illər üzrə informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik Strategiyası"nda proqram mühəndisliyi milli prioritet kimi müəyyən olundu. Burada əsas məqsəd ölkənin texnoloji asılılığını azaltmaq, milli proqram sənayesinin formalaşmasına və inkişafına elmi və innovativ dəstək verməkdir.

Proqram mühəndisliyi üzrə ilk elmi tədqiqatlara 2003-cü ildə İnformasiya Texnologiyaları İnstitutunda başlandı. Bunun nəticəsi olaraq 2017-ci ildə "Proqram mühəndisliyinin aktual elmi-praktiki problemləri" adlı ilk respublika konfransı keçirildi, bu sahəyə dair kitablar, monoqrafiyalar nəşr olundu. Hazırda həmin tədris materiallarından universitetlərdə dərs vəsaiti kimi istifadə edilir. Bu istiqamətdə fəlsəfə doktorluğu proqramı üzrə elmi kadrlar hazırlanır. Ümumilikdə, proqram mühəndisliyi üzrə 200-ə yaxın elmi məqalə və tezis, o cümlədən yüksəkreytinqli xarici jurnallarda nəşrlər çap olunub. Sevindirici haldır ki, 2025-ci ildən etibarən ali təhsil müəssisələrində "proqram mühəndisliyi" ixtisası üzrə kadr hazırlığına başlanıb.

İqtisadi baxımdan əvvəllər neft və qaz əsas gəlir mənbəyi sayılırdısa, bu gün rəqəmsal texnologiyalar və proqram məhsulları sənayesi əsas yükü öz üzərinə götürüb. Təsadüfi deyil ki, bir çox analitiklər proqram mühəndisliyini "yeni neft" adlandırırlar.

**İnstitutun baş elmi işçisi, texnika üzrə fəlsəfə doktoru, dosent Ramiz ŞIXƏLİYEV:**

- Rəqəmsal texnologiyalar dövlət idarəçiliyinin və sosial-iqtisadi həyatın bütün sahələrinə nüfuz etdikcə, kibertəhlükələr daha mürəkkəb xarakter alır. Kibercinayətkarlıq, məlumatların oğurlanması, zərərli proqram təminatının yayılması və dövlət qurumlarına edilən kiberhücumlar bu təhdidlərin yalnız bir hissəsidir. Müasir kiberhücumlar iqtisadi sabitliyə zərbə vura, dövlət institutlarının fəaliyyətini poza və cəmiyyətin ümumi təhlükəsizlik mühitinə təsir göstərə bilər. Buna görə kibertəhlükəsizliyin təmin olunması yalnız texnoloji məsələ deyil, həm də milli təhlükəsizlik kontekstində strateji əhəmiyyət daşıyır.

Bu nöqteyi-nəzərdən Azərbaycanın yeni rəqəmsal arxitekturası ölkənin rəqəmsal transformasiyasını sürətləndirməklə yanaşı, kibertəhlükəsizliyin milli prioritet kimi aktuallığını daha da artırmışdır. Bu strateji yanaşma çərçivəsində rəqəmsal infrastrukturun dayanıqlığı, informasiya resurslarının qorunması və kiberhücumlara qarşı effektiv müdafiə mexanizmlərinin yaradılması dövlət siyasətinin ayrılmaz hissəsinə çevrilir.

Dövlət siyasəti səviyyəsində bu çağırışlara qarşı sistemli və kompleks yanaşma tətbiq edilir. İnformasiya təhlükəsizliyi sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi, institusional mexanizmlərin gücləndirilməsi, milli strategiyaların qəbul edilməsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi bu siyasətin əsas istiqamətlərini təşkil edir. Qəbul olunan dövlət proqramları kibertəhlükələrin qarşısının alınması, insidentlərin operativ aşkarlanması və cavab tədbirlərinin təkmilləşdirilməsi üçün konkret fəaliyyət planları təqdim edir. Eyni zamanda bu proqramlar insan kapitalının inkişafını, elmi-tədqiqat fəaliyyətinin genişləndirilməsini və innovativ texnologiyaların tətbiqini prioritet kimi müəyyənləşdirir.

Bu siyasətin həyata keçirilməsində elmi-tədqiqat müəssisələrinin rolu xüsusi əhəmiyyət daşıyır. Azərbaycanda kibertəhlükəsizlik sahəsində elmi tədqiqatların əsası hələ 1995-ci ildə İnformasiya Texnologiyaları İnstitutunda qoyulmuş və sistemli şəkildə inkişaf etdirilmişdir. Uzun illər ərzində formalaşmış bu elmi məktəb ölkədə kibertəhlükəsizlik üzrə fundamental və tətbiqi tədqiqatların genişlənməsinə, eləcə də beynəlxalq səviyyəli elmi nəticələrin əldə olunmasına imkan yaratmışdır.

Hazırda institutda aparılan tədqiqatlar bir neçə istiqaməti əhatə edir. Bunlara informasiya təhlükəsizliyi məsələləri, kibersuverenliyin elmi-nəzəri və praktiki aspektləri, eləcə də kiberdayanıqlılıq və rəqəmsal kriminalistika problemləri daxildir. Bu problemlərin həlli üçün süni intellekt və adaptiv sistemlərə əsaslanan müasir metodlar geniş şəkildə tətbiq olunur. Eyni zamanda son illərdə süni intellekt və süni immun sistemləri əsasında innovativ yanaşmaların inkişafı xüsusi aktuallıq kəsb edir. Bu yanaşmalar biologiyadan qaynaqlanan özünütənzimləyən və adaptiv müdafiə mexanizmləri vasitəsilə yeni nəsil kibertəhlükəsizlik arxitekturasının formalaşdırılmasına imkan verir.

Kibertəhlükəsizlik sahəsində əldə olunan uğurların davamlı olması üçün yüksəkixtisaslı kadr hazırlığı xüsusi əhəmiyyət kəsb edir. İnstitutda bu istiqamətdə mühüm nəticələr əldə olunmuşdur: artıq 4 elmlər doktoru və 19 fəlsəfə doktoru hazırlanmış, hazırda isə 4 elmlər doktoru, 9 fəlsəfə doktoru proqramı üzrə tədqiqatlar davam etdirilir. Bundan əlavə, ali məktəblərdə kibertəhlükəsizlik ixtisası üzrə təhsil alan yüzlərlə magistrlara elmi rəhbərlik edilməsi ölkədə bu sahədə peşəkar insan resurslarının formalaşmasına mühüm töhfə verir.

Elmi nəticələrin geniş elmi ictimaiyyətə çatdırılması və müzakirəsi də diqqət mərkəzində saxlanılır. Son illərdə institutda informasiya təhlükəsizliyi üzrə çoxsaylı elmi-praktiki konfranslar və seminarlar təşkil edilmiş, bu platformalar vasitəsilə aktual problemlər müzakirə olunmuş və yeni elmi yanaşmalar təqdim edilmişdir. Bu tədbirlər təkcə yerli deyil, həm də beynəlxalq səviyyədə tanınmış mütəxəssisləri bir araya gətirməklə, qlobal kibertəhlükəsizlik tendensiyalarının ölkəmizdə öyrənilməsinə və müvafiq qabaqlayıcı tədbirlərin görülməsinə imkan yaradır. Bu ənənənin davamı olaraq, 3 iyun 2026-cı il tarixində "Kibertəhlükəsizlik və rəqəmsal kriminalistikanın aktual problemləri" respublika elmi-praktiki konfransın keçirilməsi planlaşdırılır.

Bütün bunlar göstərir ki, Azərbaycanın yeni rəqəmsal inkişaf mərhələsində kibertəhlükəsizlik yalnız texnoloji zərurət deyil, həm də dövlətin müdafiəsi və təhlükəsizliyinin strateji prioritetidir. Elmi-tədqiqat institutlarının fəaliyyəti, dövlət proqramları və beynəlxalq əməkdaşlıq mexanizmləri birgə şəkildə ölkənin kibersuverenliyinin təmin edilməsinə xidmət edir.

Gələcəkdə bu sahədə qarşıda duran əsas vəzifələrə qabaqcıl kriptoqrafiya metodlarının tətbiqi, kvant kriptoqrafiyası sahəsində tədqiqatların dərinləşdirilməsi, süni intellektə əsaslanan proaktiv müdafiə sistemlərinin işlənilməsi və dövlət-özəl sektor əməkdaşlığının daha da genişləndirilməsi daxildir. Yalnız bu şəkildə Azərbaycan qlobal rəqəmsal məkanda öz kibersuverenliyini tam təmin edə, etibarlı və dayanıqlı rəqəmsal gələcək qura bilər.

**İnstitutun şöbə müdiri, texnika üzrə fəlsəfə doktoru, dosent Fərhad YUSİFOV:**

- Son illər həyata keçirilən sosial-iqtisadi inkişaf siyasəti çərçivəsində Azərbaycanda rəqəmsal transformasiya, rəqəmsal cəmiyyətə keçid və kibertəhlükəsizliyin təmin olunması istiqamətində mühüm addımlar atılıb, bir sıra dövlət proqramları və strategiyalar qəbul edilib.

Bu sənədlərin əsas məqsədi dövlət xidmətlərinin modernləşdirilməsi, vətəndaş rifahının yüksəldilməsi və cəmiyyətin bütün sferalarında rəqəmsal transformasiyanın sürətləndirilməsidir. Rəqəmsal İnkişaf Konsepsiyası çərçivəsində dövlət idarəetməsinin rəqəmsallaşdırılması, rəqəmsal ekosistemin formalaşdırılması və rəqəmsal dövlət arxitekturasının qurulması prioritet istiqamətlər kimi müəyyən edilib.

Rəqəmsal dövlət modeli təkcə idarəetmənin səmərəliliyini artırmaqla məhdudlaşmır, həm də vətəndaş yönümlü xidmətlərin genişləndirilməsinə və virtual proseslərdə elektron iştirakın gücləndirilməsinə imkan yaradır. Məsələn, pandemiya dövrü göstərdi ki, rəqəmsal həllər dövlətlərin çevikliyi və dayanıqlığı üçün mühüm rol oynayır. Bu da süni intellekt, bulud texnologiyaları, Əşyaların İnterneti və blokçeyn kimi texnologiyaların tətbiqini daha da aktuallaşdırdı. Beynəlxalq təcrübədə rəqəmsal dövlətin müxtəlif inkişaf modelləri formalaşmaqdadır. Onların sırasında "ağıllı" dövlət, konqnitiv, çevik və adaptiv rəqəmsal dövlət kimi arxitektur yanaşmalar xüsusi qeyd olunur. "Ağıllı" dövlət modeli IoT və süni intellekt əsasında idarəetmənin səmərəliliyini və şəffaflığı artırmağa yönəlib. Koqnitiv rəqəmsal dövlət keçmiş təcrübədə və real vaxtda toplanan məlumatlar əsasında daha dəqiq, səmərəli qərarvermə imkanları yaradır. Çevik və adaptiv rəqəmsal dövlət isə böhran vəziyyətlərində operativ qərarların qəbulunu və idarəetmənin çevikliyini təmin edir.

Ümumilikdə, bu konseptual yanaşmalar və arxitektur həllər göstərir ki, müasir dövlət idarəçiliyi sürətlə rəqəmsallaşır və vətəndaşyönümlü xidmət modelinə keçid edir. Bununla yanaşı, inklüzivlik, bərabər çıxış imkanları və rəqəmsal fərqliliyin azaldılması kimi məsələlər də strateji əhəmiyyət daşıyır. Beləliklə, Azərbaycanın rəqəmsal transformasiya siyasəti həm dövlət idarəçiliyinin modernləşdirilməsinə, həm də dayanıqlı və inklüziv rəqəmsal cəmiyyətin formalaşmasına xidmət edir.

**AzScienceNet Şəbəkə İdarəetmə Mərkəzinin rəhbəri, texnika üzrə fəlsəfə doktoru Babək NƏBİYEV:**

- İnformasiya Texnologiyaları İnstitutunun GEANT Assosiasiyası ilə əməkdaşlığı Azərbaycanın elmi-təhsil mühitinin Avropanın rəqəmsal akademik məkanına inteqrasiyası baxımından mühüm əhəmiyyət daşıyır. 2010-cu ildən başlayan bu beynəlxalq əməkdaşlıq nəticəsində AzScienceNet vasitəsilə virtual platformada təmsil olunaraq, ölkənin elm və ali təhsil müəssisələri üçün dayanıqlı şəbəkə infrastrukturu formalaşdırılmışdır. Qeyd etməliyəm ki, əməkdaşlığımız xüsusi olaraq Şərq tərəfdaşlığı təşəbbüsünün bir istiqaməti kimi EaPConnect çərçivəsində daha da genişlənmiş, Avropa İttifaqının EU4Digital proqramı vasitəsilə yüksəksürətli internet, rəqəmsal xidmətlər və bilik mübadiləsi imkanları inkişaf etdirilmişdir.

Rəqəmsal xidmətlər sahəsində eduGain və eduRoam sistemlərinin tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Hazırda Azərbaycanda onlarla ali təhsil və elmi müəssisələr bu xidmətlərdən istifadə edirlər.

İnternet platformasında mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün nəzərdə tutulan LoLa texnologiyasının tətbiqi də beynəlxalq əməkdaşlığın mühüm nəticələrindəndir. 2019-cu ildə Estoniya ilə ilk sınaqlar həyata keçirilmiş, ötən ildə isə Bakı Musiqi Akademiyası ilə Naxçıvan Dövlət Universiteti arasında virtual konsertlər təşkil olunmuşdur. Bu, virtual məkanda həm beynəlxalq, həm də ölkədaxili elmi-mədəni inteqrasiyanın yeni mərhələsi kimi qiymətləndirilir.

AzScienceNet həm də beynəlxalq tədbirlərdə fəal iştirak edir. 2022-ci ildə Bakıda keçirilmiş EaPEC 2022 beynəlxalq konfransı bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Konfrans çərçivəsində açıq elm, kibertəhlükəsizlik və rəqəmsal innovasiyalar sahəsində çox əhəmiyyətli müzakirələr keçirilib və təcrübə mübadiləsi aparılıb.

Ümumilikdə, GEANT və beynəlxalq tərəfdaşlarla əməkdaşlıq Azərbaycanın elmi-texnoloji mühitini Avropa elmi məkanına inteqrasiya edən strateji rəqəmsal platformaya çevrilmişdir. Bu proses ölkənin rəqəmsal elm və təhsil sahəsində mövqeyinin güclənməsinə xidmət edir və gələcəkdə daha da genişlənməsi prioritet olaraq qalır.

**İnstitutun baş elmi işçisi, texnika elmləri doktoru, dosent Zərifə CƏBRAYILOVA:**

- Ölkəmizdə rəqəmsal inkişaf, süni intellekt və kibertəhlükəsizlik üzrə qəbul olunmuş dövlət proqramları və strategiyalar qlobal çağırışlara uyğun insan resurslarının formalaşdırılmasını zəruri edir. Bu, ilk növbədə, kadr potensialının beynəlxalq təcrübəyə əsaslanaraq müasir rəqəmsal tələblərə uyğunlaşdırılmasını tələb edir.

Rəqəmsallaşma cəmiyyətin bütün sahələrinə nüfuz etdikcə bəzi ixtisaslar aktuallığını itirir, eyni zamanda yeni ixtisaslar meydana çıxır. Bu proses innovativ düşüncəli və yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasını gündəmə gətirir. Bu məqsədlə ali təhsil proqramlarının məzmunu daim yenilənməli, beynəlxalq təcrübə nəzərə alınmalıdır.

Strateji vəzifələrin icrası birbaşa İKT profilli ixtisaslar üzrə kadr hazırlığından asılıdır. Bu sahədə müntəzəm olaraq monitorinq və təhlillərin aparılması xüsusi əhəmiyyət daşıyır. İnformasiya Texnologiyaları İnstitutunda həyata keçirilən tədqiqatlar nəticəsində əmək bazarının İKT profilli mütəxəssislərə tələbi öyrənilib, tədris proqramlarının təkmilləşdirilməsi üzrə təkliflər hazırlanıb. Bunun nəticəsi olaraq, son illərdə bəzi ixtisaslar yenilənmiş, yeni ixtisaslar - proqram mühəndisliyi, kompüter mühəndisliyi, data analitikası, kibertəhlükəsizlik və digərləri tədrisə daxil edilmişdir.

Rəqəmsallaşma yalnız İKT sahəsi ilə məhdudlaşmır, əmək bazarında mövcud olan bütün peşə istiqamətlərini əhatə edir. Xüsusilə səhiyyə sahəsində rəqəmsal tibbin inkişafı yeni kadrlara tələbatı formalaşdırıb. Elektron tibb sistemləri və tibbi informasiya texnologiyaları həkim və orta tibb personalına yeni tələblər irəli sürdüyü üçün tibbi informatika üzrə mütəxəssislərə ehtiyac artıb.

Eyni zamanda İKT və süni intellektin geniş tətbiqi yeni risklər də yaradır. Belə ki, kibercinayətkarlıq hallarının artması informasiya hüququ və rəqəmsal kriminalistika kimi yeni ixtisasların aktuallaşmasını tələb edir.

Təqdirəlayiq haldır ki, dövlət səviyyəsində bu kimi aktual məsələlərə xüsusi diqqət ayrılır. "2022-2028-ci illər üçün Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair Dövlət Proqramı" da məhz kadr potensialının gücləndirilməsinə xidmət edir. Bununla yanaşı, müxtəlif sahələrdə çalışan mütəxəssislərin bilik və rəqəmsal bacarıqlarının artırılması üçün fasiləsiz təhsil və məqsədli yenidən hazırlıq proqramları həyata keçirilir.

Ümumiyyətlə, cəmiyyətin rəqəmsal savadlılığının artırılması və davamlı inkişafının təmin olunması da mühüm istiqamətlərdən biridir. Bu məqsədlə mediada maarifləndirmə işləri genişləndirilməli, hər bir vətəndaşın rəqəmsal xidmətlərdən istifadə bacarığına malik olması zəruriyyəti ilə bağlı təbliğat aparılmalıdır. Nəhayət, dövlət rəhbərliyinin təhsildə, xüsusən də orta məktəblərdə rəqəmsal və süni intellekt biliklərinin tədrisi ilə bağlı tapşırıqları gələcək nəsillərin həm texnoloji imkanları, həm də bu texnologiyaların yaratdığı risklər barədə biliklərə yiyələnməsinə xidmət edir.

**İnstitutun baş mühəndisi Şakir MEHDİYEV:**

- Texnologiyalar tarix boyu təkcə sosial-iqtisadi inkişafın deyil, həm də dövlətlərin strateji gücünün və təhlükəsizlik arxitekturasının formalaşmasında həlledici rol oynayır. Müxtəlif dövrlərdə texnoloji üstünlüklərə sahib olmaq dövlətlərə mühüm strateji imkanlar qazandırıb. Bu baxımdan, texnologiya müasir dövrdə yalnız istehsal və innovasiya vasitəsi deyil, həm də güc və suverenlik vasitəsi kimi çıxış edir.

XXI əsrin başlanğıcında IV Sənaye İnqilabı şəraitində texnologiyaların rolu daha da artmaqdadır. Süni intellekt texnologiyaları, yarımkeçiricilər, çip məhsulları, bulud sistemləri, kibertəhlükəsizlik infrastrukturu, eləcə də Əşyaların İnterneti platformasında qurulan kiberfiziki sistemlər müasir transformasiyanın əsas lokomotivinə və dayaqlarına çevrilib. Bu sistemlər vasitəsilə toplanan məlumatlar artıq yalnız texnoloji deyil, həm də sosial-iqtisadi və siyasi qərarların qəbulunda mühüm rol oynayır. Nəticədə, təbiətdən, cəmiyyətdən toplanan məlumatlara nəzarət dövlətlərin real suverenliyinin əsas resurslarından və göstəricilərindən birinə çevrilir.

Bu şəraitdə texnoloji suverenlik məfhumu get-gedə xüsusi aktuallıq qazanır. Texnoloji suverenlik dövlətin kritik texnologiyalar üzrə müstəqil qərarvermə qabiliyyəti, alternativ texnoloji imkanların formalaşdırılması və risklərin idarə olunması kimi başa düşülür. Müasir dövrdə bu məfhum yalnız texnoloji müstəqillik və idxalın əvəzlənməsi ilə məhdudlaşmır, daha geniş və kompleks məzmun daşıyır.

Azərbaycan reallığı və təcrübəsi bu kontekstdə xüsusi əhəmiyyət kəsb edir. Müstəqillikdən sonra qarşıya qoyulan əsas vəzifələrdən biri bəyan olunmuş suverenliyin real və dayanıqlı suverenliyə çevrilməsi olub. Bu prosesdə Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyən edilən strateji inkişaf xətti mühüm rol oynayıb. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" ölkənin iqtisadi və texnoloji inkişafında dönüş nöqtəsinə çevrildi, enerji sektorunda müasir texnologiyaların tətbiqinə və infrastrukturun formalaşmasına imkan yaratdı. Bu siyasət sonrakı illərdə Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirildi. Nəticədə ölkədə güclü iqtisadi baza, müasir hərbi potensial və texnoloji imkanlar formalaşdı. Bu kompleks inkişaf Azərbaycanın 44 günlük Vətən müharibəsində qələbə qazanmasına və ərazi bütövlüyünün bərpasına mühüm töhfə verdi.

Müasir dövrdə isə texnoloji suverenlik, ümumiyyətlə, xarici məhsullardan, təcrübə və biliklərdən asılılığı tam aradan qaldırmaq kimi deyil, daha çox "idarə olunan inteqrasiya" prinsipi kimi qəbul edilir. Yəni dövlətlər bir tərəfdən kritik texnologiyalar üzrə daxili imkanlarını gücləndirməli, digər tərəfdən isə qlobal texnoloji mühitdən təcrid olunmamalıdırlar. Beləliklə, texnoloji suverenlik tam asılılığın olmaması deyil, asılılıqların, risklərin milli maraqlar naminə balanslı və optimal şəkildə idarə olunmasıdır. Bu modelin əsasında insan kapitalı, elmi-innovativ potensial və kibersuverenlik tələbləri dayanır. Azərbaycan da bu strateji konsepsiya çərçivəsində inkişaf edərək həm milli maraqlarını təmin edən, həm də qlobal texnoloji sistemdə fəal iştirak edən dövlət kimi mövqeyini möhkəmləndirmək istiqamətində zəruri tədbirlər görür.

Konfransın sonunda akademik Rasim Əliquliyev belə mühüm məsələlərin müzakirəsində iştirakına, həmçinin ETN İnformasiya Texnologiyaları İnstitutunun fəaliyyətinə xüsusi diqqət göstərdiyinə görə, "Azərbaycan" qəzetinin kollektivinə öz minnətdarlığını bildirdi. Qeyd etdi ki, bu istiqamətdə Respublika Prezidenti İlham Əliyev tərəfindən qəbul edilmiş dövlət proqramları və strategiyalardan irəli gələn vəzifələr çərçivəsində əldə olunmuş elmi-texnoloji və innovativ nəticələrin, nailiyyətlərin populyarlaşdırılması və təbliğatı sahəsində "Azərbaycan" qəzeti ilə birgə əməkdaşlığın vacibliyi haqqında təşəbbüs institut tərəfindən dəstəklənəcəkdir.

Beləliklə, elm ilə sözün, texnologiya ilə mətbuatın, intellektual fikir ilə dövlətçilik mövqeyinin bir araya gəldiyi bu tədbir yaddaşlarda dərin iz buraxdı. Bir daha əmin olduq ki, güclü dövlət yalnız silahla və iqtisadiyyatla deyil, həm də elm, texnologiya, innovasiya və dərin düşüncə ilə qurulur.





*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları



## Azərbaycan-Çexiya münasibətlərində yeni mərhələ

Azərbaycan bu gün dünya ölkələri ilə dinamik şəkildə inkişaf edən çoxşaxəli əlaqələri sayəsində beynəlxalq münasibətlər sistemində özünəməxsus yerini və rolunu möhkəmləndirib. Ölkəmizin yürütdüyü balanslaşdırılmış və uzaqgörən xarici siyasət kursu onu nəinki regionun lider dövlətinə, həm də qlobal miqyasda strateji qərarların qəbul edildiyi, etibarlı tərəfdaşlıq körpülərinin qurulduğu mühüm diplomatik mərkəzə çevirib. Aprelin 26-da Çex Respublikasının Baş naziri Andrey Babişin Azərbaycana rəsmi səfəri bu strateji xəttin məntiqi davamı olmaqla yanaşı, Avropa ilə Cənubi Qafqaz arasında qurulan strateji dialoqun yeni keyfiyyət mərhələsinə qədəm qoyduğunu təsdiqləyir.

### Siyasi etimad, strateji tərəfdaşlıq

Səfərin Qəbələdə təşkil olunması Azərbaycanın regionların inkişafı və diplomatik xəritənin şaxələndirilməsi siyasətinin tərkib hissəsidir. Aprelin 25-də Ukrayna Prezidenti Volodimir Zelenskinin, ardınca isə aprelin 26-da Çex Respublikasının Baş naziri Andrey Babişin Qəbələyə rəsmi səfərləri bu şəhərin artıq beynəlxalq əhəmiyyətli siyasi qərarların qəbul edildiyi məkana çevrildiyini göstərir.

Bu, protokol yeniliyi olmaqla yanaşı, Azərbaycanın regionlarının beynəlxalq səviyyəli siyasi-iqtisadi platforma kimi təqdim edilməsi strategiyasının uğurudur.

Çexiya Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdəndir. İki ölkə arasında diplomatik münasibətlər 1993-cü ilin yanvarında qurulub.

2015-ci il sentyabrın 15-də Bakıda "Azərbaycan Respublikası və Çex Respublikası arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə" imzalanıb. Bu ölkələr arasında əməkdaşlıq siyasi, iqtisadi və humanitar sahələri əhatə edir.

Azərbaycan Çexiya ilə münasibətlərin inkişafına hər zaman əhəmiyyət verir. Eyni zamanda Çexiya Baş naziri Andrey Babişin Aİ hüdudlarından kənara ilk rəsmi səfərini məhz Azərbaycana etməsi rəsmi Praqanın Bakıya verdiyi strateji önəmin aydın təzahürü idi.

Prezident İlham Əliyev Azərbaycan-Çexiya biznes-forumunda bu mühüm məqama diqqət çəkərək vurğuladı ki, biz bunu dostluq, hörmət əlaməti kimi görürük və bu, həmçinin göstərir ki, həqiqətən hər iki ölkənin bir-birinə ehtiyacı var.

Aprelin 27-də Qəbələdə keçirilən görüşlər, mətbuata verilən bəyanatlar və birgə biznes-forum iki ölkə arasındakı münasibətlərin dərinliyini bir daha təsdiqlədi.

Prezident İlham Əliyev mətbuata bəyanatında ölkələrarası əlaqələrin dinamikasına diqqət çəkərək bildirdi: "Bizim indi çox fəal siyasi dialoqumuz var. Bu gün bir çox məsələlər - həm regional, həm ikitərəfli, həm də daha qlobal xarakter daşıyan məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. İqtisadi sahədə görüləcək işlərlə bağlı konkret təkliflər var".

Bu gün Azərbaycan bir çox olkələrin enerji təhlükəsizliyində mühüm rol oynayır. Öz enerji resurslarını dünya bazarlarına ixrac edən etibarlı ölkələrdən olan Azərbaycan 16 ölkəyə qaz ixrac edir ki, onlardan 10 ölkə Avropa İttifaqının üzvüdür.

Qəbələdə keçirilən Azərbaycan-Çexiya biznes-forumunda çıxış edən Prezident İlham Əliyev söylədi ki, iki ölkə Azərbaycandan ardı kəsilməyən neft təchizatı ilə enerji sahəsində artıq yaxşı tərəfdaşlıq qurub: "Bu gün biz təbii qaz sahəsində əməkdaşlığın başlanılması imkanlarını geniş şəkildə müzakirə etdik. Neft, qaz, neftayırma məhsulları, neft-kimya, gübrələr, elektrik enerji, süni zəka, məlumat mərkəzləri böyük potensial əsasında ikitərəfli qaydada hər iki ölkənin fəal işlədiyi bütün digər sahələri əhatə edəcək strateji əməkdaşlığın qurulması məqsədilə həmin məsələlərə geniş perspektivdən nəzər saldıq".

Baş nazir Andrey Babiş öz növbəsində mətbuata bəyanatında Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki əvəzsiz rolunu vurğulayaraq, ölkəmizi strateji müttəfiq kimi xarakterizə etdi: "Azərbaycan Çex Respublikasının strateji tərəfdaşıdır. Buna görə məmnunam ki, münasibətlərimiz də dostluğa söykənir... ... Cənab Prezident, biz buraya ÇES adlanan yarıdövlət şirkətimizlə gəlmişik və o, buradan qaz təchizatı ilə bağlı müqavilə imzalamaq istəyir. Siz əsasən hasilatı artıracaqsınız. ÇES şirkətinin baş icraçı direktoru buradadır. O, ən iri qazpaylayıcı şirkətlərdən biri olan ÇES ilə qaz təchizatı haqqında Sizinlə uzunmüddətli müqaviləni gələcəkdə imzalasa, təbii ki, çox məmnun olardı. Beləliklə, Azərbaycan neftdən əlavə, bu sahədə de-fakto bizim strateji tərəfdaşımız ola bilər".

### İqtisadi əməkdaşlıq

İki ölkə arasındakı iqtisadi göstəricilər real nəticələrə söykənir. Ötən il 814 milyon dolları keçən ticarət dövriyyəsi Azərbaycanın Çexiya üçün Avropa İttifaqı daxilində mühüm tərəfdaş olduğunu sübut edir. Lakin tərəflər yalnız mövcud vəziyyətlə kifayətlənmək niyyətində deyillər.

Vurğulandığı kimi, Çexiya tərəfi Azərbaycanla uzunmüddətli qaz təchizatı müqavilələri imzalamaqda və bərpaolunan enerji sahəsində əməkdaşlıqda maraqlıdır.

Bu isə münasibətlərin yeni istiqamətlərə yönəldiyini və əsasən innovativ sahəyə keçdiyini göstərir. Naxçıvanda 500 MVt gücündə fotoelektrik stansiya layihəsində iştirak və hidroelektrik avadanlıqların təchizatı imkanlarının araşdırılması da bunu təsdiq edir.

Tərəflər müdafiə sənayesi sahəsində əməkdaşlıqda da ortaq mövqedən çıxış edirlər. Çexiya istehsalı olan hərbi məhsulların alınması ilə yanaşı, artıq birgə istehsal sahəsində konkret layihələr müzakirə olunur.

Bakı Metropoliteninin modernləşdirilməsi, həmçinin aviasiya sahəsindəki əməkdaşlıq və sair kimi bir çox sahələr gündəliyin əsas bəndlərindəndir.

Baş nazirin səfəri çərçivəsində 50-yə yaxın Çex şirkətinin iştirakı ilə Qəbələdə keçirilən biznes-forum iqtisadi əlaqələrin şaxələndirilməsi üçün yeni platforma rolunu oynadı.

Prezident İlham Əliyevin vurğuladığı kimi, əsas hədəf ticarət dövriyyəsinin strukturunu təkmilləşdirmək və qeyri-neft sektorunda qarşılıqlı investisiyaları artırmaqdır.

Hökumətlərarası Komissiyanın səviyyəsinin yüksəldilməsi və birbaşa aviareyslərin turizmə verdiyi töhfə Azərbaycan-Çexiya münasibətlərinin təkcə dövlətlər səviyyəsində deyil, həm də insanlar və biznes qurumları arasında sıx bağlı olduğunu nümayiş etdirir.

Bir sözlə, Çex Respublikasının Baş naziri Andrey Babişin ölkəmizə səfəri Azərbaycanın beynəlxalq arenada etibarlı tərəfdaş, regionda isə əsas siyasi-iqtisadi mərkəz statusunu bir daha möhkəmləndirdi. 2015-ci ildə ölkələrimiz arasında imzalanmış Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamənin ruhuna uyğun olaraq inkişaf edən bu münasibətlər, hər iki xalqın rifahına və regional sabitliyə xidmət edir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Bakı və Praqa strateji əməkdaşlığın genişləndirilməsində maraqlıdır

Çexiya Baş nazirinin Azərbaycana səfəri, Prezident İlham Əliyevlə keçirilən görüş, səsləndirilən bəyanatlar ölkələrimiz arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu göstərir. Liderlərin bəyanatlarından da aydın oldu ki, Bakı və Praqa iqtisadi və strateji əməkdaşlığın genişləndirilməsində maraqlıdır. Siyasi dialoqun intensivləşdirilməsi, iqtisadi əməkdaşlığın dərinləşdirilməsi və enerji sahəsində tərəfdaşlığın möhkəmləndirilməsi müzakirələrin əsas istiqamətlərini əhatə edirdi. Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycanla Çexiya arasında münasibətlər dinamik inkişaf edir və artıq konkret nəticələr verir. Xüsusilə qeyd olunmalıdır ki, iki ölkə arasında ticarət dövriyyəsinin əsas hissəsini enerji resursları təşkil etdiyindən, tərəflər daha balanslı və şaxələndirilmiş iqtisadi əməkdaşlıq modelinə keçidi prioritet kimi müəyyənləşdirirlər.



Milli Məclisin deputatı Nigar Məmmədova qəzetimizə açıqlamasında deyib ki, energetika sahəsi bu əməkdaşlığın prioriteti olaraq qalır: "Azərbaycan Çexiyanın əsas neft təchizatçılarından biridir və bu fakt ölkəmizin Avropanın enerji təhlükəsizliyində oynadığı rolu bir daha təsdiqləyir. Baş nazir Andrey Babişin çıxışında da bu məqam xüsusi vurğulanaraq, Azərbaycanın Çexiya üçün strateji tərəfdaş olduğu açıq şəkildə bəyan edildi. Andrey Babişin Avropa İttifaqına üzv olmayan ölkələr arasında ilk səfərini məhz Azərbaycana etməsi bu baxımdan təsadüfi deyil. Eyni zamanda qaz təchizatı ilə bağlı uzunmüddətli müqavilələrin imzalanması tərəflər arasında enerji əməkdaşlığını daha da dərinləşdirməyə imkan verir. Hörmüz boğazı ilə bağlı problemlərin yarandığı bir vaxtda xam neft və qaz məsələsi xüsusilə aktuallaşıb. Yeri gəlmişkən, Azərbaycan Çex Respublikasına xam neftin ən böyük təchizatçısıdır".

Deputat bildirib ki, Qəbələ görüşünün mühüm nəticələrindən biri də qeyri-neft sektorunda əməkdaşlıq imkanlarının geniş müzakirə olunmasıdır. Çexiyadan Azərbaycana gələn geniş tərkibdə iş adamlarından ibarət heyət və keçirilən biznes-forum yeni investisiya layihələri üçün stimuldur. Xüsusilə sənaye, nəqliyyat, elmi-tədqiqat və texnologiya sahələrində birgə təşəbbüslər iki ölkə üçün qarşılıqlı fayda vəd edir. "Cənab Prezidentin də söylədiyi kimi, bu gün Çexiya və Azərbaycan liderləri özlərinin işgüzar dairələrinə çox aydın mesaj göndərirlər: ikitərəfli ticarət, sərmayələrdə iştirak etmək, praktiki layihələrə nəzər salmaq və işbirliyinin qurulması yolları haqqında düşünmək vaxtıdır. Beləliklə, yüksək səviyyədə qurulan siyasi təmaslar çox güclü siyasi bünövrəni təşkil edir. Ən əsası isə Azərbaycanda siyasi və sosial sabitlik, təhlükəsizlik, yəni ölkədə işgüzar fəaliyyətlə məşğul olmaq qərarını qəbul edən sərmayədara ilk növbədə lazım olan hər meyar var", - deyə o əlavə edib.

Müdafiə sənayesi sahəsində əməkdaşlığın da diqqətçəkən istiqamətlərdən olduğunu deyən N.Məmmədova vurğulayıb ki, Azərbaycan artıq bu sahədə yerli istehsal imkanlarını artırır və Çexiya kimi zəngin sənaye təcrübəsinə malik ölkə ilə birgə layihələr həyata keçirmək planları gələcək üçün böyük potensial yaradır. Bu əməkdaşlıq həm də regional təhlükəsizlik baxımından əhəmiyyətlidir.

Deputat qeyd edib ki, ümumiyyətlə, son dövrlərdə dövlət və hökumət başçılarının Azərbaycana intensiv səfərləri ölkəmizin artan nüfuzunu təsdiqləyir. Bundan əvvəl Litva Baş naziri, Latviya və Ukrayna prezidentlərinin ölkəmizə səfərləri etibarlı və proqnozlaşdırıla bilən tərəfdaş kimi Azərbaycana münasibətin göstəricisidir. Ukrayna Prezidenti və Çexiya Baş nazirinin Qəbələdə qarşılanması isə təsadüfi deyil. Prezident İlham Əliyevin də söylədiyi kimi, daha geniş coğrafiyanın qədim parçası olan Qəbələ əsrlər boyu qədim Qafqaz Albaniyası dövlətinin paytaxtı olub. Bundan əvvəl Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü də məhz Qəbələdə keçirilmişdi. Bu isə onu deməyə əsas verir ki, Qəbələ artıq Bakı, Şuşa kimi yeni diplomatik mərkəzə çevrilir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Azərbaycan və Çexiya iqtisadi əməkdaşlığında nümunə

### Energetika, nəqliyyat, texnologiya, turizm və aqrar sahələr üzrə tərəfdaşlıq daha da genişlənəcək

Azərbaycan ilə Çex Respublikası arasında iqtisadi əlaqələr son illər sürətlə inkişaf etməkdədir. Hər iki ölkə qarşılıqlı ticarət və investisiya imkanlarını genişləndirərək iqtisadi əməkdaşlığı möhkəmləndirir. Energetika, sənaye, texnologiya və turizm kimi sahələrdə qarşılıqlı maraqlar Azərbaycan və Çexiya üçün yeni imkanlar yaradır. Xüsusilə ticarət əlaqələri son illər əhəmiyyətli dərəcədə genişlənib.

Azərbaycan əsasən energetika, neft və neft-kimya sənayesi, kənd təsərrüfatı məhsulları ilə Çexiyaya ixracat həyata keçirir. Çexiyadan isə Azərbaycana maşınqayırma, avtomobil texnikası, elektronika, kimya və dərman preparatları kimi məhsullar idxal olunur. Ölkələr arasında ticarət dövriyyəsi get-gedə artmaqdadır və bu da təbii ki, tərəflər arasında qarşılıqlı etimadın və iqtisadi əməkdaşlığın göstəricisidir.

Qeyd edək ki, Azərbaycan və Çexiya arasında ticari əməkdaşlıq yalnız məhsul mübadiləsi ilə məhdudlaşmır. Tərəflər həm də birgə investisiya layihələrini və praktiki işbirliyi imkanlarını nəzərdən keçirirlər. Bu amili aprelin 27-də Qəbələdə keçirilmiş Azərbaycan-Çexiya biznes-forumunda çıxış edən Prezident İlham Əliyev belə ifadə edib: "İkitərəfli ticarət, sərmayələrdə iştirak etmək, praktiki layihələrə nəzər salmaq və işbirliyinin qurulması yolları haqqında düşünmək vaxtıdır. Biz, həmçinin biznes imkanları, qarşılıqlı sərmayələr haqqında xeyli danışdıq. Biz konkret layihələrə toxunduq və birmənalı olaraq biznes-forumda bütün məsələlər nəzərdən keçirilir".

Azərbaycan və Çexiya arasında iqtisadi əməkdaşlığın önəmli istiqamətlərindən biri sənaye və texnologiya sahəsində birgə fəaliyyətin inkişaf etdirilməsidir. Energetika sektorunda tərəflər qarşılıqlı maraqlara əsaslanaraq layihələr həyata keçirir, modern texnologiyaların istifadəsini genişləndirirlər. Ən çox da neft-kimya və elektrik enerjisi, həmçinin xam neft və qaz istehsalı sahələrində əməkdaşlıq artmaqdadır. Təsadüfi deyil ki, forumda bu məsələlərdən də bəhs olunub. Tədbirdə çıxış edən Çexiyanın Baş naziri Andrey Babiş energetika sahəsindəki mövcud əlaqələri və gələcək layihələrə dair qarşılıqlı maraqları vurğulayaraq deyib: "Biz buraya enerji ilə bağlı danışıqlar aparmaq üçün də gəlmişik. Çünki Azərbaycan Çex Respublikasına xam neftin ən böyük təchizatçısıdır, 42 faiz təchiz olunur. Siz birnömrəli təchizatçımızsınız. Biz buraya qazın ən böyük paylayıcısı olan ÇES şirkəti ilə gəlmişik və əlbəttə ki, uzunmüddətli əməkdaşlığı, uzunmüddətli müqaviləni, ikitərəfli investisiyaları müzakirə etməyə çox şad olardıq. Siz yeni qaz yataqlarını kəşf edəcəksiniz və əlbəttə ki, bizim bu məsələyə çox böyük marağımız var".



Azərbaycan-Çexiya iqtisadi əlaqələrində bir sıra strateji şirkətlər mühüm rol oynayır. Forumda da təmsil olunan "L-39NG Aero Vodochody", "CSG Aerospace", "Ceska Zbrojovka", "Colt", "Excalibur International", "Explosia", "VOP CZ", "Omnipol" və "Livance SRO Meteopress" kimi Çex şirkətləri Azərbaycanda birgə müəssisələr və investisiya layihələri vasitəsilə əməkdaşlığı genişləndirirlər. Bu şirkətlər Azərbaycan tərəfinin xüsusi ehtiyaclarına uyğun məhsul çeşidini və müasir nəqliyyat mühəndisliyi sahəsində qabaqcıl texnologiyaları təqdim edirlər. Onların fəaliyyəti qatarlar və dəmir yolu texnologiyasından tutmuş "ağıllı nəqliyyat" kimi idarəetmə sistemlərinə qədər geniş sahələri əhatə edir. Beləliklə, Çexiya şirkətləri Azərbaycanda daha sürətli, təhlükəsiz və dayanıqlı nəqliyyat şəbəkəsinin qurulmasına töhfə verir, ölkələrarası iqtisadi əməkdaşlığın inkişafında önəmli rol oynayırlar.

Azərbaycan və Çexiya arasında əməkdaşlıq Bakı Metropoliteni ilə birgə həyata keçirilən layihələrdə də önəmli rol oynayır. Bu kontekstdə Çexiya tərəfi ölkəmizdəki layihələrə və birgə müəssisələrə böyük maraq göstərir. Andrey Babiş həmin marağı da qeyd edib: "Əlbəttə ki, bizim Bakı Metropoliteni ilə müqavilənin imzalanmasında çox böyük marağımız var. "SKODA Transportation" və Çexiyada çox önəmli və iqtisadi qrup olan "PPF"in üzvü olan "SKODA" şirkətlər qrupunun Bakı metrosunda keçirilən tenderdə uğur qazanması bizi çox şad edərdi. Həmin qrup digər şirkətlərlə yanaşı, birgə müəssisə qurmaq, Azərbaycanda istehsalata başlamaq, elm və tədqiqata sərmayə yatırmaq, universitetlərinizlə əməkdaşlıq etmək və təbii ki, Sizin insanlarınızla işləməyə hazırdır".

Azərbaycan və Çexiya arasında turizm sahəsində əməkdaşlıq da son zamanlar əhəmiyyətli dərəcədə genişlənib. Hər iki ölkə öz mədəni irsi, təbii gözəllikləri və turizm infrastrukturunu qarşılıqlı şəkildə tanıtmaq üçün birgə təşəbbüslər həyata keçirir. Həmin əməkdaşlıq çərçivəsində turizm sərgiləri, biznes-forumlar və mədəni mübadilə proqramları təşkil olunur və bunun nəticəsində qarşılıqlı turist axını artır. Çex turistləri əsasən Azərbaycanın tarixi şəhərlərinə, dağ və kurort bölgələrinə maraq göstərir, Azərbaycan vətəndaşları isə Çexiyanın mədəni və tarixi şəhərlərinə, təbii gözəlliklərlə əhatə olunmuş məkanlara səfərlər edirlər. Bu mənada Prezident İlham Əliyevin forumda səsləndirdiyi fikirlər yerinə düşür: "Hər iki ölkənin zəngin tarixi, mədəniyyəti, abidələri, təbiəti var. Yeri gəlmişkən, bugünkü forum təkcə Azərbaycanın deyil, daha geniş coğrafiyanın qədim parçası olan bir yerdə keçirilir. Qəbələ əsrlər boyu qədim Qafqaz Albaniyası dövlətinin paytaxtı olub. Bu gün deyərdim ki, Azərbaycanın turizm paytaxtıdır. Biz əlbəttə ki, əlaqələr, xalqlararası təmaslar, mövcud olan, lakin planlarımızı nəzərə alaraq artırmalı olduğumuz hava yolu əlaqəsi üzərində çalışmalıyıq".

Buradaca qeyd edək ki, hava yolu təkcə turistlər üçün önəm daşımır, həmin marşrut yükdaşımalarda da strateji rol oynayır. Azərbaycan-Çexiya istiqamətində müntəzəm hava əlaqələri iki ölkə arasında malların sürətli və səmərəli daşınmasını təmin edir, ixrac və idxal proseslərini asanlaşdırır. Bu, xüsusilə kənd təsərrüfatı, sənaye malları və texnologiya məhsullarının daşınmasında əhəmiyyət kəsb edir. Səma nəqliyyatı həmçinin biznes əlaqələrinin möhkəmlənməsinə, qarşılıqlı sərmayə təşəbbüslərinin daha çevik həyata keçirilməsinə də imkan yaradır.

Beləliklə, turizm və logistika sahəsində əməkdaşlıq iqtisadi fayda gətirməklə yanaşı, iki ölkə arasında qarşılıqlı mədəni və sosial əlaqələrin inkişafına da töhfə verir. Forumda: "Ümid edirəm ki, Çexiya və Azərbaycandan olan biznes dairələrinin nümayəndələri həm də yaxşı dost olacaqlar. Bu dostluğun təməli bu gün qoyulacaq və o, davam edəcəkdir", - deməklə Prezident İlham Əliyev iki ölkə arasındakı hərtərəfli əməkdaşlığın insanları yaxınlaşdıran bir vasitə olduğunu vurğulayıb.

Qəbələ görüşü bir daha təsdiqlədi ki, Azərbaycan və Çexiya arasında iqtisadi əməkdaşlıq ticarət, sənaye və texnologiya, eləcə də turizm və xidmət sahələrində sürətlə inkişaf edir. Və bu əməkdaşlığın gələcək perspektivləri genişdir. Ona görə də forumda planlaşdırılan layihələr hər iki ölkənin iqtisadi potensialının artırılmasına, regionda inteqrasiya proseslərinin güclənməsinə və qarşılıqlı əməkdaşlığın bir qədər də dərinləşməsinə imkan yaradacaq.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Ümumdünya Əməyin Mühafizəsi Gününə həsr olunmuş konfrans keçirilib












**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən Səməd Vurğun adına Sağlamlıq Mərkəzində "Təhlükəsiz əmək səmərəli fəaliyyətin əsasıdır" mövzusunda konfrans təşkil edilib.**

28 Aprel - Ümumdünya Əməyin Mühafizəsi Gününə həsr edilən və dövlət qurumlarının nümayəndələrinin, millət vəkillərinin iştirakı ilə keçirilən tədbirdə əvvəlcə iştirakçılar əməyin mühafizəsi vasitələrindən ibarət sərgi ilə tanış olublar.

Tədbirdə Dövlət himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Sonra Beynəlxalq Əmək Təşkilatının (BƏT) baş direktoru Jilber Hunqbonun əməyin mühafizəsi ilə bağlı videomüraciəti izlənilib.

Tədbir iştirakçılarını salamlayan Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov əməyin mühafizəsinin işçilərin sağlamlığının qorunması, təhlükəsiz əmək şəraitinin təmin olunması və insan kapitalının davamlı inkişafı baxımından əhəmiyyətini diqqətə çatdırıb. Vurğulanıb ki, Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən sosial inkişaf strategiyasına uyğun olaraq, əmək münasibətlərinin tənzimlənməsi istiqamətində sistemli yanaşma formalaşdırılıb. Hazırda dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl islahatlar nəticəsində iş yerlərində təhlükəsizlik standartları daha da təkmilləşdirilir, layiqli əmək şəraiti yaradılır.

Tədbirdə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının bu sahədə gördüyü işlər barədə də məlumat verilib. Bildirilib ki, 2025-ci il ərzində bu sahədə digər tədbirlərlə yanaşı, həmkarlar ittifaqları tərəfindən müəssisələrdə əməyin mühafizəsi üzrə 567 monitorinq aparılıb, aşkar olunan çatışmazlıqlarla bağlı müvafiq tövsiyələr verilib. Ötən il bu sahədə təşkil olunmuş 36 təlimdə 2400-dən çox işçi iştirak edib. Konfederasiya sədri çıxışında BƏT ilə əməkdaşlıq və qurumun ölkəmizdə ratifikasiya olunmuş "Əməyin Təhlükəsizliyi və Gigiyenasının Təşviq Edilməsinin Əsasları haqqında" Konvensiyanın önəmini qeyd edib.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, konfederasiyanın Layiqli Əmək Səfiri Musa Quliyev ölkədə əməyin mühafizəsinə dair qanunvericilik bazasının müasir çağırışlara uyğun təkmilləşdirildiyini, normativ-hüquqi aktların işçilərin sağlamlığının qorunmasına və istehsalat risklərinin minimuma endirilməsinə xidmət etdiyini vurğulayıb.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Zaur Əliyev sağlam və təhlükəsiz əmək şəraitinin yaradılmasının dövlət siyasətinin prioritet istiqamətlərindən olduğunu nəzərə çatdırıb, istehsalat qəzalarının və peşə xəstəliklərinin qarşısının alınması tədbirləri, iş yerlərində təhlükəsizlik standartlarının tətbiqi və nəzarət mexanizmləri barədə məlumat verib.

İslam Əməkdaşlıq Təşkilatı Əmək Mərkəzinin baş direktoru Azər Bayramov və BƏT-in Azərbaycan üzrə milli koordinatoru Yaşar Həmzəyev əmək bazarında baş verən dəyişikliklər, rəqəmsallaşma və yeni istehsal modelləri fonunda preventiv və innovativ yanaşmalara diqqət çəkib, sosial dialoqun, eləcə də beynəlxalq əmək standartlarının tətbiqinin iş prosesində təhlükəsizliyin yüksəldilməsində rolunu qeyd ediblər.

Tədbir çərçivəsində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Əmək və Sosial Münasibətlər Akademiyası ilə Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında sahibkarlar üçün əməyin təhlükəsizliyi və mühafizəsi sahəsində (IOSH) təlimlərin təşkilinə dair Anlaşma Memorandumu imzalanıb.

Konfransda əməyin mühafizəsi və bu istiqamətdə Azərbaycan həmkarlar ittifaqları tərəfindən görülən işlərdən bəhs edən videoçarx nümayiş olunub.

Sonda sağlam və təhlükəsiz əmək şəraitinin yaradılmasında fərqlənən müəssisə və təşkilatlar mükafatlandırılıb.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

# Ermənistandakı revanşist hərəkətlər sülhü təhdid edir



Aprelin 23-də İrəvanda Türkiyə bayrağının yandırılması və təhqir olunması erməni revanşistlərinin xəstə təfəkkürünün təzahürüdür. Sirr deyil ki, ermənilər uzun illər ərzində xəstə təxəyyüllə silahlanıblar, bunun onların beyinlərindən təmizlənməsi üçün hələ uzun illər lazım olacaq.

Milli Məclisin deputatı Arzuxan Əlizadə qəzetimizə açıqlamasında deyib ki, baş verən hadisələr - İkinci Qarabağ savaşı, ondan sonrakı dönəmdə ermənilərin düşdükləri durum onları hələ də ayıltmayıb. Erməni cəmiyyətində revanşistlər var, olub, gələcəkdə də olacaq. Erməni xisləti bizim normal məntiqlə qəbul edə biləcəyimiz xislət deyil. "Biz onun fərqində olmalıyıq ki, 1905-ci ili unutduq deyə bu, 1918-ci il, daha sonra 1930-1940-cı illər, sovet dönəmi, deportasiyalar və ən nəhayət, 1988-ci ildəki faciələrə gətirib çıxardı. Ermənilərin başımıza gətirdiyi dəhşətləri, eyni zamanda Qarabağda törətdikləri vandalizm və vəhşilik aktlarını heç vaxt unutmamalıyıq", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, bu xislətdə olan ermənilər kifayət qədər çoxdur və bu, dayanıqlı sülhə ciddi maeələr törədə bilən amillərdəndir: "Azərbaycan məsələlərə humanizm prinsipi ilə yanaşır, regionun əsas söz və güc sahibi olaraq bölgədə dayanıqlı sülhə nail olunması üçün əlindən gələni edir. Ermənilərə qarşı münasibətdə də jestlər edirik. Çalışırıq ki, problemlər öz həllini tapsın və regionda sülh olsun. Bölgədə sabitliyin olmasının məsuliyyətini də dərk edirik. Təəssüf ki, ermənilərin müəyyən hissəsi Azərbaycana və Türkiyəyə qarşı düşmən mövqeyindən əl çəkməyib və yaxın müddətdə geri çəkilmələri də mümkün görünmür. Bu reallıqları olduğu kimi qəbul etməliyik, illüziyalar zamanı deyil".



A.Əlizadə bildirib ki, erməniləri elə durumda saxlamaq lazımdır ki, başları üstündə "dəmir yumruğ"u daim hiss etsinlər: "Bunun müqabilində gələcəkdə Ermənistanla dövlətlərarası münasibətlərin normallaşması baş tuta bilər. Bunun üçün ilk növbədə Azərbaycanın həm hüquqi, həm də ədalətə söykənən haqlı tələbləri təmin olunmalıdır. Ermənistan konstitusiyasından Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarını özündə əks etdirən müddəalar aradan qaldırılmalıdır. Demarkasiya və delimitasiya proseslərini və digər məsələlərdə üzərlərinə düşənləri ermənilər həyata keçirməlidirlər ki, Azərbaycanla yekun sülh müqaviləsi imzalansın. Bundan ən çox faydalanan da elə ermənilər olacaq".

Deputat vurğulayıb ki, Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə, həmçinin Ermənistana da bu hüququ tanıyıb. Ermənistan hər zaman forpost, əlaltı, digər dövlətlərin boyunduruğu olub. Bu gün rəsmi İrəvan dövlətçiliyini, suverenliyini bərpa etmək imkanı qazanıb. Ermənistan iqtisadiyyatı çökmüş, digər ölkələrdən asılı vəziyyətdədir. "Ermənistan bu gün tranzit imkanlarını genişləndirə bilər. Ermənilər başa düşməlidirlər ki, kənar qüvvələrə arxalanmaqla heç nəyə nail ola bilməzlər. Onlar Azərbaycan və Türkiyə ilə sərhədlərinin açılmasını, dövlət olaraq ayaqda durmağı, nəhayət, boyunduruqdan çıxıb inkişaf etmək istəyirlərsə, iki ölkə ilə münasibətlərini normallaşdırmalıdırlar. Ermənilər yalançı soyqırımlarla, Azərbaycan və Türkiyəyə təhqir dolu çıxışlarla mövqe sərgiləməklə nəyəsə nail ola bilməzlər. Əksinə, ermənilər bu cür revanşist hisslərlə yaşayacaqlarsa, növbəti faciələrlə üzləşəcəklər. Yalnız ağıllarını başlarına yığmaqla suverenliklərini təmin edə bilərlər. Onlar bölgədə dayanıqlı sülhə nail olunması üçün Azərbaycanın atdığı humanist addımlara adekvat münasibət sərgiləməlidirlər", - deyə A.Əlizadə bildirib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# İrəvanda bayraq təxribatı: sülh və revanşizm arasında ziddiyyət

Cənubi Qafqazda sülh və sabitlik axtarışlarının aktivləşdiyi bir dövrdə İrəvanda baş vermiş hadisə regionun gələcəyi ilə bağlı sualları yenidən gündəmə gətirib. Belə ki, aprelin 23-də Ermənistanın paytaxtında keçirilən ənənəvi "məşəl yürüşü" zamanı növbəti dəfə Türkiyə bayrağı yandırılıb. Bu çirkin aksiya şovinizmin və terrorçuluğun əsas simalarından sayılan "Daşnaksütyun" partiyası tərəfindən təşkil edilib.

Ermənistanda mütəmadi olaraq şahidi olduğumuz bu nifrət mənzərəsi illərdir davam edən və sistemli şəkildə qidalandırılan türkofobiya xəstəliyinin acı simptomudur. İrəvanda hər il təkrarlanan bu aksiyalar "Daşnaksütyun" və buna bənzər təşkilatların onilliklər boyu apardığı zəhərli təbliğatın nəticəsidir. İllər boyu müəyyən kənar güclər "böyük Ermənistan" xülyaları ilə erməni cəmiyyətini qonşularla daimi münaqişədə saxlamağa çalışırlar. Xüsusən, sülhün kövrək vaxtında Türkiyə bayrağının yandırılması revanşist qüvvələrin və onların xarici havadarlarının regiondakı sabitliyi pozmaq cəhdi, ölkədə kök salmış etnik nifrətin və türkofobiyanın təzahürüdür.

Hadisəyə ilk və ən kəskin reaksiya Azərbaycan Xarici İşlər Nazirliyindən gəlib. Rəsmi Bakı yaydığı bəyanatda Türkiyə bayrağının yandırılmasını qətiyyətlə pisləyərək, bu faktı etnik nifrətin açıq təzahürü kimi qiymətləndirib. Azərbaycan tərəfi tam haqlı olaraq hesab edir ki, Ermənistan hökuməti bu kimi kampaniyanın qarşısını vaxtında almalı və müvafiq təhlükəsizlik tədbirləri görməli idi: "Bu növ qəbuledilməz aktlara demokratik normalar, sərbəst toplaşmaq və fikir azadlıqları əsas gətirilərək göz yumulması tamamilə qəbuledilməzdir". Bakı tələb edir ki, Ermənistanda hələ də güclü şəkildə özünü büruzə verən revanşist və faşist düşüncə tərzi həm daxildə, həm də beynəlxalq səviyyədə pislənməlidir. Ən əsası isə İrəvan hökuməti bu təxribatı törətmiş şəxsləri hüquqi məsuliyyətə cəlb etməlidir.

Dövlət rəmzləri bir xalqın suverenliyini, tarixi yaddaşını və milli ləyaqətini təcəssüm etdirən ən müqəddəs amildir. Beynəlxalq münasibətlərdə bayrağın təhqir edilməsi diplomatik körpüləri yandırmaqla eynidir. Çünki bayraq bir xalqın kimliyi, keçmişi və qürurudur. Qonşu ölkənin bayrağına göstərilən ehtiram həmin xalqın sülhə, birgəyaşayışa və bəşəri dəyərlərə sadiqliyinin ölçüsüdür. Lakin İrəvanda erməni cəmiyyətini təmsil edən bir qrup təxribatçının öz nifrətini aşkar formada bildirməsi göstərdi ki, bu toplum sülhə, birgəyaşayışa hazır deyil. Müqəddəs rəmzlərə qarşı yönələn bu barbarlıq Ermənistanın monoetnik quruluşunun doğurduğu dözümsüzlük mühitini bir daha ifşa edir. "Hər türk düşməndir" prinsipi üzərində qurulan bu ziyanlı ideologiya Ermənistanı regional layihələrdən kənarda qoyaraq siyasi və iqtisadi təcridə sürükləyir.



Türkiyə Azərbaycanın qardaşı, ən yaxın strateji müttəfiqidir. Qardaş ölkəyə qarşı edilən hər bir hörmətsizlik birbaşa Azərbaycanla münasibətlərə, sülh prosesinə vurulan zərbədir. O da nəzərə alınmalıdır ki, Ankara ilə əlaqələri normallaşdırmaq, Türkiyə ilə sərhədləri açmaq niyyətində olan və bunun üçün dəridən-qabıqdan çıxan tərəf məhz Ermənistandır. İrəvan hökuməti bunu dərk etməli və cəmiyyətə aşılamalıdır ki, Ermənistanın nicat yolu, iqtisadi asılılıqdan qurtuluşu birbaşa Türkiyə və Azərbaycanla əməkdaşlıqdan asılıdır. Bayraq barbarlığı isə Ankara ilə münasibətlərin yoluna qoyulmasını ləngitməyə xidmət edir.

Cəmiyyətin və revanşist kəsimin qonşu dövlətlərə qarşı nifrət ruhunda köklənməsi regionda real və davamlı sülhün qarşısındakı ən böyük maneədir. Bu hadisə rəsmi səviyyədə səsləndirilən sülh və əməkdaşlıq mesajları ilə kəskin ziddiyyət təşkil etməklə, cəmiyyətdəki dərin ideoloji böhranı da üzə çıxarır. Deməli, Ermənistanda sülh çağırışları hələlik sadəcə diplomatik masa üzərindədir və ictimaiyyət səviyyəsində deyil. Əgər Ermənistan iqtidarı həqiqətən sülh istəyirsə, ilk növbədə, cəmiyyəti nifrət ritorikasından təmizləməlidir.

Düzdür, hadisədən sonra Ermənistanın Baş naziri Nikol Paşinyan və parlament sədri Alen Simonyan baş verənləri tənqid ediblər. Paşinyan bu addımı "məsuliyyətsiz, qəbuledilməz və təxribatçı" adlandıraraq qonşu dövlətin rəmzinə qarşı belə münasibətin gərginlik yaratdığını qeyd edib. Spiker Alen Simonyan da aksiyanı "utancverici" və "sülhə qarşı acınacaqlı təxribat" kimi xarakterizə edib. Siyasi rəhbərliyin qınağı müəyyən iradə göstəricisi kimi görünsə də, hadisədən bir gün sonra, yəni aprelin 24-də Paşinyan, Simonyan və prezident Vaaqn Xaçaturyanın qondarma "erməni soyqırımı"nın ildönümü münasibətilə İrəvandakı "Tsitsernakaberd" abidəsini ziyarət etmələri ciddi paradoks yaradır. Görünür, regional reallıqlarla daxili ideoloji təzyiqlər arasında sıxılan Paşinyan qarşıdan gələn parlament seçkiləri səbəbindən konkret mövqe ortaya qoymağa tələsmir. Seçki kampaniyası ərəfəsində o, hələlik revanşistlərin təxribatlarına göz yumur. Nəticədə cəmiyyətdə, hətta dövlətin bəzi qatlarında Türkiyə və Azərbaycana qarşı düşmənçilik toxumları səpən ideoloji xəttin elementləri hələ də qorunub saxlanılır. Şübhəsiz, bu ziddiyyət bölgədə davamlı sülhün bərqərar olması yolunda əsas maneədir. Deməli, hüquqi müstəvidə konkret cəza tədbirləri görülmədikcə, İrəvanın sülh bəyanatları əhəmiyyətsiz qalacaq.

Nəticə etibarilə, İrəvanın küçələrində yandırılan adi bayraq deyil. Bu, Ermənistanın regionda etibarlı tərəfdaş olmaq şansının qarşısını alır. Dayanıqlı sülh masa arxasında imzalanan sənədlərlə yox, cəmiyyətlərin bir-birinə qarşı nifrət buxovlarından azad olması ilə mümkündür. Ermənistan rəhbərliyi anlamalıdır ki, daxili siyasi xallar toplamaq naminə radikalizmə göz yummaq öz ölkəsini qaranlıq dalana sürükləməkdir. Əgər İrəvan həqiqətən bölgədə yeni bir səhifə açmaq istəyirsə, qınamadan çəkinib konkret cəza tədbirlərinə keçid etməlidir. Regionda sülhün yolu təxribatçılara nümayişkaranə dözümlülükdən deyil, nifrət cinayətlərinə qarşı qətiyyətli hüquqi iradədən keçir. Tarixi saxtakarlıqlar və etnik nifrət üzərində gələcək qurmaq mümkün deyil.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 28 aprel tarixli Sərəncamına Əlavə*

# Bakı şəhərində və Azərbaycanın müxtəlif bölgələrində güclü leysan yağışları və yaranan sel suları nəticəsində dəymiş zərərin fəsadlarının aradan qaldırılması ilə bağlı görüləcək işlərin siyahısı

| Sıra №-si | Yerləşdiyi ərazi | Dəymiş ziyanla əlaqədar görüləcək işlər |
|---|---|---|
| **1.** | | **Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən görüləcək işlər** |
| 1.1 | | Fərdi yaşayış evlərinin tikintisi |
| 1.1.1 | Xaçmaz rayonu | Xaçmaz şəhərində Koroğlu küçəsi 18 və Y.Şabanov küçəsi 9 ünvanlarında fərdi yaşayış evlərinin yenidən tikilməsi |
| 1.1.2 | | Ləcət kəndində 2 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.3 | | Cığatay kəndində 2 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.4 | | Tel kəndində 1 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.5 | | Uzunoba kəndində 2 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.6 | | İstisu qəsəbəsində 3 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.7 | | Xudat şəhərində 2 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.8 | | Yalama kəndində 2 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.9 | | Xanoba kəndində 1 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.10 | | Xuray kəndində 1 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.11 | Qusar rayonu | Aşağı Ləgər kəndində 2 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.12 | | Əniq kəndində 1 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.13 | | Quxuroba kəndində 1 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.14 | Şabran rayonu | Şabran şəhəri, M.Ə.Rəsulzadə küçəsi 47 ünvanında fərdi yaşayış evinin tikintisi |
| 1.1.15 | | Xırdaoymaq kəndində 1 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.16 | | Borbor kəndində 1 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.17 | | Surra kəndində 1 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.18 | | Söhbətli kəndində 1 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.19 | | Çölquşçu kəndində 1 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.20 | Siyəzən rayonu | Siyəzən şəhəri, Seyfəddin Dağlı küçəsi 64, Xətai küçəsi 86 və Füzuli küçəsi 15 ünvanlarında fərdi yaşayış evlərinin yenidən tikilməsi |
| 1.1.21 | | Balaca Həmyə kəndində 2 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.22 | Quba rayonu | Quba şəhəri, H.Hüseynov küçəsi 19 ünvanında fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.23 | | Tülər kəndində 1 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.24 | | Kələbağ kəndində 2 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.25 | | Vladimirovka kəndində 1 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.26 | | Kunxırt kəndində 1 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.27 | | Raziyələr kəndində 1 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.28 | | Susay kəndində 1 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.29 | | Qaraçay qəsəbəsi 1 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.30 | | Qalayxudat kəndində 1 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.31 | | Xaspolad kəndində 1 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.32 | | İspik kəndində 1 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.33 | | Gənclər qəsəbəsində 1 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.34 | Xızı rayonu | Sitalçay kəndində 5 fərdi yaşayış evinin yenidən tikilməsi |
| 1.1.35 | Bakı şəhəri, Binəqədi rayonu | Binəqədi qəsəbəsi, Ozan küçəsi 167, ev 112A ünvanında fərdi yaşayış evinin tikintisi |
| 1.2 | Bakı şəhəri, Suraxanı, Səbail, Binəqədi və Xətai rayonları | İstinad divarlarının tikilməsi |
| **2.** | | **Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən görüləcək işlər** |
| 2.1 | Bakı şəhəri, Nizami rayonu, Keşlə qəsəbəsi | M.Ə.Sabir və B.Mirzəyev küçələrində çirkab suların təsirinə məruz qalmış 61 fərdi yaşayış evinin təmir-bərpası və yararsız hala düşmüş məişət əşyalarına görə maddi yardım verilməsi (qiymətləndirmə xərcləri daxil olmaqla), həmin yaşayış evlərinin sakinlərinin 3 aylıq kirayə haqlarının ödənilməsi (bank xərcləri daxil olmaqla) |
| 2.2 | Bakı şəhəri, Xətai rayonu, Keşlə qəsəbəsi | R.Bağırov küçəsi, 36/12 "b" ünvanında sökülmüş fərdi yaşayış evinin sakinlərinə birdəfəlik maddi yardım ödənilməsi |
| **3.** | | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən görüləcək işlər** |
| **3.1** | | **Su və meliorasiya tədbirləri** |
| 3.1.1 | Şabran rayonu | Vəlvələçay–Taxtakörpü kanalının Dəvəçiçay ilə kəsişməsində 3400 mm-lik metal dukerin və xidməti körpünün dayaqlarının yuyulması, Dəvəçiçayda mühafizə bəndinin tikilməsi |
| 3.1.2 | | Vəlvələçay–Taxtakörpü kanalının PK155-PK163 sağ tərəfində torpaq sürüşməsinin kənarlaşdırılması və terrasların yaradılması |
| 3.1.3 | | Şabran rayonunda Şabrançayda və Dəvəçiçayda mühafizə tədbirləri |
| 3.1.4 | Xızı rayonu | Taxtakörpü–Ceyranbatan kanalının 9,10,11 və 12 saylı dukerlərinin kəsişdiyi Girdimançay, Gədiçay, Veqverçay və Sitalçayda olan keçidlərin yuyulması |
| 3.1.5 | Xaçmaz rayonu | Xanarx kanalı PK 140-630 aralığında sağ yamaclardan dağılmış beton üzlüyün bərpası |
| 3.1.6 | Abşeron rayonu | Abşeron rayonu və Xırdalan şəhəri ərazisində içməli, kanalizasiya və yağış sularının axıdılması sistemlərində yaranmış qəzalı vəziyyətin aradan qaldırılması üçün tədbirlərin görülməsi |
| 3.1.7 | Ağsu rayonu | Ağsuçayın Maşadqanlı kəndi ərazisindən keçən hissəsində beton bəndin tikilməsi |
| 3.1.8 | | Ağsuçayın şəhər ərazisindən keçən hissəsində fiksatorların və beton bəndlərin tikilməsi |
| 3.1.9 | Quba rayonu | Qaraçayda daş-beton bəndin tikilməsi |
| 3.1.10 | Xaçmaz rayonu | Qusarçayda və Qaraçayda sahil mühafizə bəndlərinin quraşdırılması |
| 3.1.11 | Astara rayonu | Pensərçayda daş-beton bəndlərin quraşdırılması |
| **3.2** | | **Kanalizasiya kollektorları üzrə tədbirlər** |
| 3.2.1 | Bakı şəhəri, Xətai rayonu | Xətai rayonu, Zeytun Sovxozu küçəsi, 118/B,C d1000mm Günəşli kollektorunda baş vermiş çökmənin aradan qaldırılması |
| 3.2.2 | | Xətai rayonu, Zeytun Sovxozu küçəsi, d1000mm Günəşli kollektorunda köhnə çökmə yerindən 30 m məsafədə fərdi yaşayış evinin mətbəxində baş vermiş çökmənin aradan qaldırılması |
| 3.2.3 | | Xətai rayonu, Zeytun Sovxozu küçəsi, ev 269 d1000mm Günəşli kollektorunda köhnə qəza yerində baş vermiş çökmənin aradan qaldırılması və xəttin bərpası |
| 3.2.4 | | Xətai rayonu, Zeytun Sovxozu küçəsi, 118/B (Ucuzluğun yaxınlığı) d1000mm Günəşli fekal kollektorunda baş vermiş çökmənin aradan qaldırılması və xəttin bərpası |
| 3.2.5 | | Xətai rayonu, R.Bağırov küçəsi 19 (fərdi yaşayış evinin daxili) d1400mm dairəvi kanalizasiya kollektorunda baş vermiş çökmənin aradan qaldırılması və xəttin bərpası |
| 3.2.6 | | Xətai rayonu, Ş.Səmədov küçəsi (7 saylı Cəzaçəkmə məntəqəsinin yanı) kanalizasiya kollektorunda baş vermiş çökmənin aradan qaldırılması və xəttin bərpası |
| 3.2.7 | | Xətai rayonu, NZS qəsəbəsi, R.Bağırov küçəsi d1400 mm dairəvi kollektorunda baş vermiş çökmənin aradan qaldırılması və xəttin bərpası |
| 3.2.8 | | Xətai rayonu, 8 Noyabr prospekti, AFFA-nın qarşısında Keşlə yağış kollektorunda baş vermiş çökmənin aradan qaldırılması və xəttin bərpası |
| 3.2.9 | | Xətai rayonu, İ.İsmayılov küçəsi 17, d1000mm Günəşli kanalizasiya kollektorunda baş vermiş çökmənin aradan qaldırılması və xəttin bərpası |
| 3.2.10 | | Xətai rayonu, T.Hacıbabayev küçəsi (fərdi yaşayış evinin tikili hissəsində) d1200 mm diametrli 8-ci km kanalizasiya kollektorunda baş vermiş çökmənin aradan qaldırılması və xəttin bərpası |
| 3.2.11 | | Xətai rayonu, Zeytun Sovxozu küçəsi, ev 296 qarşısı, d1000mm Günəşli kanalizasiya kollektorunda baş vermiş çökmənin aradan qaldırılması və xəttin bərpası |
| 3.2.12 | Bakı şəhəri, Nizami rayonu | Nizami rayonu, Çobanzadə küçəsi, "Sapfir" Ş/S qarşısı VIII km yağış kollektorunun quyusunun kənarında baş vermiş çökmənin aradan qaldırılması və xəttin bərpası |
| 3.2.13 | | Nizami rayonu, O.Vəliyev küçəsi Neft Emalı Zavodunun qarşısı d1000mm kanalizasiya kollektorunda baş vermiş çökmənin aradan qaldırılması və xəttin bərpası |
| 3.2.14 | | Nizami rayonu, M.Abbasov küçəsi, "İmperator" Ş/S qarşısı, d1200mm 8 km fekal kanalizasiya kollektorunda baş vermiş çökmənin aradan qaldırılması və xəttin bərpası |
| 3.2.15 | | Nizami rayonu, A.Manafov küçəsi, d1200 mm diametrli 8-ci km kanalizasiya kollektorunda baş vermiş çökmənin aradan qaldırılması və xəttin bərpası |
| 3.2.16 | Bakı şəhəri, Binəqədi rayonu | Binəqədi rayonu, Biləcəri yolu, "Mirİnşaat"ın qarşısı,d600-800mm kanalizasiya quyusunun ətrafında baş vermiş çökmənin aradan qaldırılması və xəttin bərpası |
| 3.2.17 | Bakı şəhəri, Sabunçu rayonu | Sabunçu rayonu, A.Əsədullayev küçəsi, d600mm kanalizasiya kollektorunda baş vermiş çökmənin aradan qaldırılması və xəttin bərpası |
| 3.2.18 | | Sabunçu rayonu, A.Əsədullayev küçəsi, tunelin daxili d1000mm kanalizasiya kollektorunda baş vermiş çökmənin aradan qaldırılması və xəttin bərpası |
| 3.2.19 | Sumqayıt şəhəri | Sumqayıt şəhəri, 10-cu mikrorayon, d1200 mm kollektorda baş vermiş çökmənin aradan qaldırılması |
| 3.2.20 | | Sumqayıt şəhəri, 6-cı mikrorayon, d600 mm kollektorda baş vermiş çökmənin aradan qaldırılması və xəttin bərpası |
| 3.2.21 | | Sumqayıt şəhəri, 11-ci mikrorayon, d600 mm kollektorda baş vermiş çökmənin aradan qaldırılması və xəttin bərpası |
| 3.2.22 | | Sumqayıt şəhəri, Çerkassı küçəsi, d600 mm kollektorda baş vermiş çökmənin aradan qaldırılması və xəttin bərpası |
| 3.2.23 | | Sumqayıt şəhəri, M.Lermontov və Bakı küçələrinin kəsişməsində (baxış quyusu) d1000 mm baxış quyusu və ətrafında baş vermiş çökmənin aradan qaldırılması və xəttin bərpası |
| 3.2.24 | | Sumqayıt şəhəri, Sahil küçəsi, Xəzri yaşayış massivində (baxış quyusu) baş vermiş çökmənin aradan qaldırılması və xəttin bərpası |
| 3.2.25 | | Sumqayıt şəhəri, 8-ci mikrorayon, A.Quliyev küçəsində kanalizasiya kollektorunda baş vermiş çökmənin aradan qaldırılması və xəttin bərpası |
| 3.2.26 | | Sumqayıt şəhəri d1420 mm TSTQ təxliyə xəttində baş vermiş çökmənin aradan qaldırılması və xəttin bərpası |

| Sıra №-si | Yerləşdiyi ərazi | Dəymiş ziyanla əlaqədar görüləcək işlər |
|---|---|---|
| **3.3** | | **Kanalizasiya-nasos stansiyaları üzrə tədbirlər (KNS)** |
| 3.3.1 | Bakı şəhəri, Binəqədi rayonu (AKABE) | 3 saylı KNS-də nasos aqreqatlarının bərpası, subasma nəticəsində zədələnmiş avadanlıqların yenilənməsi və digər zəruri tədbirlərin görülməsi |
| 3.3.2 | Abşeron rayonu (Gülüstan) | 14 saylı KNS-də elektrik mühərriklərinin, generator avadanlıqlarının bərpası və digər zəruri tədbirlərin görülməsi |
| 3.3.3 | Abşeron rayonu (Novxanı, Duz gölü) | Nasos aqreqatlarının, elektrik idarəetmə blokunun dəyişdirilməsi, sistemin yenidən qurulması və digər zəruri tədbirlərin görülməsi |
| 3.3.4 | Bakı şəhəri, Sabunçu rayonu (Zabrat) | 13 saylı KNS-də nasos mühərriklərinin bərpası, idarəetmə panelinin qaldırılması və digər zəruri tədbirlərin görülməsi |
| 3.3.5 | Bakı şəhəri, Sabunçu rayonu (Ramana, Südçülük) | Nasos mühərrikinin dəyişdirilməsi, qısa qapanma nəticəsində zədələnmiş avadanlığın yenilənməsi və digər zəruri tədbirlərin görülməsi |
| 3.3.6 | Bakı şəhəri, Sabunçu rayonu (Ramana) | Nasos aqreqatlarının bərpası və idarəetmə sisteminin mühafizə səviyyəsinin artırılması, digər zəruri tədbirlərin görülməsi |
| 3.3.7 | Abşeron rayonu (Xırdalan) | 12/26 saylı KNS-də soft starter avadanlıqlarının yenilənməsi və digər zəruri tədbirlərin görülməsi |
| 3.3.8 | Abşeron rayonu (Masazır, Qotur gölü) | 12/26 saylı KNS-də nasos aqreqatlarının bərpası və idarəetmə panelinin yuxarı səviyyəyə qaldırılması, digər zəruri tədbirlərin görülməsi |
| 3.3.9 | Bakı şəhəri, Qaradağ rayonu (Baş Ələt) | 20 saylı KNS-də elektrik mühərrikinin bərpası və istismar dayanıqlığının təmin edilməsi, digər zəruri tədbirlərin görülməsi |
| 3.3.10 | Nərimanov rayonu (Əhməd Rəcəbli) | 4/5 saylı KNS-də nasos mühərrikinin bərpası və avadanlıqların texniki vəziyyətinin bərpası və digər zəruri tədbirlərin görülməsi |
| **4.** | | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən görüləcək işlər** |
| 4.1 | Quba rayonu | M-1 (142km)-Zərqava–Kələnov yolunun 7-ci və 10-cu km-də yamaclarda baş vermiş sürüşmələrin nəticələrinin aradan qaldırılması |
| 4.2 | | Quba–İspik–Xınalıq yolunun 30-cu km-də baş vermiş uçqunun nəticələrinin aradan qaldırılması |
| 4.3 | | Quba–Qonaqkənd–Muçu yolunun 40–42-ci km-lərində baş vermiş çökmə, qabarma və sürüşmənin nəticələrinin aradan qaldırılması |
| 4.4 | | Yerfi–Adur yolunun yararsız vəziyyətə düşmüş çınqıl örtüyünün yenilənməsi, diametri 300 və 500 mm-lik, ümumi uzunluğu 81 metr olan suötürücü boruların yenilənməsi və 20-ci km-də Söhüb kəndinin ərazisində yerləşən körpünün giriş-çıxış hissələrinin bərpası |
| 4.5 | Xaçmaz rayonu | Xaçmaz–Xudat–Yalama yolunun 60-cı km-də yan-yana 3 ədəd borunun çıxışlarının bərpası və 68-ci km-də yolun bərpası |
| 4.6 | | Mollaoba–Qıraqlı yolunun 8-ci km-də yolun bərpası |
| 4.7 | | Xaçmaz–Niyazabad–Qarğalıq yolunun 15-ci km-də yolun və boruların bərpası |
| 4.8 | | Aşağızeyid–Bərqov kəndlərini birləşdirən yolun Caqacuq çayı ilə kəsişməsindəki düzbucaqlı suötürücü qurğuya yanaşma yollarının və sunizamlayıcı qanadların bərpası |
| 4.9 | Qusar rayonu | Həzrə–Muçuq yolunun 4-cü km-də körpünün girişinin bərpası |
| 4.10 | | Qusar–Həzrə–Sudur yolunun 15-ci km-də 2 qoşa borunun bərpası |
| 4.11 | | Ukur–Nəcəfkənd–Zuxul yolunun 8-ci km-də yamacda sürüşmələrin nəticələrinin aradan qaldırılması |
| 4.12 | | Cağar–Cetkün yolunun 4-cü km-də yolun hərəkət hissəsinin bərpası |
| 4.13 | | Yuxarı Tahircal kənd yolunun 8-ci km-də yol yatağının bərpası |
| 4.14 | | Qusar–Əniq–Laza yolunun 35-ci km-də 4 ədəd borunun, yolun hərəkət hissəsinin bərpası və 2 yerdə yeni körpünün tikintisi |
| 4.15 | Şabran rayonu | Düzbilici–Vələsi–Çinarlar yolunun 5-ci km-də yolun, 8-ci km-də 1 ədəd borunun, 16-cı və 18-ci km-də 2 ədəd körpünün bərpası |
| 4.16 | | Qaraqaşlı kəndinə gedən avtomobil yolunun 16-cı km-dən ayrılan Liman yolunun hərəkət hissəsinin bərpası |
| 4.17 | | Şabran–Qalaaltı yolunun 6-cı km-də borunun bərpası |
| 4.18 | Xızı rayonu | Altıağac–Xızı yolunun 17-ci km-də hərəkət hissəsinin bərpası |
| 4.19 | Siyəzən rayonu | Siyəzən–Dağ Quşçu–Ərziküş yolunun 4,8-ci km-dən başlayaraq yolun bərpası |
| 4.20 | | Siyəzən–Məşrif–Qalaaltı yolunun 11-ci km-də qəzalı vəziyyətə düşmüş körpünün əvəzinə yeni körpünün tikilməsi |
| 4.21 | Ağsu rayonu | Parakənd–Maşadıqanlı yolunun 3-cü km-də yolun hərəkət hissəsinin bərpası |
| 4.22 | İsmayıllı rayonu | Dəmirçi–Lahıc yolunun 11-ci km-də yolun hərəkət hissəsinin bərpası |
| 4.23 | Bakı şəhəri, Qaradağ rayonu | Lökbatan–Güzdək yolunun 2.2-ci km-də düzbucaqlı suötürücü borunun bərpası, biraşırımlı yeni körpünün layihələndirilərək tikilməsi |
| 4.24 | | Səngəçal–Çeyildağ yolunun 13-cü km-də dağılmış körpünün əvəzinə yeni körpünün layihələndirilərək tikilməsi |
| 4.25 | Bakı şəhəri, Səbail rayonu | Bakı–Ələt–Qazax-Gürcüstanla dövlət sərhədi avtomobil yolunun 7-ci km-də (Bibiheybət məscidinin yanı) baş vermiş çat və sürüşmələrin nəticələrinin aradan qaldırılması |
| **5** | | **"Azərişıq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən görüləcək işlər** |
| **5.1** | | **Binəqədi, Biləcəri, Xətai, Suraxanı, Sabunçu və Xəzər elektrik şəbəkələrinə dəymiş ziyanın aradan qaldırılması** |
| 5.1.1 | Bakı şəhəri, Binəqədi rayonu | Binəqədi elektrik şəbəkəsi, 110/35/10 kV-luq "Dərnəgül" YS-dan çıxan 10 kV-luq 2585-565, 746-809, 31-38 saylı kabel xətlərinin zədələnərək istismara yararsız vəziyyətə düşən hissələrinin yenilənməsi |
| 5.1.2 | Bakı şəhəri, Binəqədi rayonu, Biləcəri qəsəbəsi | Biləcəri elektrik şəbəkəsi, 35/6 kV-luq 89 saylı yarımstansiyada zədələnmiş avadanlıqların yenilənməsi |
| 5.1.3 | Bakı şəhəri, Xətai rayonu | Xətai elektrik şəbəkəsi, Yarımstansiya Əhmədli – 200 saylı yarımstansiya arası 35 kV-luq EVX-nin hava xətti özüllərinin tam qəzalı vəziyyətə düşmüş hissəsinin kabel xətti ilə əvəz olunması (2 dövrəli 4 km uzunluğunda alternativ trassa ilə kabel xətti ilə əvəz edilməlidir) |
| 5.1.4 | Bakı şəhəri, Suraxanı rayonu | Suraxanı elektrik şəbəkəsi, 35/6 kV-luq 360 saylı yarımstansiyada zədələnmiş avadanlıqların yenilənməsi |
| 5.1.5 | Bakı şəhəri, Sabunçu rayonu | Sabunçu elektrik şəbəkəsi, 35/6 kV-luq 22 saylı yarımstansiyada zədələnmiş avadanlıqların yenilənməsi |
| 5.1.6 | Bakı şəhəri, Xəzər rayonu | Xəzər elektrik şəbəkəsi, KTM 378, KTM 382, KTM 171, KTM 564, KTM 1206, KTM 176 bərpası |
| **5.2** | | **Abşeron, Bağlar, Yaşma və Sumqayıt elektrik şəbəkələrinə dəymiş ziyanın aradan qaldırılması** |
| 5.2.1 | Abşeron rayonu | Abşeron elektrik şəbəkəsi, 35/10 kV-luq "Masazır" yarımstansiyasında zədələnmiş avadanlıqların yenilənməsi |
| 5.2.2 | Abşeron rayonu | Bağlar elektrik şəbəkəsi, 12 ədəd KTM-də 2870 metr 0,4 kV-luq kabel xətlərinin zədələnmiş hissələrinin bərpası |
| 5.2.3 | Xızı rayonu | Yaşma Külək Enerji Parkının ərazisində yerləşən 20/110 kV-luq 2x40 MVA gücündə "KES" yarımstansiyasında sel sularının dolması nəticəsində akkumulyatorların, mühafizə avadanlıqlarının yenilənməsi, kabel kanallarında əsaslı bərpa işlərinin aparılması |
| 5.2.4 | Abşeron rayonu | Abşeron rayonu, Badamlıq ərazisində 35/10 kV-luq 2x10 MVA gücündə yarımstansiyanın tikintisi |
| 5.2.5 | Sumqayıt şəhəri | Sumqayıt elektrik şəbəkəsi, 35/10 kV "138" saylı YS-da zədələnmiş avadanlıqların yenilənməsi, 7 ədəd transformator məntəqəsinin əsaslı yenidənqurulması, TM 68 – TM 69, TM 75 – TM 76, TM 136 – TM 135, TM 104 – TM 132, PM 4 – TM 72, TM 93 – TM 176, TM 105 – TM 106, PM 5 – TM 106, TM 146-TM 139-PM 8 arası sıradan çıxmış 6 və 10 kV-luq yeraltı kabel xətlərinin zədələnərək istismara yararsız vəziyyətə düşmüş hissələrinin yenilənməsi |
| **5.3** | | **Quba, Qusar, Xaçmaz, Siyəzən və Şabran elektrik şəbəkələrinə dəymiş ziyanın aradan qaldırılması** |
| 5.3.1 | Quba rayonu | Quba elektrik şəbəkəsi, 35 kV-luq Ulduz və Təngəaltı hava xəttinin Qonaqkənd istiqamətində sürüşmə nəticəsində qəzalı vəziyyətə düşmüş hava xətlərinin 12 km hissəsinin sürüşmə zonasından kənara çıxarılaraq yenilənməsi (L=12 km) |
| 5.3.2 | Quba rayonu | Quba elektrik şəbəkəsi, 10 kV-luq elektrik şəbəkələrində qəzalı vəziyyətə düşmüş hava xətlərinin yenilənməsi və bərpası (L=22,5 km) |
| 5.3.3 | Quba rayonu | Quba elektrik şəbəkəsi, sel suları dağıtmış 5 ədəd KTM-in yenisi ilə əvəz olunması |
| 5.3.4 | Qusar rayonu | Qusar elektrik şəbəkəsi, 10 kV-luq elektrik şəbəkələrində qəzalı vəziyyətə düşmüş hava xətlərinin yenilənməsi və bərpası (L=5,8 km) |
| 5.3.5 | Qusar rayonu | Qusar elektrik şəbəkəsi, sel suları dağıtmış 4 ədəd KTM-in yenisi ilə əvəz olunması |
| 5.3.6 | Xaçmaz rayonu | Xaçmaz elektrik şəbəkəsi, 10 kV-luq elektrik şəbəkələrində qəzalı vəziyyətə düşmüş hava xətlərinin yenilənməsi və bərpası (L=4,35 km) |
| 5.3.7 | Xaçmaz rayonu | Xaçmaz elektrik şəbəkəsi, sel suları dağıtmış 3 ədəd KTM-in yenisi ilə əvəz olunması |
| 5.3.8 | Siyəzən rayonu | Siyəzən elektrik şəbəkəsi, 10 kV-luq elektrik şəbəkələrində qəzalı vəziyyətə düşmüş hava xətlərinin yenilənməsi və bərpası (L=1,2 km) |
| 5.3.9 | Şabran rayonu | Şabran elektrik şəbəkəsi, 10 kV-luq elektrik şəbəkələrində qəzalı vəziyyətə düşmüş hava xətlərinin yenilənməsi və bərpası (L=3,6 km) |
| 5.3.10 | Şabran rayonu | Şabran elektrik şəbəkəsi, sel suları dağıtmış 3 ədəd KTM-in yenisi ilə əvəz olunması |

## Elm xadimlərimiz

# Neftçi, alim, pedaqoq



Azərbaycan torpağı qədimdən təbii sərvətləri ilə tanınıb. Bu sərvətlərin ən qiymətlisi isə şübhəsiz ki, neftdir. Abşeronun "qara qızıl"ı yalnız iqtisadi güc mənbəyi deyil, həm də bu, xalqın zəhmət, əzm və elm tarixinin ayrılmaz hissəsidir. Bu tarixin səhifələrində öz adı ilə iz qoymuş görkəmli şəxsiyyətlərdən biri də geoloq-neftçi alim Baba Babazadədir.

O, uşaqlıq illərindən ailəsindən halallığı, əməyə bağlılığı öyrənib. Bir də neft qoxulu məkanda boya-başa çatması, atasının neft mədənlərində çalışması kiçik Babanın həyat yolunu erkən müəyyənləşdirib. Hələ məktəb illərində o, ətrafında baş verənləri müşahidə edib, neft buruqlarının səsilə böyüyərək torpağın altındakı sirlərə maraq göstərib. Bu maraq sonradan böyük bir elmi yolun başlanğıcına çevrilib.

Baba Babazadə 1911-ci il aprelin 25-də Bakının Ramana kəndində dünyaya gəlib. Atası Qurbanqulu kişi neftçi olub, Ramanada işləyib. Babanın ömrünün ilk illəri Azərbaycanda gərgin ictimai-siyasi hadisələrin bir-birini əvəz etdiyi bir zamanda keçib. Çar Rusiyasında və onun əsarəti altında olan əyalətlərdə iğtişaşlar baş verirdi. İnqilabi hərəkat, nəhayət, çarizmin devrilməsi ilə nəticələndi. Ancaq hakimiyyəti ələ keçirən bolşeviklərin də niyyəti başqa bir adla imperiyanı yenidən bərpa etmək idi.

Həmin illər Azərbaycan öz müstəqilliyinə nail oldu. Lakin yeni qurulan cümhuriyyət daxili və xarici düşmənlərinin hücumlarına, basqılarına məruz qaldı. 1920-ci ilin aprelində bolşeviklər Azərbaycanı işğal etdilər. O zaman Babanın 9 yaşı vardı.

1920-ci illər Azərbaycanda həm siyasi, həm də sosial baxımdan mürəkkəb dövr idi. Bir tərəfdən də ailəsində baş verən faciə - atasının istehsalat qəzası nəticəsində əlil olması gənc Babanın üzərinə böyük məsuliyyət qoydu. Ancaq o, çətinliklər qarşısında geri çəkilmədi. Əksinə, bu sınaqlar onun iradəsini daha da möhkəmləndirdi. 1923-cü ildə Nəriman Nərimanov adına Sənaye Texnikumuna daxil olan Baba Babazadə 1929-cu ildə həmin məktəbi əla qiymətlərlə başa vurdu.

Böyük ümidləri, bitib-tükənməyən arzuları onu təhsilini davam etdirməyə sövq etdi. Azərbaycan Sənaye İnstitutuna (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) daxil oldu, mühəndis-geoloq ixtisasına yiyələndi.

1934-cü ildə institutu bitirən B.Babazadə "Əzizbəyovneft" Neft-Mədən İdarəsində əmək fəaliyyətinə başlayıb. Zəhmətsevərliyi, peşəsinə sonsuz marağı ilə çox keçməyib ki, fərqlənib. Onun rəhbərliyi ilə 1936-cı ildə qazılmış quyunun dərin qatlarından "Qala lay dəstəsi" açılıb. Neft verən quyuların həm quru və həm də dəniz yataqlarının böyük məhsuldarlığa malik ehtiyatlarla zəngin olması bu kəşf əsasında meydana çıxıb. O, həmçinin 1942-ci ildə "Əzizbəyovneft" Neft-Mədən İdarəsində baş geoloq işlədiyi müddətdə Buzovna-Maştağa yatağının kəşfində iştirak edib.

Gənclik çağlarının coşqun arzuları ilə çalışan, yeni-yeni nailiyyətlər qazanan Baba Babazadə 1945-1952-ci illərdə "Azneft" Birliyinin baş geoloqunun müavini, daha sonra baş geoloq və birliyin rəisi vəzifələrində çalışıb. Əmək fəaliyyətini 1954-cü ildə Neft Sənaye Nazirliyinin baş geoloqu kimi davam etdirən təcrübəli neftçi 1960-cı ildən ömrünün sonunadək "Azneft" Birliyinin baş geoloqu vəzifəsində işləyib.

Buzovna-Maştağa, Zirə, Kürsan, Qaradağ, Neft Daşlarının şimal-şərq hissəsində, Palçıq pilpiləsi, Qaradağ, Kürovdağ, Mişovdağ, Qum adası və digər yerlərdə zəngin neft yataqlarının kəşfi görkəmli geoloq-alimin adı ilə bağlıdır. Azərbaycanda qaz sənayesinin təməlinin qoyulmasına əsaslı təkan verən, dənizdə və quruda neft hasil edən yeni bazaların yaradılmasında da Baba Babazadə fəal iştirak edib. Həmçinin neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı işlərində yeni üsulların yaradıcılarından olan Baba Babazadənin elmi əsərlərində müxtəlif torpaq süxurlarında neft və qaz yataqlarının yerləşməsinin qanunauyğunluqları barədə geniş biliklər, dərin məlumatlar yer alıb.

Neftçi-geoloqun fəaliyyəti çoxşaxəli olub. Elmi fəaliyyət həyatında və yaradıcılığında hər zaman ən önəmli yerlərdən birini tutub.

O, 1949-cu ildə geologiya-mineralogiya elmləri namizədi və 1962-ci ildə elmlər doktoru elmi dərəcələrini alıb. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilən Baba Babazadə geoloji-kəşfiyyat və yataqların səmərəli işlənməsi üzrə 80-dən artıq elmi əsərin müəllifidir. "Buzovna-Maştağa neft yatağı və Abşeronun dərində yatan perspektiv strukturlarının axtarışı" adlı monoqrafiyası 1952-ci ildə Sankt-Peterburq şəhərində çap edilib.

Görkəmli alimin qoyub getdiyi zəngin elmi irsi - ayrı-ayrı elmi məqalələri, kitabları, monoqrafiyaları bu gün də dəyərli mənbə hesab olunur. Alimin adı UNESCO-nun "Dünya alimlərinin elmi irsi" siyahısına daxil edilib.

Baba Babazadə pedaqoji fəaliyyətlə də məşğul olub. Azərbaycan Dövlət Neft və Sənaye Universitetində dərs deyib, gənc kadrların hazırlanmasında, istedadlı alimlərin yetişdirilməsində böyük əmək sərf edib. Onun rəhbərliyi altında 20-dən çox alim hazırlanıb.

Neft və qaz sənayesinin inkişafında xüsusi xidmətlərinə görə Baba Babazadə keçmiş SSRİ-nin və Azərbaycanın neftçiləri arasında ilk dəfə olaraq "Sosialist Əməyi Qəhrəmanı" adına, birinci dərəcəli Dövlət (Stalin) mükafatına, Lenin mükafatına və üç dəfə "Qırmızı Əmək Bayrağı" ordeninə layiq görülüb. Həmçinin 1941-1945-ci illər Böyük Vətən müharibəsində "Qafqazın müdafiəsinə görə", "Rəşadətli əməyə görə" medalları və fəxri fərmanlarla təltif edilib.

Görkəmli alim, geoloq-neftçi Baba Babazadə 1962-ci il avqustun 18-də vəfat edib. Onun ömrünün işığı bu gün də böyük zəhmətinin və istedadının bəhrəsi olan əsərlərində yaşayır.

***Z.FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Ömrünü neft geologiyasına həsr etdi, məşhurluq qazandı

**Azərbaycan neft geologiyası elminin inkişafında mühüm rol oynamış görkəmli alimlərdən biri olan akademik Ələşrəf Əlizadə zəngin elmi fəaliyyəti və mühüm kəşfləri ilə adını tarixə yazmış şəxsiyyətlərdəndir. Onun apardığı tədqiqatlar yalnız Azərbaycanın deyil, bütövlükdə keçmiş SSRİ məkanında neft-qaz geologiyasının inkişafına ciddi töhfələr verib. Alimin həyat yolu, elmi axtarışları və əldə etdiyi nailiyyətlər bu gün də gənc tədqiqatçılar üçün örnək hesab olunur.**



Ələşrəf Əlizadə 1911-ci il aprelin 24-də Şamaxıda dünyaya gəlib. 1930-cu ildə Azərbaycan Neft İnstitutuna (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) daxil olub. 1935-ci ildə institutun Geoloji-kəşfiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirib. 1934-cü ildə əmək fəaliyyətinə başladığı "Azneftkəşfiyyat" trestində 1942-ci ilədək işləyən Ələşrəf Əlizadə 1942-1946-cı illərdə partiyanın rəhbər orqanlarında çalışıb. Amma o, böyük vurğunluqla, məsuliyyətlə bağlı olduğu elm yolu ilə irəliləyib. 1944-cü ildə geologiya-mineralogiya elmləri doktoru elmi dərəcəsi alıb.

Ələşrəf Əlizadə 1938-1948-ci illərdə Azərbaycan SSR EA-nın İ.M.Qubkin adına Geologiya İnstitutunun Elmi Şurasının üzvü olub. O, 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının (hazırda Azərbaycan Milli Elmlər Akademiyası) təsisçilərindən biri olub. Həmin il akademiyanın həqiqi üzvü seçilib.

Ələşrəf Əlizadə 1943-cü ildə ilk dəfə Dövlət mükafatına yeni neft yataqlarının kəşfinə və mənimsənilməsinə görə layiq görülüb. İkinci dəfə isə bu mükafatı 1946-cı ildə kiçikhəcmli elektroperforator cihazını işləyib hazırladığına görə alıb. 1946-1948-ci illərdə "Azneft" Birliyinin rəisi vəzifəsində çalışıb, 1948-ci ildə isə "Azneftkəşfiyyat" Birliyinə rəis təyin edilib. 1949-1954-cü illərdə Türkmənistan Dövlət Universitetində və Türkmənistan SSR Elmlər Akademiyasında çalışıb. 1938-1946 və 1954-1959-cu illərdə Azərbaycan Sənaye İnstitutunda dərs deyib. Alim 1954-cü ildə Azərbaycan Sənaye İnstitutunun Neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı kafedrasının professoru, 1959-1970-ci illərdə Azərbaycan Dövlət Neft Sənayesi Elmi-Tədqiqat Layihə İnstitutunun direktoru olub. Ələşrəf Əlizadə 1977-ci ildən fəaliyyətini Azərbaycan Elmlər Akademiyasının Geologiya İnstitutunda davam etdirib. 1977-1985-ci illərdə Azərbaycan SSR EA Geologiya İnstitutunda "Regional geologiya və tektonika" şöbəsinə rəhbərlik edib.

Akademik Ələşrəf Əlizadənin adı həm də regional geologiya, geotektonika və neft-qaz geologiyası sahəsində böyük mütəxəssis, Azərbaycanın və Türkmənistanın məhsuldar qat (orta pliosen) çöküntülərində neft və qaz yataqlarının əmələ gəlməsi qanunauyğunluğunu müəyyən edənlərdən və Azərbaycanın mezozoy nefti haqqında elmin əsasını qoyanlardan, paleogenin və neogenin biostratiqrafik tədqiqatçılarından, yeni neft və qaz-kondensat yataqlarını kəşf edənlərdən biri kimi xatırlanır. O, Azərbaycanın əsas neft rayonlarında geoloji-tədqiqat işləri də həyata keçirib, bir sıra mühüm neft və qaz-kondensat yataqlarının açılmasında bilavasitə iştirak edib, Mezozoy çöküntülərinin neftlilik problemi ilə məşğul olub. Akademik Türkmənistanda Pliosen çöküntülərinin stratiqrafik sxemini tərtib və Akçaqılın faunasını tədqiq edib.

Ə.Əlizadənin rəhbərliyi ilə 60 elmlər və fəlsəfə doktoru hazırlanıb. Akademik regional geologiyanın, tektonikanın və neft geologiyasının müxtəlif problemlərinə aid yüzlərlə elmi əsərin, o cümlədən 30 monoqrafiyanın müəllifidir. "Yer və zəlzələlər", "Azərbaycanın Açıqgölü", "Türkmənistanın Açıqgölü", "Azərbaycanın Sarmatı", "Azərbaycanın paleogen yataqları" və digər əsərləri bu gün də dəyərli mənbə hesab olunur.

Ələşrəf Əlizadə 1971-ci ildə SSRİ-nin Fəxri Neftçisi, elə həmin il Türkmənistan SSR-in Əməkdar Elm və Texnika Xadimi adlarına layiq görülüb. O, Ümumittifaq Paleontologiya Cəmiyyətinin fəxri üzvü (1976), Qubkin adına mükafatın laureatı (1973) idi. SSRİ Ali Sovetinin (2-ci çağırış, 1946) deputatı olub. "Qırmızı Əmək Bayrağı" ordeni (1966) və medallarla təltif edilib.

1985-ci il martın 22-də Bakıda vəfat edən akademikin elmi irsi Azərbaycan geologiya və neft-qaz elminin inkişafında misilsiz rol oynayıb. Həyatını elmə, tədqiqatlara və yeni kəşflərə həsr edən görkəmli alim yalnız geologiyanın nəzəri və praktik sahələrinə deyil, həm də ölkənin iqtisadi potensialına böyük töhfə verib.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Qoşa qanadlı "Günəşli"

## Xəzərin qoynundakı bu neft yatağının həm dayaz, həm dərin hissəsi bol sərvətlidir

Bu, qocamam bir neftçinin söylədiklərindəndir. Ulu Öndər Heydər Əliyev 1970-ci illərdə Neft Daşlarına səfərlərinin birində estakada üstündə neftçilərlə səmimi söhbət edirmiş. Birdən baxışları uzaqlara, dənizlə səmanın sanki birləşdiyi nöqtəyə zillənir. Sonra yenidən üzünü neftçilərə, əlini üfüqə tərəf uzadaraq deyir ki, qazanılan nailiyyətlərlə kifayətlənmək olmaz, indi oranı, irəlini, dənizin daha dərin hisslərini kəşf etmək, işləmək lazımdır...

Bu, Xəzərin o ərazisi idi ki, indi orada "Günəşli" yatağı yerləşir. "Günəşli" nəhəng yataqdır. Bakı şəhərindən 120 kilometr şərqdə, Neft Daşlarından 12 kilometr cənub-şərqdə yaşı onilliklərlə ölçülən özüllər və ən müasir platformalarla "məskən salıb". Belə ki, yataq dayazsulu və dərinsulu olmaqla iki hissəyə bölünür. Onun ərazisində suyun dərinliyi 80 metrdən bir neçə yüz metrədək dəyişir. "Günəşli" qırışığı "Çilov-Neft Daşları" antiklinal qırışıqlıq qurşağına daxildir.

"Günəşli" yatağının dayazsulu hissəsi SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) "Azneft" İstehsalat Birliyinin 28 May adına NQÇİ tərəfindən istismar olunur. Dərinsulu hissəsi isə "Əsrin müqaviləsi"nin tərkib hissəsidir.

Doğrudur, "Günəşli" strukturu hələ 1958-1963-cü illərdə seysmik kəşfiyyat işləri nəticəsində müəyyən olunmuşdu. Lakin burada 1 nömrəli kəşfiyyat quyusu 1977-ci ildə qazıldı və yatağın istismarına başlanıldı.

"Günəşli" nefti yüksək keyfiyyətə malikdir - o, tərkibinə və özlülüyünə görə "Azeri Light" markasına tam uyğundur. Yataqdan çıxarılan neft olduqca yüngüldür, onun tərkibində asfalten, qətran və parafinin miqdarı azdır. Şəffaf məhsulların (benzin, kerosin, liqroin, dizel yanacağı və s.) miqdarı 50 faiz təşkil edir.

"Azneft" üzrə hasilatın yarıdan çoxunu dayaz "Günəşli" verir. Yataqda 14 dərin dəniz özülü fəaliyyət göstərir. Burada indiyədək 370-dən çox quyu qazılıb ki, onların çoxu hazırda istismardadır. İşlənmənin əvvəlindən başlanan neft hasilatı (kondensatla birlikdə) keçən il 210 milyon tona çatmışdır. İndiyədək "Günəşli"dən böyük həcmdə qaz da hasil olunub.

"Günəşli"də (dayaz sulu hissəsi) maksimal hasilat 1991-ci ilə təsadüf edib. Həmin il 114 işlək quyudan 6,7 milyon ton neft çıxarılıb. Burada maksimal qaz hasilatı isə 2008-ci ildə 6,6 milyard kubmetr olub. Yataq hazırda işlənməsinin üçüncü mərhələsindədir.

2024-cü ilin sentyabr ayında SOCAR-la ABŞ-nin "Halliburton" şirkəti arasında "Texniki xidmətlərin göstərilməsi"nə dair razılaşma əldə olunub. Sənəd "Günəşli" yatağının qalıq karbohidrogen potensialının yenidən qiymətləndirilməsi və qalıq neftli zonaların dəqiqləşdirilməsi üçün müasir tədqiqatların icra edilməsi məqsədi daşıyır.

"Dərinsulu Günəşli"dən hasilata başlanması isə Azərbaycanın yeni neft strategiyasının daha bir qələbəsi idi. Bu tarixi hadisə 2008-ci ilin aprel ayında baş verdi.

Bu, "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqları haqqında bədgüman olanlara, Azərbaycanda Bakı-Tbilisi-Ceyhan kəmərini doldurmaq üçün yetərincə neftin olmadığını deyənlərə tutarlı cavab idi.









AÇG-nin digər yataqlarından olduğu kimi, "Dərinsulu Günəşli"dən də ilk neft öncədən qazılmış quyulardan alındı. Bu cür quyular, adətən, əvvəlcədən qazılır və platforma tam quraşdırılandan sonra ona birləşdirilərək işə salınır. Daha sonra platformanın özündən quyuların qazılmasına başlanır. Quyuların sayı çoxaldıqca, hasilat da artır.

"Dərinsulu Günəşli" kompleksi "Günəşli" yatağının şərqində, suyun dərinliyinin 175 metr olduğu ərazidə yerləşir. O, iki nəhəng dəniz qurğusundan ibarətdir. Bunlardan birincisi qazma, texnoloji təchizat və yaşayış platformasıdır. İkincisi isə hasilat, kompressor, suvurma və texnoloji təchizat platforması adlanır. Platformalar arasında körpü salınıb.

Qazma, texnoloji təchizat və yaşayış platformasının üst modulları Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda (BDÖZ) inşa edilib. Qurğunun dayaq bloku da BDÖZ-də tikilib, 2006-cı ilin payızında daşıma barjı üzərinə yüklənib və 2007-ci ilin yazında dənizə yola salınıb. İkinci platformanın dayaq bloku həmçinin BDÖZ-də inşa edilib.

Dayaq blokları zavodun "BOS-Şelf" tikinti-quraşdırma sahəsində arayaərsəyə gəlib. BDÖZ-də əsas işlər AÇG layihəsinin əməliyyatçısı olan BP-nin həmin vaxtdakı podratçılarından biri - "MakDermott" (ABŞ) şirkəti tərəfindən görülürdü. Bu, bütün dünyada platformaların tikintisində və sualtı boruların çəkilişində zəngin təcrübəsi olan şirkətlərdəndir. AÇG-nin əvvəlki platformalarının və dənizdən Səngəçaladək uzanan sualtı neft və qaz kəmərlərinin inşaatçısı da "MakDermott" olub. Hasilat, kompressor, suvurma və texnoloji təchizat platformasının üst modulları isə Bibiheybətdəki tikinti-quraşdırma sahəsində inşa edilib.

Sualtı xətlər bu kompleksi "Azəri" yatağından çəkilmiş 30 düymlük iki neft və 28 düymlük bir qaz kəməri şəbəkəsinə birləşdirir. "Dərinsulu Günəşli"dən əldə olunan hasilat həmin sualtı borularla Səngəçal terminalına nəql edilir.

"Dərinsulu Günəşli"ni digər layihələrdən fərqləndirən onun əlavə bir proqramının olmasıdır. Bu, əvvəlki yataqların işlənməsində rast gəlinməyən sualtı suvurma proqramıdır. Proqramın həyata keçirilməsi yataqdakı quyuların platformadan aralıda yerləşməsi səbəbindən irəli gəlir və onun məqsədi, qısaca desək, hasilatın sabit saxlanılmasına və artırılmasına xidmət edir.

"Dərinsulu Günəşli"nin dənizdəki və qurudakı genişmiqyaslı, çoxşaxəli tikinti-quraşdırma işlərini onlarca podratçı və subpodratçı müəssisə, minlərlə yerli və xarici vətəndaş həyata keçirmişdir.

Yeri gəlmişkən, AÇG-dəki iştirak paylarını xatırladaq: BP (30,37 faiz), SOCAR (31,65 faiz), "MOL Group" (9,57 faiz), INPEX (9,31 faiz), "ExxonMobil" (6,79 faiz), TPAO (5,73 faiz), ITOCHU (3,65 faiz), "ONGC Videsh Limited" (2,92 faiz) .

Bu gün AÇG-nin digər yataqlarında olduğu kimi, "Dərinsulu Günəşli"də də hasilat sabit və təhlükəsiz şəkildə davam edir. Platformada maksimal illik neft hasilatı 2014-cü ildə qeydə alınıb. Həmin il burada 7,2 milyon ton neft çıxarılıb, gündəlik orta neft hasilatı 145,9 min barel təşkil edib. Ümumilikdə istismara verildiyi vaxtdan indiyədək "Dərinsulu Günəşli" platformasından 657 milyon barel və ya 89 milyon ton neft çıxarılıb.

AÇG-nin, o cümlədən "Dərinsulu Günəşli"nin salnaməsi yeni hadisələr, yeni uğurlarla zənginləşir. 2050-ci ilə qədər bu kontrakt qüvvədə olacaq. Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycanın neft-qaz resursları, eləcə də "Azəri-Çıraq-Günəşli" yataqlarından çıxarılacaq neft-qaz bundan sonra da uzun müddət ərzində Azərbaycan xalqına, dövlətinə xidmət göstərəcək.

AÇG-nin laylarındakı sabit təbii qaz (STQ) da məhz bunu təsdiqləyir. STQ-nin hasilatına bu il başlanması gözlənilir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***





# Vətən deyəndə...





● Qarabağ Azərbaycandır!

**Tariximizdə şərəf dolu qəhrəmanlıq səhifələri çox olub. Böyüməkdə olan nəsillər zaman-zaman bu səhifələri oxuyub igidliyi, cəsarəti öyrəniblər. Yeri gəldikcə qəhrəmanlıq yollarını davam etdiriblər, igidlikləri ilə yeni səhifələr yazıblar, onları gələcək nəsillərə çatdırıblar.**

## Tarixin dərsləri

İkinci Qarabağ müharibəsi də qəhrəmanlıq tariximizin şərəfli səhifələrindən biridir. Çünki bu müharibədə xalqımızın cəsur oğulları 30 ilə yaxın davam edən erməni qəsbinə son qoydular, işğalçıları diz çökdürərək Qarabağı və Şərqi Zəngəzuru işğaldan azad etdilər. Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə zabit və əsgərlərimiz gələcək nəsillərə nümunə olacaq qəhrəmanlıqlar, igidliklər göstərdilər.



Böyük Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində xalqımız yalnız böyük qəhrəmanlıqlara və bir-birindən maraqlı hadisələrə deyil, kövrəklikdən doğan epizodlara da şahidlik etdi. Xalqımız bu qəhrəmanlıqları və maraqlı, yaddaqalan hadisələri heç vaxt unutmayacaq.

### 6 yaşlı uşağın 28 ildən sonra evlərinə qəhrəman əsgər kimi qayıdışı

Haqqında qısaca söhbət açmaq istədiyimiz bu epizod olduqca kövrəkdir, könülləri telləndirəndir. Yəqin ki, belə hadisələr tarixdə gec-gec baş verir. 44 günlük Vətən müharibəsinin davam etdiyi, zəfər xəbərlərinin qapıları döydüyü günlərdə KİV-də gördüyümüz bir şəkil bizi xeyli heyrətləndirdi. Gənc bir zabit Cəbrayıldakı kəndlərinin həyətində, doğma ocaqlarında nar ağaclarının budaqlarını bağrına basaraq şəkil çəkdirmiş və paylaşmışdı.

Şəklin altındakı sözləri oxuyanda məlum oldu ki, zabitin 6 yaşı olanda ermənilər kəndlərini yandıraraq onları ata-baba ocaqlarından didərgin salıblar. 6 yaşlı uşaq düşmənə nifrət hissi ilə böyüyə-böyüyə hərbi təhsil alıb və 28 ildən sonra 34 yaşında şanlı Azərbaycan Ordusunun zabiti kimi döyüşə-döyüşə, vuruşa-vuruşa, düşmənləri diz çökdürə-çökdürə kəndlərini erməni işğalçılarından azad edib. Doğma ocaqlarına, ata-baba yurduna qalib hərbçi kimi qayıdıb. Hünəri və cəsarəti ilə 28 illik torpaq həsrətinə son qoyub. İndi sevinə-sevinə bir vaxtlar valideynlərinin əkdikləri nar ağaclarının yanında qürurla, qalib ordunun qalib zabiti kimi şəkil çəkdirib. Şəkillərdəki duruşu ilə ermənilərə meydan oxuyub.

Amma çoxları bilmir ki, arxada qalmış 28 il ərzində həmin zabitin həm özü, həm də yaxınları hansı ağrılar çəkmiş, hansı keşməkeşli günlər yaşamış, nələr düşünmüş, nələr fikirləşmişdilər? Valideynləri doğma ocaqlarından didərgin düşəndən sonra haralarda, hansı çadır şəhərciyində, hansı tələbə yataqxanasında məskunlaşmış, hansı ağrı-acılar çəkmişdilər. Amma o da var ki, harada, necə məskunlaşıb yaşasalar da, bir an olsun belə, doğma ocaqlarını unutmamışlar, ata-baba yurdlarını yaddan çıxarmamışlar. Həsrət və intizarla erməni işğalına son qoyulacağı, doğma ocaqlarına qayıdacaqları günü gözləmişdilər.

Ürəyi Vətən sevgisi ilə döyünən bu zabit böyüyəndə özünə hərbçi peşəsini seçmişdi. Kiçik yaşlarından Vətən üçün döyüşçü olacağına qərar vermişdi. Hərbçi olmuşdu ki, döyüş meydanlarına başqalarından bir addım yaxın olsun. Müharibə başlayan kimi silahından möhkəm yapışıb düşmən üstünə atılsın, doğma ocaqları uğrunda ön sıralarda vuruşsun. Erməni qəsbkarlarından şəhidlərin qisasını alsın.

6 yaşlı uşaq 28 il əvvəl torpaqlarından qaçqın düşərkən bəlkə də ermənənin topundan, tüfəngindən qorxmuşdu. Güllə səsləri eşidəndə valideynlərinin qucağına qısılmışdı. Amma 28 ildən sonra ermənidən qorxmadan, onlara qarşı cəsarətlə vuruşa-vuruşa, qan uddura-uddura doğma ocaqlarına qalib kimi dönmüşdü. İşğal olunmuş torpağını, ata-baba yurdunu işğalçılardan döyüşə-döyüşə azad etmişdi. Həm Vətən, həm də valideynləri qarşısındakı övladlıq borcunu şərəflə yerinə yetirmişdi. Nə yaxşı ki, Azərbaycan Ordusunun sıralarında belə fəxr ediləsi, qürur duyulası, düşmənə qan udduran oğullarımız çoxdur. Vətən belə oğulları ilə həmişə öyünəcək. Zabitin 28 ildən sonra həyətlərində çəkdirdiyi bu şəkil Vətən müharibəsindən kövrək bir xatirə kimi əbədi olaraq yaddaşlarda qalacaq.

### Serjikin sayıqlamaları

Qəhrəmanlıq tariximizə qızıl hərflərlə yazılmış İkinci Qarabağ müharibəsi başlamazdan bir müddət əvvəl Ermənistanın keçmiş prezidenti, Qarabağın işğal edilməsində iştirak etmiş, əli xocalılıların qanına batmış Serjik Ermənistanın hansısa institutunun, hansısa tələbələrinin qarşısında çıxış edərkən başından yekə danışaraq demişdi ki, Qarabağı azərbaycanlılardan biz aldıq, Qarsı da türklərdən siz alarsınız. Bu, əslində, Xocalı qatilinin gələcək daşnaklara qan qoxulu tapşırığı idi.

Yəqin ki, daşnakların gözü torpaqdan heç vaxt doymayacaq. Ermənilərdə bu mənfur xüsusiyyətə yaxından bələd olan görkəmli diplomat, yazıçı A.Qriboyedov hələ XIX əsrdə çara məktub yazaraq onu xəbərdar edirdi ki, İrandan köçürülən erməniləri qətiyyən Rusiyanın ərazilərində məskunlaşdırmayın, onlara torpaq verməyin. Çünki 50-60 ildən sonra ermənilər saxta sənədlərlə sübut etməyə çalışacaqlar ki, bu yerlər onların tarixi torpaqlarıdır. Deməli, ruslar erməniləri yaxşı tanıyırmışlar. Necə deyərlər, dabbağda gönlərinə bələd imişlər. Deyəsən, elə bu dünyada erməniləri yaxşı tanımayanlar təkcə bizlər olmuşuq. Amma gec də olsa, biz də bu daşnakların həm iç, həm də çöl üzlərini tanıdıq. Xislətlərinə yaxından bələd olduq, hansı yuvanın quşları, yaxud bayquşları olduqlarını yaxşı-yaxşı öyrəndik.

Yəqin ki, S.Sarkisyanın başı nə qədər məhkəmə-filan işlərinə qarışsa da, ölkəsinin 44 günlük Vətən müharibəsindəki utandırıcı, biabırçı, məhvedici məğlubiyyətindən xəbər tutdu. Qələbəsinə arxalandığı quldurların qüdrətli Azərbaycan Ordusu tərəfindən necə diz çökdürüldüyünü, məğlub olduğunu gördü. Görən kimi də utanmaz-utanmaz qəzetlərə müsahibə verərək dedi ki, sələfim, (yəni Paşinyan) mənim yolumla getmədi, əgər getsəydi, işlər belə alınmazdı. Allah kəssin Sarkisyanın özünü də, getdiyi yolu da. Çünki o yolda qan-qada var, işğal var, göz yaşı var, qaçqınlıq, köçkünlük və müharibə var.

İkinci Qarabağ müharibəsində qazanılan Zəfər nəticəsində Ermənistan ordusu darmadağın olundu, diz çökdürüldü, xeyli canlı qüvvə və döyüş texnikasını itirdi. Düşmən üzərində tarixi qələbənin qazanılmasında gənclər böyük igidlik və qəhrəmanlıq göstərdilər. Onların göstərdiyi igidlik və şücaət qəhrəmanlıq tariximizə böyük hərflərlə yazıldı. Gələcək nəsillər tariximizin bu şərəfli səhifəsini tez-tez vərəqləyəcək, igidliyi, qəhrəmanlığı cəsur oğullarımızdan öyrənəcəklər.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Ölməzliyə qovuşanlar

## Torpağı qanı bahasına Vətən etdi

**44 günlük haqq savaşımızda şəhidlik zirvəsinə ucalan Əliqismət Yaqublunun adı çəkiləndə dağlar diyarı Lerikdə kiçik də, böyük də qürur hissi keçirir. Bu Vətən sevdalısı şərəfli ölümü ilə ürəklərdə özünə əzəmətli abidə ucaldıb. Odur ki, heç vaxt unudulmur, hər an ehtiramla xatırlanır.**

Şəhidlik zirvəsindən gələcəyə boylanan Xüsusi Təyinatlı Qüvvələrin zabiti, şəhid baş leytenant Əliqismət Yaqublunun 34 yaşı tamam oldu. Doğum günü ilə bağlı Lerik Rayon Mədəniyyət Mərkəzində tədbir keçirildi. Rayon rəhbərliyinin, idarə və müəssisələrin əməkdaşlarının, ziyalıların, şəhid ailələrinin, eləcə də şəhər sakinlərinin iştirak etdikləri tədbirdə əvvəlcə şəhidlərin xatirəsi birdəqiqəlik sükutla anıldı.



Çıxış edənlər şəhidin döyüş yolu haqqında danışaraq bildirdilər ki, 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində Əliqismət Yaqublu Xüsusi Təyinatlı Qüvvələrin zabiti kimi ön cəbhəyə yollanıb. O, Murovdağ yüksəkliyi, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın istiqamətlərində gedən döyüşlərdə xüsusi qəhrəmanlıq göstərib. Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə düşmənin çox sayda canlı qüvvəsini məhv edib. 2020-ci il noyabrın 5-də Daşaltı kəndində qəhrəmancasına şəhid olub. O, ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Şücaətə görə" medallarına layiq görülüb.

Şəhidin xatirəsinə həsr olunmuş tədbirdə məktəblilər Vətənimizə və şəhidlərə həsr olunan şeirlər söylədilər, musiqiçilər vətənpərvərlik haqqında mahnılar oxudular.

İştirakçılar şəhidin ailə üzvlərinə dərin hörmət və minnətdarlığını söyləməklə canından keçərək torpağı qanı bahasına Vətən edən qəhrəmanların xatirəsinin hər zaman qəlblərdə yaşayacağını vurğuladılar.

Yekunda şəhidin atası çıxış edərək tədbir iştirakçılarına minnətdarlığını bildirdi.

*Zəfər ORUCOĞLU*

● Tarix yazan oğullar

## Yurda dayaq, elə arxa

**Oğullar bütün zamanlarda yurda, el-obaya düşmən çəpəri olublar. Vətən torpaqlarının işğalı üçün təhlükə yarananda silaha sarılaraq cəsarətlə, qələbə əzmi ilə döyüşlərə atılıblar. Qəsbkarlara qarşı ciddi müqavimət göstərə-göstərə, qoynunda dünyaya göz açdıqları yurdu göz bəbəkləri kimi qoruyublar. Düşmən hücumları nə qədər güclü, təhlükəli olsa da, bir addım da geri çəkilməyiblər. Sonadək vuruşaraq böyük hünər və qəhrəmanlıqlar göstəriblər. Cəsarət və hünərləri ilə adlarını qəhrəmanlıq tariximizin səhifələrinə yazıblar.**



1980-ci illərin sonlarında erməni işğalçıları əbədi-əzəli Azərbaycan torpaqları olan Qarabağa, Ermənistanla sərhəd olan şəhər və kəndlərimizə hücum edəndə Vətən təəssübü çəkən bu cür oğullar silaha sarılaraq torpaqlarımızın müdafiəsinə qalxdılar. Getdikcə gərgin xarakter alan döyüşlərdə cəsarətlə, hünərlə vuruşaraq erməni işğalçılarına qarşı müqavimət göstərdilər, bu torpağın, bu yurdun sahibi olduqlarını dünyaya nümayiş etdirdilər. Hünərləri, qəhrəmanlıqları ilə özlərindən sonra xalqımıza qürur duyulası bir tarix qoydular.

Deyirlər ki, müharibələr itkisiz olmur. Qarabağ uğrunda gedən döyüşlər də xalqımız üçün itkisiz ötüşmədi. Ürəyində Vətən eşqi yurdun müdafiəsinə qalxmış cəsur oğullardan biri olan Siyavuş Əli oğlu Məmmədov da döyüşlərin birində düşmən gülləsinə tuş gəldi. Müdafiəsinə qalxdığı torpaqlarımızın azadlığı naminə canından keçdi. Ölümü ilə yurdumuza göz dikmiş düşmənlərə meydan oxudu.

Siyavuş Məmmədov döyüşə yollanana qədər sadə bir ömür yaşayıb. O, 1972-ci ildə Zəngilanın Havalı kəndində anadan olub. Onun dünyaya gəlişi ailəyə böyük sevinc gətirib. Siyavuş məktəbdə nizam-intizamlı şagirdlərdən olub. 1989-cu ildə Havalı kənd orta məktəbini bitirərək ürəyində dolub-daşan arzularla Bakıya üz tutub. 14 nömrəli texniki peşə məktəbində qaynaqçı ixtisasına yiyələnib. Peşə məktəbində təhsilini başa vurduqdan sonra əsgəri xidmət keçmək üçün sovet ordusunun sıralarına çağırılıb.

Hərbi xidmətini başa vurduqdan sonra Siyavuş doğmalarının yanına qayıdıb. Tanrıdan qismətinə düşən ömrü yaşayıb, gələcək həyatını qurmağa başlayıb. Amma erməni işğalçılarının Qarabağda başladıqları müharibə başqaları kimi, onun da planlarını pozub. 1994-cü il fevral ayının əvvəllərində yenicə yaranmağa başlayan Azərbaycan Ordusunun sıralarına çağırılıb. Həmin günlərdə torpaqlarımızın azadlığı uğrunda qanlı döyüşlər gedirdi. Siyavuş da Vətənin cəsur bir övladı kimi torpaqlarımızın müdafiəsinə tələsib. Fevral ayının 8-də onun xidmət etdiyi bölük Murovdağ istiqamətində döyüşlərə göndərilib. Təyin olunan məntəqəyə çatan kimi onlar döyüşlərə atılıblar.

Amma tale ona başqa ömür hazırlamışdı. Mart ayının 7-də cəsur əsgər Siyavuş Məmmədovun döyüşlər zamanı itkin düşdüyü barədə doğmalarına məlumat gəldi. Bu qəfil və gözlənilməz xəbər onun əzizlərini sarsıtsa da, onlar övladlarının itkin düşdüklərinə inanmadılar. Axı Siyavuş cəsur əsgər idi. Belə igid izsiz, soraqsız itkin düşə bilməzdi. Təəssüflər olsun ki, valideynlərinin müraciətinə Müdafiə Nazirliyinin arxivindən verilən cavabda onun itkin düşməsi təsdiqləndi. 2002-ci ilin dekabrında isə Siyavuş Məmmədova şəhidlik statusu verildi.

Bu cəsur Vətən oğlunun itkin düşdüyü rəsmi olaraq öz təsdiqini tapsa da, doğmalarının gözləri yollardan yığılmırdı. 30 il idi ki, valideynləri onun qayıdıb gələcəyini gözləyirdilər. Ümid edirdilər ki, günlərin birində arzularına, istəklərinə çatacaqlar, həsrətə son qoyulacaq. Amma təəssüflər olsun ki, doğmalarının arzuları çin olmadı. 30 ildən sonra şəhid Siyavuş Əli oğlu Məmmədovun nəşi tapılaraq Sumqayıta gətirildi.

Valideynlərinə verilən məlumatdan məlum olmuşdur ki, əsgər Siyavuş Məmmədov 24 fevral 1994-cü ildə Murovdağ istiqamətində gedən ağır döyüşlərdə şəhid olub. Amma üzü tanınmaz vəziyyətdə olduğuna görə kimliyini müəyyənləşdirmək mümkün olmayıb. Buna görə də onu Gəncədəki Şəhidlər xiyabanında naməlum əsgər kimi dəfn ediblər.

Doğmalarından götürülən DNT analizlərinin nəticəsindən məlum olmuşdur ki, 30 il əvvəl Gəncə şəhərindəki Şəhidlər xiyabanında naməlum əsgər kimi dəfn olunan Siyavuş Məmmədovdur.

21 may 2024-cü ildə şəhid Siyavuş Məmmədovla vida mərasimi keçirildi. Yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş Siyavuş Məmmədovun nəşi Müdafiə Nazirliyinin hərbi orkestrinin müşayiəti ilə yaylım atəşi altında torpağa tapşırıldı. Şəhidin tabutunun büküldüyü Azərbaycan bayrağı qardaşı Əbdül Məmmədova təqdim olundu.

Xalqımız torpaqlarımızın azadlığı uğrunda gedən qanlı döyüşlərdə şəhid olmuş Siyavuş Məmmədov kimi vətənpərvər hərbçilərin igidliyini heç vaxt unutmayacaq. Gələcək nəsillər qəhrəmanlığı Siyavuş kimi yurda dayaq, elə arxa olan cəsur oğullardan öyrənəcəklər.

*V.MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları "Heydər Əliyev-2026" birgə təlimində yüksək peşəkarlıq nümayiş etdiriblər

**Azərbaycan ilə Türkiyə arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə uyğun olaraq, Türkiyənin Qars şəhərində keçirilən "Heydər Əliyev-2026" birgə təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü" keçirilib.**

Tədbirdə Əlahiddə Ümumqoşun Ordunun bir qrup hərbi qulluqçusu və Azərbaycan Respublikasının Türkiyədəki hərbi attaşelik aparatının nümayəndələri iştirak ediblər.



Əvvəlcə hərbi təyinatlı müasir silah və döyüş texnikaları, həmçinin ərazidə bölmələrin yerləşməsi və mərhələlər üzrə icra olunacaq fəaliyyətlər haqqında məlumat verilib.

Planla tanışlıqdan sonra qonaqlar komanda məntəqəsində təlimin gedişatını izləyiblər.

Təlim poliqonunda cəlb olunan iştirakçılar tərəfindən müxtəlif epizodlar praktiki icra olunub.

Sonda təlimdə fərqlənən hərbi qulluqçular həvəsləndirilib və xatirə şəkli çəkdirilib.

## Türkiyəli qonaqlar işğaldan azad edilmiş ərazilərdə olublar

**Türkiyənin Milli Müdafiə Universitetinin (MMU) rektor müavini professor Talat Canbolatın rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri davam edir.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, səfər çərçivəsində türkiyəli qonaqlar işğaldan azad edilmiş ərazilərdə olub, bir sıra tarixi abidələri ziyarət ediblər. Nümayəndə heyətinə Ermənistan silahlı qüvvələri tərəfindən xalqımıza qarşı törədilən vandalizmin nəticələri və dağıntılar, eləcə də Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq və yenidənqurma işləri haqqında ətraflı məlumat verilib. Həmçinin hərbi qulluqçular 44 günlük Vətən müharibəsi və digər uğurlu əməliyyatlarla bağlı xatirələrini bölüşüblər.



"N" hərbi hissəsini ziyarət edən Türkiyənin nümayəndə heyəti burada yaradılan şəraitlə tanış olub. Qonaqlara torpaqlarımızın azadlığı və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak edən bölmələrin döyüş yolu haqqında geniş məlumat verilib. Sonda qarşılıqlı hədiyyələr təqdim olunub.

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 27 iyun (Cümə günü) tarixli 213-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası




# AZƏRBAYCAN

Cümə, 28 ramazanül-mübarək sənə 1337.
27 həziran 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 30 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.


### BAKI TİCARƏT VƏ SƏNAYE İTTİFAQI

Düyü, səbzə, pambıq və neft istehsalatı [neft məhsulları], ticarət və qeyriləri ilə maraqlananları cümə günü həziran ayının 27-sində axşam saat 5-də Birjanın salonunda (Qorçakovski, nömrə 1) vaqe olacaq iclasa dəvət edir. Ticarət, Sənaye və Ərzaq nazirinin binagüzarlığına binaən [sərəncamına əsasən] həll ediləcək məsələlər:

1) Kuban ilə mal dəyişilməsi barəsində;

2) Padşahlıq [dövlət] pullarının kursu artması barəsində.

*T-156*

Bakı Şəhər İdarəsi elan edir ki, təmmuz [iyul] ayının 1-də, səhər saat 11-də, Mixaylovski bağda (Krasnokrestovski və Nikolayevski küçələrin küncündə) olan kioskanı icarəyə verməkdən ötrü Təsərrüfat şöbəsi dəftərxanasında torq [hərrac] olacaqdır. Təfsilatı Təsərrüfat şöbəsi dəftərxanasında oxumaq olar.

*T-159*

Bakı Şəhər İdarəsi bununla elan edir ki, təmmuz ayının 5-də, səhər saat 11-də, Təsərrüfat şöbəsi dəftərxanasında şəhər kioskalarını icarəyə verməkdən ötrü torq olacaqdır. Kioskaların [yerləri]:

1) Bulvarda körpü ilə qarşı;

2) Bulvarda kupalnı [dəniz hamamı] ilə qarşı;

3) Azadlıq meydanında (Bolşoy Morskoy və Birjevoy meydanının küncündə).

Təfsilatı Təsərrüfat şöbəsi dəftərxanasında oxumaq olar.

*T-158*

Hökumət Teatrosunda
axşam tamaşası
**OPERETTA**
Zülfüqar bəy və Üzeyir bəy
Hacıbəyli müdiriyyəti
Cümə günü ramazanül-mübarək
ayının 28-də 1337 sənəsi
(iyun ayının 27-də 1919-cu ildə) şükuhlu [təntənəli] bir surətdə
mövqeyi-tamaşaya qoyulacaqdır
Üzeyir bəyin
**"Arşın mal alan"** operettası
Soltan bəy – Ələkbər Hüseynzadə, Əsgər – Sarabski,
Vəli – Rza Darablı.
Biletlər teatrın kassasında satılmaqdadır.
Tamaşa başlanacaq
iftardan sonra.

**MÜSƏLMAN ZİYALILAR İTTİFAQINDA**

Cümə günü həziran ayının 27-də, axşam saat 8-də Müsəlman Ziyalılar İttifaqının idarəsində (Voznesenski nömrə 3) səhiyyə kursu açılacaqdır. Yazılanlardan və xahiş edənlərdən rica olunur ki, təyin olunmuş vaxtda idarəyə təşrif gətirsinlər.

*10255*

### MƏŞİXƏTDƏN

"Yə eyyühəlləzinə amənu in tənsurullahə yənsurkum və yusəbbit əqdaməkum". Sureyi-"Muhəmməd".

"Ey möminlər! Əgər siz Allaha nüsrət [kömək] edərsəniz, o da sizə nüsrət [zəfər] bəxş edər və müharibə meydanında sizin qədəmlərinizi sabit qılar." Allaha nüsrət – Quranı, islamiyyəti müdafiə üçün həyatını, övladını, malını, bütün mövcudiyyətini fəda etməkdir. Hər kəs canını fəda etsə, bütün cənnət həyatını qazanar və əbədi nemətə nail olar.

*Aşiq oldur kim, fəda canın qılar cananına,*
*Meyli-canan etməsin ol kim ki, qıymaz canına.*

Biləks [əksinə], hər gün gözümüzün bərabərində hüdus edən məsaibi-dəhridən [meydana gələn dünya fəlakətlərindən] ibrət almayanlar düşmənin qurşunu [gülləsi] ilə gələcək ölümdən qorxaraq övladını əsgər verməyib, məmləkəti ə'dayidin və vətənə [vətən və din düşmənlərinə] təslim etmək xəyalında olanlar və öz vücuduna və şərəfinə məbada bir asib [bəla] və ihanət yetişsin deyə camaat işlərindən mütləq özlərini kənara çəkənlər dünyada ən müdhiş bir ölümlə öləcəkləri kimi, Pərvərdigari-aləmiyan [aləmləri bəsləyən və yetişdirən Allah] hüzurunda böylə əməlləri cəhətə rəzil və rüsvay olaraq ən böyük cəzaya giriftar olacaqlar.

"Qul innəlmevtəlləzi təfirrunə minhu fəinnəhu mülaqikum." Sureyi-"Cümə".

"Ya Məhəmməd! Onlara de ki, fərar etdiniz ölümdən, hərgiz xilas olası deyilsiniz, zira ölüm sizi əlbəttə mülaqat edəcəkdir [tapacaq, görəcək, sizinlə görüşəcək]." (Ölümdən qaçsan da, o, səni təqib edəsidir.)

*Negəhdar forsət ke aləm dəmist*
*Dəmi biş dana beh əz aləmist*

Məgər dünyada bir millətin namusu, istiqlalı, şəxsiyyəti-mənəviyyəsi pərişan olmaq qədər bir ölüm təsəvvür olunarmı?

Namus[u], istiqlalı məhv olduqdan sonra yaşamaqdansa, ölmək daha layiqdir. Həyati-həqiqiyyə ancaq düşmənin təcavüzündən məhfuz olan həyati-milliyyədir. [Həqiqi həyat ancaq düşmən təcavüzündən qorunmuş milli həyatdır.] Buna binaən [buna görə], həqiqətən yaşamaq istəyənlər həyati-milliyyələrini mühafizə üçün həyati-şəxsiyyələrini istehqar edərlər [heçə sayarlar] (necə ki, əshabi-kiram və əimmeyi-əthar [böyük səhabələr və pak imamlar] böylə yaşadılar və böylə də həyati-əbədiyyə qazandılar) və onun yolunda malını, övladını, həyatını fəda etməkdən çəkinməzlər.

Qardaşlar, huşyar [ayıq-sayıq] olun! Düşmən əvvəla məmləkəti məhv etməyə çalışır, bir kərə bu məqsədə nail olduqdan sonra, tədricən "dini" də ayaqlar altına alacağı şübhəsizdir. Buna görə, mərdanəliklə müdafiə üçün hazırlaşmaq lazımdır və belədə Denikinlər fasid [pozğun] olan niyyətindən nadim [peşman] olub fərara məcbur olacaqdır. Çünki, "Kolux əndazra padaşe səng əst", necə ki, böylə də oldu. Zira, Azərbaycan hökumətinin səbat və qərarını hiss etdiyindən sonra arzusu qəlbində qalıb, izhar etməyə də iqtidarı olmadı.

İştə, Azərbaycan hökumətini mühafizə etməkdə qövlən və feilən [sözlə və əməllə] ciddü-cəhd etməliyiz və bu təklif bütün əfradi-millətə [millətin bütün fərdlərinə] fərz və vacibdir. Və bu babdakı fərziyyəti [bunun fərz, lazım, vacib olduğunu] hər kəsdən əvvəl üləma [alimlər] bilir. Və indəllah [Allah yanında], indənnas [insanlar yanında] hər kəsdən əvvəl onlar məsuldur. Çünki vəzifeyi-təbliğ [təbliğat işi] onlara aid olduğu kimi, əlbəttə pişva olmaq [rəhbərlik etmək, başçı olmaq] da onların vəzifeyi-mühimməsidir.

Bihəmdülillah [Allaha şükür olsun], üləmayi-kiram [böyük alimlər] bu mətləbə kəmayənbəqi mültəfit olub da [lazımi dərəcədə əhəmiyyət verib də] bu əyyami-mütəbərrikədə [bu mübarək günlərdə], hər gün mənabirdə [minbərlərdə], ayat və əhadis mövcibincə [Quran ayələrinə və Peyğəmbər hədislərinə uyğun olaraq] xalqa təbliğatda bulunurlar və böyük əsər və fayda dəxi verir. Məəttəəssüf [təəssüf ki], camaatın əksəri məsaciddən rugərdan olub [məscidlərdən üz çevirib] ticarətə məşğul olmaqla məvaizibəliğəni istema etməkdən [bəlağətli moizələrə qulaq asmaqdan] məhrumdurlar.

"Qul ma indəllahi xeyrun minəlləhvi və minətticarəti vəllahu xeyrur-razi-qin." Sureyi-"Cümə".

"Ya Məhəmməd! O[n]lara de ki, Allahtaala yanında olan əcr və cəza məşğul olduğunuz bica [boş, faydasız] işlərdən və hətta ticarətdən də yaxşıraqdır. Allahtaala ruzi verənlərin xeyirlisidir."

*Hər şəb əz əfğane mən bidar xəlq əmma çe sud*
*Anke bayəd naleyi mən beşnəvəd bidar nist*

Camaat! Bəsdir yatdınız, qəflət uyqusundan oyanıb keçmiş əsarət günlərinizi yada salınız və sonra indiki hürriyyət və istiqlaliyyət aləmi ilə bir müvazinə ediniz.

"Zərəbəllahu məsələn əbdən məmlukən lə yəqdiru əla şeyin və mən rəzəqnahu minna rizqən həsənən fəhuvə yunfiqu minhu sirrən vəcəhraən həl yəstəvunəl-həmdulillahi bəl əksəruhum lə yaləmunə". Sureyi-"ən-Nəhl".

"Allahtaala məsəl [v]urur: bir şeyə malik olmayan əbdi-məmluk [başqasının malı olan qul] ilə bizdən ona gözəl ruzi verilib, əvvəl dəxi gizli və aşkar ol malı infaq edən [xərcləyən, başqaları üçün xərcləyən] sahibi-iqtidar bərabər olarmı?! Həmdin [şükürün] təmamisi Allahtaalaya məxsusdur, lakin xalqın əksəri onu bilməzlər."

Pəs [elə isə], madam ki, əsarətlə hürriyyət aləminə fərq verib, hürriyyət və istiqlaliyyətin nə dərəcədə böyük səadət olmağını düşündünüz, dəxi mürgüləməyi buraxıb zövq, şövq və hümməti-tamam ilə Azərbaycan hökumətini himayə etməklə çalışınız. Zira, "İnnallahə lə yuqəyyiru ma biqövmin hətta yuqəyyiru ma bianfüsihim". Sureyi "Ərrəd". "Allahtaala afiyət [sağlamlıq] və nemətdə olan bir camaatın nemətini təğəyyür etməz [dəyişdirməz], ta o camaat nəfsindəki əhvali-cəmiləni [gözəl halları] fəna və şayəstə olmayan [çirkin] əxlaqa təğəyyür və təbdil etməyincə [dəyişdirməyincə]."

İştə böylə neməti-qeyri-mütərəqqəbə [gözlənilməz bir nemət] olan hökuməti-islamiyyə qədir və qiymətini bilməzsək, əl-iyazibillah [Allah eləməsin], əlimizdən gedər və o surətdə gələcək nəsillərimiz ilələbəd [sonsuzadək] bizlərə lənət oxumaqları mühəqqəq [şübhəsiz] və lənətlər də bizlərə şamil olasıdır.

Oyanınız, yoxsa dünya və axirət rüsvalığına düçar olmağızda şübhə yoxdur.

*Xab bəs ey xüftə, şəb bəsər-aməd,*
*Xiz ki, sübhəst, afitab bər-aməd.*

*Azərbaycan Cümhuriyyətinin şeyxülislamı*
*Axund Ağa Ağaəlizadə*

### TELEQRAF XƏBƏRLƏRİ

**Müharibə bitdi**

Bakıdakı ingilis ərkani-hərbinə [qərargahına] simsiz teleqrafla xəbər verirlər ki, Almaniya heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] Müttəfiqlərin sülh şəraitini qəbul ilə sülh müahidənaməsini [müqaviləsini] imza etmişdir. Bu münasibətlə mötəlif məmləkətlərdə [Antanta ölkələrində] böyük şadlıqdır. İngiltərədə üç gün bayram edirlər. Məhəlli [yerli] İngiltərə Komandanlığı Bakıda da bayram tərtib vermək fikrindədir.

Tiflis - İngilis ordusu ərkani-hərb naçalniki polkovnik Sanders İrana əzimət edir [yola düşür].

- Zaqafqaziyaya 75 min nəfər İtaliya qoşunu gəlir.

Lion - Romadan buraya xəbər verildiyinə görə, Orlando Kabinəsi istefa vermişdir.

- Son məlumata görə, Almaniya Kabinəsi istefa vermişdir.

### SÜLH ƏTRAFINDA

London - İngiltərə hökuməti özünün Türkiyə siyasətini dəyişdirmişdir. İngiltərə Asiya cəhətində bulunan yerlərin Türkiyəyə verilməsinə razıdır. Fransa İngiltərənin bu siyasətinə tərəfdardır və ümid edir ki, bu yol ilə Türkiyədə siyasi və mali [maliyyə] nüfuza malik olacaqdır.

**Serbiya və Yunanıstan**

İyunun 23-də Liondan xəbər verirlər ki, Sülh Konfransı Serbiya ilə Yunanıstanın Sülh Konfransına çağırılacağı məsələsini müzakirə edib, sülh müahidənaməsinin [sazişinin] Almaniya tərəfindən imza edilməsini gözləməyi qərara almışdır.

**Sülh Konfransında xırda millətlər**

İyunun 23-də Liondan xəbər verirlər ki, Müttəfiqlər arasında nifaq davam etdikcə, hamı xırda millətlər beş müəzzəm [böyük] dövlət əleyhinə olaraq birləşirlər. Bratianu başda olmaq üzrə bu ittihadın [birliyin] məqsədi odur ki, Yunanıstan, Polşa, Romaniya, Serbiya və Gürcüstan Sülh Konfransından qətiəlaqə edib [əlaqəni kəsib], beş müəzzəm dövlət əleyhinə blok təşkil etsinlər. Hərgah, onlara müəyyən pay verilməsi lazım olduğu təqdirdə Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] əleyhinə olsunlar. Venizelos olmasaydı, bu müttəhid [birgə] çıxış üç həftə bundan əvvəl ola bilərdi. Ancaq Venizelos bir qədər müddət gözlənilməsini tələb etmişdir. İtaliyanın Cənubi Slav əleyhinə çıxışı nəticəsi olaraq böhran yaxınlaşmaqdadır.

### XƏZƏR DƏRYASINDA BOLŞEVİKLƏRİN HƏRBİ QÜVVƏSİ

Xəzər dəryasında olan bolşevik qüvvəsi barəsində zeyldəki [aşağıdakı] müfəssəl məlumat verilir:

"1-ci ranqa kruvazeri" adlanılan böyük gəmiləri sabiq "Okean" paroxodudur ki, "Üçüncü İnternasional" namı [adı] verilmişdir. Bu gəmidə 4 ədəd 125 millimetrlik top, bir ədəd 47 millimetrlik və 1 zenitni top vardır. Sabiq "Bambaq" paroxoduna şimdi "İliç" namı verilmiş. Bunda 4 ədəd 100 millimetrlik və 1 ədəd zenitni top vardır. Sabiq "Kolumna", şimdi "Krasnaya znamya" paroxodunda 3 ədəd 100 millimetrlik, 1 ədəd 47 millimetrlik və 1 zenitni top vardır.

2-ci ranqa 2 kruvazer vardır. Sabiq "1-ci Makarov" paroxodu "Proletariya" namına çevrilərək 2 ədəd 100 millimetrlik və 2 pulemyot vardır. Baltik dənizində olan "Demosfen" paroxodu Fort-Aleksandvskda qərq edilmişdir.

2 turbalı [turbinli] eskadron minonos sabiq "Əmiri-Buxara" paroxodu "Yakov Sverdlov", sabiq "Fin" paroxodu "Karl Libknext" namına çevrilib, bunların hər birində 3 ədəd mina aparatı, birər zenitni top vardır. Bunların da birisi Fort-Aleksandrovskda qərq edilmişdir.

6 ədəd də 4 turbalı torpedoları vardır. Bunların hər birisində 2 mina aparatı vardır. Bunların da 3-ü Hacı-Tərxanda [Həştərxanda] təmir edilir.

Bunlardan əlavə, bolşeviklərin "Makrel" və "Pinyuqa" adında 2 sualtı qayıqları vardır. Bunların birisi də xarab olmuşdur. 3-cü sualtı qayığı hal-hazırda Saratov yanındadır.

12 ədəd Baltik dənizində[n] gətirilmiş müxrib gəmilər [destroyer] vardır. Hər birində 1 ədəd 47 millimetrlik bir zenitni top, 2 də pulemyot vardır.

"Kaspi" lodkasında 100 millimetrlik iki top vardır.

8 ədəd xırda barkaslar vardır ki, bunlar 75 millimetrlik toplarla təchiz edilmişdir.

Sualtı qayıqlarının üssülhərəkəsi [bazası] sabiq "Tsareviç Nikolay" paroxodudur ki, Fort-Aleksndrovsk altında məhv edilmişdir.

Müxrib gəmilərin üssülhərəkəsi "Tamara" paroxodudur. Hidroplanların üssülhərəkəsi isə sabiq "Ağasəlim" – "Roza Lüksemburq" paroxodudur.

Bundan əlavə, flot komandanının ştabası və iki batareya barjı [yük gəmisi] vardır.

O ki qaldı dəniz aeroplanına, bolşeviklərin bir neçə hidroplanları vardır ki, çox az teyr edirlər [uçurlar].

### VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Maliyyə nazirinin Dövləti Bank [Dövlət Bankı] nizamnaməsi əlavəsi haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Məruzə təsviblə [bəyənilməklə], təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

- Maliyyə nazirinin, Maliyyə Nəzarətinin Gürcüstanda güşad edilən [açılan] acentəliyinə bu vaxtadək siyasi nümayəndə hesabati-cariyyəsində olan məbləği verilməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Maliyyə nazirinə tapşırılsın ki, Tiflisdəki Dövləti Banka bundan sonra hesabati-cariyyə üzrə fəqət Gürcüstandakı siyasi nümayəndə, Maliyyə Nəzarəti acentəsi və hesabdarının imzası ilə para buraxacağını elam etsin [bildirsin].

- Maarif nazirinin türk lisanında kitablar təlif edəcək [yazacaq] komisyon üçün 20 milyonluq fonddan 152.000 buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

20 milyonluq fonddan həman Təlifat Komisyonu məxaricatı üçün 152.000 rublə buraxılsın.

- Hərbiyyə nazirinin Məhəmməd Nağı oğlu, Əjdər Əbdürrəhim oğlu nam [adlı] əsgərlərə maddi müavinətdə bulunmaq haqqındakı məruzəsindən sonra qət edilmişdir:

20 milyonluq fonddan məzkur [adı çəkilən] əsgərlərə birdəfəlik verilmək üçün 5000 rublə buraxılsın ki, hər əsgərə 2500 rublə verilsin.

- Maliyyə nazirinin Bakı Xəzinəsinin xidmətçilərini müvəqqəti artırmaq haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Maliyyə nazirinə müvəqqəti olaraq Bakı Xəzinəsi xidmətçilərini artırmaq tapşırılsın. Bundan ötrü də 2 milyonluq fonddan 16.302 rublə 94 qəpik buraxılsın.

### NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Maarif Nəzarəti sair nəzarətlərə müraciətən məlum etmişdir ki, hökumətin mürəvvici-əfkarı [fikirlərini yayan orqanı] türkcə "Azərbaycan" qəzetəsi olduğu üçün nəzarət müəssisələri və məmurin [məmurlar] onun intişarı [nəşr edilməsi, yayılması] üçün həman qəzetəyə abunə yazdırmaq barəsində lazımi binagüzarlıqda bulunulsun [göstəriş verilsin].

Məsai [Əmək] naziri bütün təhti-ixtiyarındakı [tabeçiliyindəki] müəssisə və məmurlara xəbər vermişdir ki, türkcə "Azərbaycan" qəzetəsi yazdırmalıdırlar.

- Pokrovka, Nikolayevka və digər kəndlərin əhalisi Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] müraciətən rica etmişdir ki, öz ərazi hissələrindən istifadə etmək üçün onlara şəhadətnamə verilsin. Ümuri-Xeyriyyə və Nafiə nəzarəti Ərazi Nəzarəti nəzdində bu barədə təşəbbüsatda bulunmuşdur.

- Vükəla Şurasının [Nazirlər Kabinetinin] 16 iyundakı iclasında qət edilmişdir ki, Daxiliyyə və Hərbiyyə Nəzarətləri etilafı [razılığı] ilə Morul kəndindən üşr toplanmış 624 pud buğda, 300 pud arpa o kəndin füqəra əhalisinə paylamaq üçün Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə təhvil verilsin. Bu barədə nahiyə müfəttişinə məlumat verilmişdir.

- Quba qəzasının Şabran köyünün Dağıstan, Kuban və Terek nahiyələrində yaşayan 21 külfət[i] Ümuri-Xeyriyyə və Nafiə Nəzarətindən öz yerlərinə köçməyə müsaidə [icazə] istəmişlərdir.

Ümuri-Xeyriyyə və Nafiə Şurasında onlara müsaidə verilmək haqqında təşəbbüsatda bulun[ul]muşdur.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti təhti-ixtiyarında [tabeçiliyində] hal-hazırda başqa-başqa millətlərə mənsub 700-dən ziyadə ətfal [uşaq] olmaq üzrə bir qaç darüleytam [yetimxana] mövcuddur ki, uşaqlar üçün əlbisəlik 7000 arşınmalı lazım gəlir. Hal-hazırda bu qədər mal almaq üçün 500 min rublə lazımdır. Binaənileyh [ona görə], Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Vükəla Şurası [Nazirlər Kabineti] nəzdində malın və yaxud məbləğin təxsisi [ayrılması] haqqında təşəbbüsatda bulunmuşdur.

- Şamaxını təcdid[ə] [bərpa etməyə] Beynəlidarə Komisyona [İdarələrarası Komissiyaya] Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti tərəfindən məşhur mühəndis Abramoviç dəvət edilmişdir. Həman komisyonun əzası [üzvü] ən yaxın zamanda bir çox işlərdən ötrü Şamaxıya azim olacaqdır [yola düşəcək].

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Vükəla Şurasına müraciətən məlum etmişdir ki, qaçqınlar məsələsini nizama salmaqdan ötrü təcili surətdə qaçqınlara toxum və ziraət, fəllahət [əkinçilik, kənd təsərrüfatı] alətləri verilməlidir. Bundan ötrü 1 milyon 500 min rublədən az olmamaq şərti ilə bir məbləğ təxsis edilməlidir. Buğda, taxıl bitdikdən sonra qaytarılmalıdır. Makinalar isə siyahı üzrə saxlanılmalıdır.

- Məsai Nəzarəti [Əmək Nazirliyi] bütün müəssisələrə məlum etmişdir ki, 13 iyun nümayişlərində iştirak etmiş fəhlələrin günü üzrü hesab olunaraq maaşları verilməlidir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Şamaxı Nahiyə müfəttişinə müraciətən rica etmişdir ki, təcili surətdə Şamaxı qəzası və Şamaxı şəhərinin əhalisinin əhvalını yaxşılaşdırmaqdan ötrü öz nəzəriyyatını xəbər versin. Bununla bərabər, oradakı darüleytam [yetimxana], iaşə məntəqələrinə dair məlumat versin.

- Şamaxı qəzası qaçqınlar müvəkkili Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə məlum etmişdir ki, Naftluqi mövqifində [stansiyasında] Şamaxı qəzası qaçqınlarından 700-dək adam toplanmışdır ki, icazələri olmadığından cümhuriyyət daxilinə gələmməyirlər. Bunlar öz əvvəlki yerlərinə qayıtdıqları üçün yerli əhaliyə heç ziyanları olmayacaqdır. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti bu barədə Rəisi-vükəla nəzdində təşəbbüsatda bulunmuşdur.

### MÜLKİYYƏ MÜFƏTTİŞLİYİ

Rusiya istibdad idarəsi zamanında nəzarət [nazirlik] məmurlarının cümləsi üzərində yaxşı-yaman "revizor", "inspektor" adları ilə birər təftişçi vardı.

Bunlar məmurların rəftar və hərəkətləri ilə gördükləri işlərin qanuna müvafiq olub-olmadıqlarını daima təhti-nəzarətdə [nəzarət altında] bulundururlardı. Prokurorlar (müddəiyi-ümumilər) təqsirləndirdiyi məmurları işdən kənar və ya həbs edirlərdi. Bu kənar və həbsdən heç bir məmur qurtula bilməzdi. Heç bir elm, heç bir ixtisas, heç bir fəzilət sahibini istisna edəmməzdi. Ən kiçik müəllimdən, əczaçıdan, müstəntiqdən ən böyük professor, həkim və advokata varıncaya qədər hər kəs bu ümumi qanuna itaət edirdi.

Əvət, böyük-kiçik, alim-cahil hər kəs prokurorun – bu "ədalət" məmurunun qərarı qarşısında baş əyirdi. Hər kəs məmuriyyəti başında bəlli-başlı birər "münkir-nəkir" durduğunu hiss edirdi. Lakin...

Lakin bir cür məmuriyyət vardı ki, o, hər dürlü sorğu-sual zəhmətindən, münkir-nəkir dərdindən azad idi. İştə o, Daxiliyyə Nəzarəti məmuriyyəti idi. Bu Nəzarətdəki məmurlar, yəni qubernatorlar, naçalniklər, pristavlar, məmləkətin ən lüzumlu, ən əhəmiyyətli, ən məsuliyyətli, ən nüfuzlu məmurları olduqları və hər kəsdən ziyadə bunlar qanuni-ədalətə tabe tutulacaqları yerdə, hamıdan artıq bunlar azad və müstəsna buraxılmışlardı. Məmləkətin bütün ictimai, ürfani, iqtisadi və sihhi [səhiyyə] həyatını əllərində tutan bu məmurlar hamıdan ziyadə keyfəmayəşa [özbaşına] hərəkət edirlərdi. Ən alim bir müəllimi, ən hörmətli bir doktoru, ən adlı bir hüquqşünası, ən zəhmətkeş bir aqronomu həbs etməyə ixtiyarı olan prokuror adi, cahil, rüşvətxor, müstəbid bir pristavı həbs etmək deyil, təkdir [məzəmmət] belə edəmməzdi.

Çünki onların bu keyfəmayəşalığına bir maddeyi-qanuniyyə [qanun maddəsi] ilə haqq verilmişdi. Aşkar haqsızlığa, aydın qanunsuzluğa "qanun" adı qoyulmuşdu və bu, çox da qəribə bir hal deyildi. Çünki qanunu yapanlar, kiçik keyfəmayə-şalara yol verənlər böyük keyfəmayəşaçı idilər. Zatən istibdad vaxtındakı qanunların çoxu mühitin, zamanın, ehtiyacati-ümumiyyənin tələbindən artıq başdakı ağaların əfkari-məxsusələrini [şəxsi fikirlərini] tətmin və təmin idi. Buna görə, yalnız daxiliyyə məmurlarına azadlıq və hürriyyət bəxş edən 788-ci maddeyi-qanuniyyə vaxtilə çox da təəccüblü görünməyirdi.

Lakin son vaxtlarda oyanan əfkari-aliyyə əshabı [yüksək fikir sahibləri] bu maddənin büsbütün aşkar və gözəbatan bir qara ləkə olduğunu göstərib qışqırmağa başladılar. Lakin bunlar, bu qışqırıqlar ancaq birər "çaxçax" olmaqdan fəzlə bir iş görəmmədi. Dəyirman yenə öz bildiyini eyləyirdi.

Doğru, dəyirman öz bildiyini eyləyirdi, lakin çaxçaxlar da boş durmayırdı, onlar da səslərini, şiddətlərini artırdıqca artırırlardı. Axırda o dərəcə artırdılar ki, dəyirmanın boğazını toz-torpaqla doldurdular.

Günün birində, 1917 fevralın inqilabı ilə dəyirmanı, o böyük Rusiya dövri-səltənəsini dayandırdılar.

"Çax-çax baş ağrıdar, dəyirman öz bildiyini eylər" məsəlini dəyişdirdilər: "Dəyirman hərlənə-hərlənə sərsəmlənər, çax-çax səslənə-səslənə ayılır" halına qoydular.

İştə, bu ayıqlıq, zamanının qəhrəmanı olan Kerenskini meydana atdı. Onun əli ilə 788-ci maddeyi-qanuniyyəni kökündən dəyişdirdi. Onun yerinə: "Hər məmur cümhuriyyət qanunu nəzərində müsavidir [bərabərdir]. Müfəttiş və prokuror hər kəsi, hər məmuru həbs edə bilər. Bundan heç kəs müstəsna olammaz." düsturunu qoydu.

Bu dəyişmədən, bu neməti-hürriyyətdən hər kəsdən əvvəl Gürcüstan istifadə etməyə başladı. Digər nəzarət məmurlarının üstündə olan inspektorlar kimi, Daxiliyyə Nəzarətinə tabe qubernatorlar, naçalniklər, pristavların üzərinə də müfəttişlər təyin etdi və bu surətlə çoxdan Avropa məşrutə hökumətlərində cari olan bu üsulu əski Rusiya qanunlarına və üsuluna baxmayaraq qəbul etdi.

Cavan Azərbaycan vükəlası da [nazirləri də] bunun lüzumunu hiss etməkdə gecikmədi. Bu günlərdə bütün Daxiliyyə Nəzarəti məmurlarını, xüsusilə qubernatorları, naçalnikləri, pristavları, əxzi-əsgər [hərbi çağırış] idarələrini, polisə məmurlarını həmişə təhti-nəzarətdə bulundurmaq üzrə "Mülkiyyə Müfəttişliyi" namı [adı] ilə bir təftiş heyəti təşkil etdi.

Bu təzə idarənin müfəttiş və məmurlar ştatı ilə smetasını da qəbul etdi. İmdilik heyətin rəisi təyin edilmiş, müfəttişlərlə katiblərin təyinləri düşünülməkdədir. Təftiş heyəti əzasının [üzvlərinin] yaxında tamam olub işə başlayacağı ümid olunur.

Bu təzə idarənin bütün dəftərləri, yazıları, müxabirələri [məktubları, yazışmaları] yalnız türkcə olacaqdır.

### "GAVUR ARXI" VƏ QAÇQINLAR

Rusların Qafqazda yürütdükləri ümdə politikaları əhalini ruslaşdırmaq, bu da mümkün olmadığı təqdirdə ənvai məhdudat [müxtəlif məhdudiyyətlər] ilə yerlilərin güzəranını bir hala salmaq ki, daha yaşamağa qadir olammayıb Qafqazdan müzməhil [yox] olsunlar, ta ki yerlərini rus mühacirləri tutaraq Qafqazı xalis bir rus məmləkətinə döndərsinlər. Odur ki, Qafqazda öylə bir müəssisə bina olunmadı ki, əhalinin güzəranını asanlaşdırsın. Ali bir məktəb açılmadı ki, qafqazlılar onun vasitəsilə öz müqəddəratlarını əllərinə alsınlar. Yollar viran oldu, su arxları dolduruldu, məhz sövqül-ceyş [strateji] və Bakı neftindən mədaxil mülahizəsi ilə dəmiryollar çəkildi. Bir neçə yüz xaxolların mənafeyi üçün Muğan çöllərindəki kanallara yüz milyonlarla xəzinə pulları sərf olundu. Xülasə, hər nə yapıldısa, rusların xeyrinə və qafqazlıların şərinə yapıldı.

Hələ Azərbaycanın xanlıqlar dövründə bir çox arxları vardı ki, Kür və Araz çaylarından su gətirib Mil düzünü və Muğan çöllərini suvarırdı. Əhalinin əkin yerləri susuz qalmayırdı. Qafqazda yapılmış müharibələrin sayəsində bu arxların çoxu uçuruldu, torpaqla dolduruldu. Aradan bir az vaxt keçdi arxların halı unuduldu, bunları təzələmək fikiri hökumətin heç fikirinə də gəlmədi. Abad və münbit yerlər müruri-zamanla [vaxt keçdikcə] xarabalaşıb ilan-çayan yataqları oldu. İştə, bunun nəticəsidir ki, bu gün Azərbaycanın Muğan, Mil, Peyğəmbər və Şirvan kimi bir çox faydasız və bəzən müzirr [zərərli] səhraları mövcuddur ki, hərgah köhnə arxları sabiqki qərar üzrə təzələnərsə, oranın məhsulatı ilə Azərbaycandan əlavə Qafqazın sair millətləri də faydamənd ola bilərlər.

Xaraba qalmış arxlar çoxdur. Bunlardan ən məşhuru Gavur arxıdır ki, dəhnəsi [başlanğıcı] Arazdan götürülür, yüz verstlərlə böyük bir vadi sulayaraq Ağcabədi ətrafından keçib Kür çayına tökülür. Bu arxın indiyə qədər bir çox əlamətləri baqidir [qalmışdır]. Həştadıncı illərdə mərhum Əhməd bəy Cavanşir həman arxı təzələmək üçün bir çox pul və əmək sərf etmişdir. Arxın bir hissəsini də düzəldə bilmişdir ki, bu vaxt işin dayandırılması üçün Bakı qubernatorundan bir hökm almışdır. Biçarə Əhməd bəy hərçi [hər nə qədər] çalışdı sübut etdi ki, bu arxdan əhali ilə bərabər hökumət xəzinəsi də az mənfəət götürməyəcəkdir lakin rusluq politikasına mübtəla olmuş qubernator razı olmadı. Arx yenə yarımçıq qaldı. Əhməd bəyin də bir bu qədər çəkdiyi cəfa və əziyyəti hədərə getdi.

Bu gün Zəngəzur mahalında 40 minə qədər İrəvan qaçqınları toplaşmışlar ki, əsil vətənlərinə qayıtmaq istəməyirlər. Bunları neçə müddətdir ki, Azərbaycan xəzinəsindən çörəkləyib bəsləyirlər. Lakin 40 min camaatı parçatikə loğmaları ilə doyurmaq mümkün deyil. Lazımdır ki, onların həmişəlik güzəranı üçün bir vəsilə aransın. Bu vəsilə də ancaq yeni bir yurddan ibarətdir ki, Azərbaycan ətrafında onlara verilsin gərək. Söz yoxdur ki, münbit yerləri vermək olmaz. Çünki onların sahibləri yersizlikdən şikayət edib hələ özlərinə daha yer istəyirlər. Bina-ənileyh [buna görə], qaçqınlara yer vermək lazım gələrsə, məzkur [deyilən] səhralara su çıxarıb oraları ziraət və fəllahətə [əkinçiliyə və kənd təsərrüfatına] qabil bir hala gətirməli ki, orada yaşamaq mümkün olsun. Bu da ancaq köhnə, məfluk [dağılmış] arxları təmir etməklə əncampəzir olar [həllini tapar].

Birinci növbədə Gavur arxını təmir etməlidir. Çünki bunun bir çox asar [izləri] və əlaməti qaldığı kimi, bəzi yerləri də mərhum Əhməd bəyin hümməti ilə tərtib verilmişdir. Bir az hümmətə və bir dəstə əmələ və fəhləyə ehtiyac vardır ki, az bir vaxtda həman arx təzələnib yüz illərcə tərk etmiş yerləri yenə də əvvəlki kimi suvarsın. Əmələ cəhətdən heç bir korluq çəkilənməz, zira qaçqınların hamısı canudil ilə bu işə qatlaşıb ən böyük ciddü-cəhd ilə çalışacaqlar zənnindəyəm. Nə üçün də çalışmasınlar ki, bu arx onların gələcək zindəganlığı [dolanışığı] üçün təmir olunur.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 27 iyun (Cümə günü) tarixli 213-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Əhli-xibrənin [mütəxəssislərin] də bu işdə fədakarlığı məmuldur [arzuedilәndir]. Bu işdə ən böyük hümməti Əhməd bəyin qızı möhtərəmə Həmidə xanımdan gözləməlidir. Zira həman arxın planları və sair müfid [faydalı] məlumatları atasından irsən ona çatmışdır. Şübhəsiz ki, bu arxın təmiratını Azərbaycan hökuməti öhdəsinə götürmüş olarsa, xanım əfəndi də kamali-şövq və zövqlə ixtiyarında bulunduğu məlumatı hökumətə təqdim edəcəkdir.

Məsarifə gəldikdə, hökumətin bir qərardadı da qaçqınların məxarici üçün 18 milyon manat təxsis etməkdir. İştə bu puldan bir qədər bu işə sərf olunsun ki, qaçqınlar üçün əbədilik bir yurd təsis edilsin. Ümuri-Nafiə və Xeyriyyə [Sosial Təminat] idarəsinin də mülahizəsi budur.

Bu günlərdə Qarabağ vəkili teleqrafla Nəzarətə müraciət edərək vəsatət edir ki, Gavur arxının təmirinə izin verilsin. Əlbəttə bu izin gərək millət naminə verilsin. Çünki bu təşəbbüs tamam Azərbaycanın zəngin bir ölkə olmasına bais olacaqdır.

Bu arxın təmiratından sonra sairlərinin qeydinə qalmalıdır ki, vətənimizin abadlığı gündən-günə artsın.

*Fərhad Ağazadə*

## BAKI XƏBƏRLƏRİ

Ən yaxın zamanda Bələdiyyə İdarəsi bütün Şollar su kəməri xəttini təmirə şüru edəcəkdir [başlayacaqdır]. Lazımi materialların oğurlanacağı ehtimalına görə, Bələdiyyə İdarəsi Bakı valisinə müraciətən rica etmişdir ki, kəmər əşyasını mühafizə etməkdən ötrü 8 nəfər müsəlləh [silahlı] süvari, bir nəfər uryadnik təyini barəsində lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün]. Süvarilər Bakıdan Xudat mövqifinədək [stansiyasınadək] kəmər əşyasını mühafizə edəcəkdir.

**Qabbanın vüruduna dair**

Aldığımız məlumati-mövsuqəyə [mötəbər məlumata] görə, Qabba bu gün Parisdən Bakıya varid olacaqdır [gələcəkdir].

**Kəndlilərin ricası**

Bakı qəzası Ağdərə, Əmbizlər və Dabaqun kəndləri əhalisi qubernatora müraciətən onlardan alınmış olan 54 dənə vintovka tüfənglərin qaytarılmasını rica etmişlərdir. Onlar qaçaqların əziyyət etdiklərini göstərmişlərdir. Qubernator kəndlilərin ərizəsini təhqiqat üçün Balaxanı-Sabunçu qalabəyisinə [komendantına] göndərmişdir.

**Pambıqçıların ictiması**

İyul ayının ortasında Bakıda pambıqçı, qoyunçu, ipəkçi və qeyri bu növ işlər sahiblərinin ictiması [yığıncağı] vaqe olub, bir çox mühüm məsələlər müzakirə və həll ediləcəkdir. İctimanın mütəşəbbisi [təşəbbüskarı] mühəndis Pekarsidir. Heyəti-mütəşəbbisə hal-hazırda işə şüru etmişdir [başlamışdır].

**Həbslər**

* Bakı qubernatorunun binagüzarlığı [sərəncamı] ilə Qusar uçastoku sakinləri Abbas Cəlil oğlu, Abbas Qabaş oğlu, Həsən Ağaşərif oğlu, Sultan Fərzəli oğlu, Nəsrulla Molla Şahbaba oğlu və Mətləb Osman oğlu asayişi-ümumini pozmaqda müttəhim edilərək bir ay müddətinə həbsə alınmışlardır.

* Nügədi kəndi əhli Murtuza Əbdül-xalıq oğlu müzirr [zərərli] şəxs olduğu üçün bir ay müddətinə həbs edilmişdir.

* Taxıl zaye edən həşərat ilə mübarizə edən komitənin müəllimi Georgi Spaqarov, Vasili Dorişov müzirr şəxslər olduqları üçün 3 ay müddətinə məhbus edilmişlərdir.

**Biçeraxovdan qalan mallar**

Təhərri [axtarış] polis müdiri qradonaçalnikə məlum etmişdir ki, sabiq Biçeraxov dəstəsindən qalan əşya şəhərdə 5 dənə anbarda saxlanmaqdadır. Bu anbarlardan əvvəlincisi 4-cü uçastok dairəsində, qalanı isə 7-ci uçastokdadır. Bu anbarlar qıfıl ilə bağlanıb yanında qarovul qonulmuşdur.

**Dəvaxanalar açılması**

Səhhəti-Ümumiyyə Nəzarətinin Səhiyyə şöbəsi Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə müraciətən rus və erməni təşkilatları tərəfindən həman məhəllələrdə dəvaxanalar [apteklər] açılmasından ötrü ərizələr verildiyini göstərərək, müsəlman hissəsində böylə dəvaxananın açılmasını tövsiyə etmiş və lazım olarsa, tezliklə bu barədə məzkur [adı çəkilən] şöbəyə ərizə verilməsini rica etmişdir.

**Ticarət naziri müavininin vürudu**

Neçə vaxt bundan əqdəm [qabaq] xidmət işlərindən dolayı Batuma getmiş olan Ticarət naziri müavini [Yusifəli] Əliyev və Nəzarət Dəftərxana müdiri [Abbasəli bəy] Makinski dünən Bakıya övdət etmişlərdir [qayıtmışdır].

**Bələdiyyə İdarəsində**

Bələdiyyə İdarəsinin Sihhiyyə [Gigiyena] Təbibləri Şurası Bakı qalabəyisinə müraciətən ümumi hovuzları olan hamamların qapadılmasını rica etmişdir. Böylə hamamlar bəzi müsri [yoluxucu] xəstəliklərin artmasına səbəb olurlar.

**Hökumətin binagüzarlığı**

Hökumət tərəfindən Tiflis Dövlət Bankına məlum edilmişdir ki, Azərbaycan hökuməti hesabına pul buraxıldıqda ancaq Gürcüstanda Azərbaycan siyasi nümayəndəsi, maliyyə acenti və acentəliyin hesabdarı imzaları ilə buraxılsın.

**Azərbaycan İctimaiyyuni-İnqilabiyyun [Sosialist İnqilabçılar] firqəsi**

Əzalarının [üzvlərinin] ümumi iclası cümə günü 27 həziran 1919-da axşam saat 5-də Fəhlə Klubu binasında vaqe olacaqdır. Müzakirə ediləcək məsələlər:

1) Əhvali-hazirə;
2) Komitənin bəyanatı;
3) Yeni komitə seçkisi;
4) Qəzetə və sair cari məsələlər.

Ümum yoldaşların vaxtında gəlməsi rica olunur.

*Bakı Komitəsi*

- Vaxtilə Bələdiyyə İdarəsi hökumətə müraciətən rica etmişdi ki, rus və digər Bakıda olmuş qoşunlar üçün şəhər su kəmərindən buraxılmış suyun 451.862 rublə 67 qəpik miqdarında pulu verilsin. Hökumət məsələni müzakirədən sonra Bələdiyyə İdarəsinin işbu təşəbbüsatını rədd etmişdir.

- Bələdiyyə İdarəsi bütün cəmiyyətlər və hökumətə xəbər vermişdir ki, heç bir halda məktəb binaları həcz [müsadirə] edilə bilməzlər. Zira, həcz edilmiş binalar hifzüssihhə [gigiyena] nöqteyi-nəzərindən ətfal [uşaqlar] üçün qayət zərərli bir hala gətirilir ki, tədrisat sənəsində həman evlərdə təlim etmək qeyri-qabil olur.

**Müəllimlər İttifaqında**

Bu gün Müsəlman Müəllimləri İttifaqı idarəsinin saat 10 tamamda 9-cu ibtidai məktəbdə iclası təyin edilmişdir. Məsələlər mühüm olduğundan, əzanın [üzvlərin] vaxtında gəlmələri mətlubdur [tələb olunur].

* Azərbaycan Cümhuriyyətinin Kuban siyasi nümayəndəsi dünəndən etibarən Don siyasi nümayəndəliyinə də təyin və təsdiq edilmişdir.

## ÇƏNBƏRƏKƏNDİNDƏ

Keçən cümə günü axşam saat 5-də Çənbərəkənd Qrajdanski Komitənin [Camaat Komitəsinin] iclası Məhəmmədhəsən Həsənov cənablarının təhtisədarətində [sədrliyi altında] vaqe olmuşdur və bu qərarlar ittixaz olmuşdur [çıxarılmışdır]:

1) Çənbərəkənd məscidinin həyəti təzədən qəbiristanlıq olmuşdur və qəssalxana dürüst eyləmişlərdir [düzəltmişlər]. Bunların tərk olmasına iqdamat [təşəbbüs] olunsun, tərk olunması Hökumətə ittila [xəbər] verilsin;

2) Könüllü orduları düzəlir; məscidin həyətində düşənbə [bazar ertəsi] günündən məşqlər başlansın;

3) Yay zamanıdır. Üfunəti və naxoşluğu rəf etməkdən [aradan qaldırmaqdan] ötrü, küçələrin və həyətlərin zibillərini aparmaqdan ötrü Bələdiyyə İdarəsinə rücu [müraciət] olunsun və tezliklə təmizlənməsi xahiş ol[un]sun;

4) Böyük Çənbərəkənd küçəsində bir lampa (fanar) yoxdur. Laməhalə [lazımdır ki], fanarların əvəzində elektrik işığı çəkilsin;

5) Ağaqədir Qədirov məscidə elektrik çəkir öz xərci ilə, Komitə ona camaat dilindən izhari-təşəkkür edir;

6) Ağabala Şükür oğlu "Səfa" mədrəsəsinin zamoklarını çıxardıb aparıbdır və təklif də olunubdur, nəinki verməyir, hətta etina da etməyir. Bu barədə Hökumətə rücu [müraciət] olunsun;

7) Məscidin pullarını bu vaxta qədər kim alırsa, zəhmət çəkib nəqibə [camaatın rəhbərinə; vəqf, cəmiyyət kimi qurumların başçısına] haqq-hesab versin və minbəd [bundan sonra] məscidin dükanlarından bir kimsənin ixtiyarı yoxdur kirayə almağa, nəqib Mirhəsənovdan başqa;

9) Əxzi-əsgəriyyədən [hərbi çağırışdan] qaçanların, siyahıya daxil olmayanların, İran təbəəsi və qeyri təbəəyə daxil olanların siyahısın[ı] tərtib verməkdən ötrü və bunları bir dəfə olaraq təmiz və dürüst etmək üçün sədr Həsənov cənabları bir layihə tərtib veribdir. Hökumətə rücu edibdir ki, icazə hasil olsa, onları arastə etmək [qaydaya salmaq] və işin sərkeşliyini [rəhbərliyini] öz öhdəsinə götürmüşdür;

10) Kasıb və fəqirlərin siyahısı itmama yetmişdir [tamamlanmışdır]. Onları Müsəlman Xeyriyyə İdarəsinə təqdim etmək qərara alınmışdır;

11) Məhəllədə yaşayan bikar adamlara təklif olunmuşdur özlərinə sənət tapsınlar, vəilla [yoxsa] oğurluğa və qeyri işlərə mübaşir olsalar [girişsələr], hökumətə ittila [xəbər] veriləcəkdir;

12) Neçə nəfər kənd əhllərindən əxzi-əsgəriyyədən qaçıb Çənbərəkəndində pünhan olmuşdurlar. Məhəllə pristavına ittila bu barədə verilmişdir.

## SENTRODOM "FƏQƏRƏSİ" [ƏHVALATI]

İyunun 22-də Sentrodomun [Mərkəzi Ev Komitəsinin] ümumi iclası vaqe olaraq Lənkəran əməliyyatı haqqındakı məsələ müzakirə edilmiş və məzkur [adı çəkilən] müəssisənin orada göstərmiş olduğu fəaliyyəti barəsində məruzəyə qulaq asılmışdır.

Məruzədən məlum olur ki, cəmiyyət bu vaxta qədər Lənkəranda taxıl almaqdan ötrü 5 milyon manat pul xərcləmiş, əvəzində ancaq 1200 pud taxıl ala bilmişdir.

Sentrodom və Təftiş Komissiyasının üzvləri böylə hərəkəti tənqid edərək izahat istədikdə, Sentrodom rəisi Leontyeviç tənqidə cavabən ağlar gözlə Sentrodom üzvü Kuznetsovun Lənkəranda bolşeviklər tərəfindən qətl edilməsinə izhari-təəssüf etmiş və öz nitqində məqtulun "dövləti adam" [dövlət adamı] olduğu üçün neçə milyonlarla əvəz edilməyəcəyini söyləmişdir.

Bir vaxt [Murtuza] Muxtarovun Sentrodom üzvü [Miron Yakovleviç] Şoru təhqir etməsindən ötrü çığırbağır salıb qaraçılıq edən Leontyeviç öz nitqində Sentrodomun fəaliyyətini tənqid edənlərdən çox narazı qaldığını bəyanla, onları hətta hədələmişdir. Böylə ki, ümum iclas tərəfindən müttəfiqülqövl [yekdilliklə] seçilib izhari-etimad edilmiş olan Təftiş Komissiyası rəisi İsmayılovun hərəkətini təhərri [araşdırma] hərəkəti və özünü "casus" adlandırmışdır. Təbiidir ki, onun böylə qaba hərəkəti müsəlman üzvlərinin protestosuna səbəb olmuş və qeyri-müsəlmanlar isə məsələni başqa bir vaxta buraxmağı təklif etmişlərdir.

Leontyeviç gözünün yaşı ilə Kuznetsovun vəfatını xəbər verib onun ideya yolunda ölməyi ilə 5 milyon manatın həzmi-rabedən keçməsini [yeyilməsini; mənimsənilməsini] "örtbasdır" eyləmək istəmişdir və bu barədə atçot istəyən Hənifə Tağıyevi "tərtib" [qayda, nizam] gözləməyə dəvət etmişdir. Böyləliklə, məsələ hələ "üstüaçıq" qalmışdır.

Öz nitqində Leontyeviç Şimali Qafqaziyada gördükləri xarabazarları üzvlərin nəzərindən keçirib bolşeviklərə çoxlu nifrin və lənət oxumuşdur.

Lənkəran "məsələsinin" də böylə "zərərli" olmasına bolşevikləri göstərmişdir. Amma bunu da əlavə edir ki, bir vaxt məşhur "sosialist" Suxorokov və Çurayevə daxil düşmüşdür [sığınmış, onlardan kömək istəmişdir].

Şayani-qeyd və əhəmiyyət orasıdır ki, Leontyeviç Lənkəranda çarpışmaqda olan iki qüvvəni – İlyaşeviç ilə [V. D.] Suxorokov dəstələrini birləşdirmək qəsdi ilə hər iki tərəfdən onlara doğru "hərəkət" etmişdir.

Amma nədənsə bununla onlara üçüncü bir qüvvəni dəxi əlavə etmişdir ki, o da "dövlət kişisi" olan Kuznetsovdur.

Bu kişi şəhərin ən "fəqir" hissəsi üçün azuqə gətirmək qəsdi ilə iqtisadi bir vəzifə üçün oraya gedib də "siyasiyyata" qarışdığından, "dövlət nöqteyi-nəzərindən" canını Leontyeviçə fəda etmişdir. Əlbəttə, bu "dövlətin" Azərbaycan olmadığı da sizə gözəl məlumdur.

O ki, qaldı "barj" [yük gəmisi] məsələsi, o da bir dərəcə "aydın" bir "məsələ"dir ki, bu nə üçün alınmışdır.

Nə isə, "məsələ" hələ müəlləq [havada, qeyri-məlum] qalmaqdadır.

Deyirlər ki, Sentrodom hökumət tərəfindən təftiş ediləcəkdir. Allah eyləsin!

Amma müfəttiş cənablar bir qədər ehtiyatla davranmalıdır ki, onu Leontyeviç "dövlət nöqteyi-nəzərindən" İsmayılov kimi "casus" adlandırmasın. İsmayılov bu sözün cavabında bir söz deməyib, onu heç bir adla yad etməyib üzr istəməsini tələb etmiş və Leontyeviç də təəssüf izhar etmişdir.

Biz isək belə cavab verərdik:

Əvət, sizin kimi xainlər və nəməkbə-haram [nankor] "diplomat" hariflərin hökumət əleyhinə olan hərəkat və siyasiyyatına qarşı biz həmişə "casus" olacağız.

*P. M.-də*

## DƏMİRYOLUNDA

**Kəndlilərin ricası**

Suraxanı uçastok dairəsində olan kənd lərin əhalisi Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Bakı Komitəsinə bir ərizə verərək Suraxanı-Sabunçu arasında dayanmaqda olan minik qatarlarının müsəlman qadınları rahatlığı üçün məzkur [deyilən] yerdə bir platforma təmir edilməsini rica və arzu etmişlərdir. Komitə həmin ərizəni Türüq və Məabir Nəzarətinə [Nəqliyyat və Rabitə Nazirliyinə] göndərərək kəndi tövsiyəsini əlavə etmişdir.

**Dəmiryol qulluqçularına**

Rəisi-vükəla [Baş nazir] və Daxiliyyə naziri Yusifbəyli tərəfindən ümum Azərbaycan dəmiryol müdirlərinə, Ağstafa, Yevlax, Hacıqabul, Biləcəri və Bakı mövqifləri [stansiyaları] xidmətçilərinə, Türüq-Məabir vəziri [Nəqliyyat və Rabitə naziri] və mayor Andersona zeyldəki [aşağıdakı] məzmunda bir məktub göndərilmişdir:

*"Gəncə mövqifi müdirlərinə təklif edirəm bütün qulluqçulara, əmələ və ustalara məlum edəsiniz ki, Gəncə mövqifində yol əmələləri tərəfindən 6 nəfər ingilis hərbi təyyarəçiləri tövqif [həbs] edilmişlərdir. Onların tezliklə azad və böylə hərəkətdən naşi [ötrü] izhari-təəssüf edilməsini [təəssüf bildirilməsini, üzr istənməsini] rica edirəm. Böylə bir hərəkət ümumi siyasi əhvalı ciddiləşdirib və məmləkətin demokratiyası arzularına müxalifət göstərmiş olur.*

*Rəisi-vükəla: Yusifbəyli"*

*"Bunu elan edərək ciddi tədbirlər ittixaz edilib [tədbirlər görülüb] və bundan sonra böylə hərəkətlərə mürtəkib olanlara [qarışanlara, dəxli olanlara] ağır cəzalar verilməsini əmr edirəm.*

*Türüq və Məabir naziri: [Xudadad bəy] Məlikaslanov"*

*"Ümum dəmiryol mövqifləri müdirlərinə və agentlərə və İngiltərə Komandanlığı nümayəndəsi mayor Andersona.*

*İngiltərə Komandanlığı məmurlarına dəmiryol qulluqçuları tərəfindən qəbahət və bəd müamilə [pis rəftar] göstərildiyi üçün əmr edirəm ki, bundan sonra onlara lazımeyi-ehtiram edilib heç bir təhqiramiz sözlər denilməsin. Dəmiryol mühafizəsi məmurlarına əmr edirəm ki, əmrimin əməl edilməsini gözləyərək bir kəs tərəfindən etinasızlıq göstərildiyi vaxt tezliklə mənə məlumat və bəratülqövl [protokol] təqdim etsinlər. Sərhesab edirəm [xəbərdar edirəm] ki, əmrlərimə əməl etməyənlər ən şiddətli cəzaya düçar olacaqlardır.*

*Türüq və Məabir naziri: [Xudadad bəy] Məlikaslanov"*

## AZƏRBAYCANDA

**Salyan və Ətrafının Müəllimlər İttifaqı**

Həmin həziran ayının 14-də Salyanda realnı və edadiyyə məktəbində bütün Salyan və ətraf müəllimlərinin ümumi iclası olur. Məclisə sədr Yusif Qasımov cənabları və katibliyə Məhəmmədəli Şükürbəyli intixab olunur [seçilir].

Sədr məclisi açır və ictimadan [iclasdan] məqsəd Salyanda Müəllimlər İttifaqı düzəltmək olmasını bəyan edir. Hamılıqla böylə bir ittifaqın düzəlməsi artıq vacib və lazım görülür.

Aşağıda adları yazılan 7 nəfərdən ibarət bir İdarə Heyəti seçilir:

1) Edadiyyə məktəbi müdiri Məhəmməd Əmin bəy Əfəndizadə;
2) Əlinağı Qasımov;
3) Əli bəy Qasımov;
4) Məhəmmədəli Şükürbəyli;
5) Molla Əziz Babazadə;
6) Mirzə İsmayıl Hüseynzadə;
7) Mina xanım Axundzadə.

Bunlara namizədlər:

1) Zeynalabdin Hüseynbəyov;
2) Mirzə Məhəmməd Zeynalov;
3) Zəbihulla Mollazadə.

Müəllimlərimizdən çoxunun üsuli-tədrisdən və təlim və tərbiyə elmindən nəhayət bixəbər, qayət zəif olub bunun da məktəb həyatına, çocuqlarımız ruhuna artıq fəna təsirbəxş olacağını nəzərə alıb qərar qoyulur ki, 3 ay yay tətilini müəllimlərimiz nümunə dərsləri desinlər və təcrübəli və bacarıqlı müəllimlər tərəfindən mühazirələr oxunsun. Cavan müəllimlərimizin bilik və təcrübəsini ucaltmaq və artırmaq və onları məclisə və mühazirəyə aşina etməkdən ötrü hələlik iki leksiya (mühazirə) oxunması qərara alınır.

Leksiya oxuyanlar Qazax Darülmüəllimin müəllimlərindən Yusif Qasımov cənabları və Salyan Birinci türk məktəbi naziri [müdiri] Əlinağı Qasımov olur.

Təyin olunmuş gündə leksiya oxunur. Yusif Qasımov cənabları təfsiri qiraətdən və üsuli-tədrisdən, Əlinağı Qasımov "məsələlərin həlli üsulundan" mühazirələr oxuyurlar.

Əvvəlinci mühazirə təfsiri qiraətdən mübahisəsiz keçir. İkinci mühazirədə mübahisələr vaqe olur. Ən maraqlı və qeyri-məkşuf [cavabı tapılmamış] mübahisə hesabda yazının soldan sağa və ya sağdan sola yazılmaq məsələsi olur. Bu məsələ üstündə çox mühavirə [danışıq] və mübahisədən sonra məclis hesabın soldan sağa yazılmaq tərəfdarı olur və qət edir ki, bu məsələni gözəlcəsinə həll və təfsir etməkdən ötrü mətbuat vasitəsilə ümum müəllim arxadaşlarımız nəzəriim'anlarına [nəzərdiqqətlərinə] verilsin və əbədi olaraq bir qanun tərtib edilsin.

Əlavə, küçələrdə avara və sərgərdan gəzən yetim və biçiz [yoxsul] uşaqlar üçün 20 həziranda kurs açılması qərara alınır və kursa iki müəllim təyin olunur. Müəllimlər: Məhəmmədəli Şükürbəyli və Mirzə Əlinağı Qasımov. Kursa yazılan çocuqların bu halda əsamisi 40-ı mütəcavizdir [keçmişdir]. Bu çocuqların çoxu lüt və üryan olmaqla bərabər, qətiyyən təlim görməyənlərdir.

Ümumi bir qiraətxana açılmaq məsələsi də keçir və qəzetələr siyahı olunur.

*Əlinağı Qasımov*

## LƏNKƏRANDA

Bizim bədbəxt vətənimizin ən son hadisəsi – kəndi istiqlaliyyətləri uğrunda vətənlərini gəlləri ünsürlərdən qavramaq üçün cansiperanə [canla-başla] mübarizə edən astaralı müsəlman qardaşlarımızla bolşeviklərin müharibəsidir.

Müsəlmanların başçıları bunlardır: Hüseyn, İbrahim Xəlil və Hacı Osman.

Hacı Osman bu mahalın ən dövlətli adamlarından idi. Fəqət keçən il aprelin 25-də bolşeviklər Putəsər kəndini yandıranda onun bütün var-yoxu yandı və kəndisi də yalnız nağd pulunu alıb bu atəşdən can qurtara bilmişdi. Onlar burada 800 dükanlı böyük bazarı yandırmışdılar. Hacı Osman bu hadisədən sonra İran quldurlarının başçısı Ramazan oğlu Hüseynlə birləşdi. Məqsədi bolşeviklərdən intiqam almaqdı. Bu üç müsəlman başçılarının müsəlman əhalisi arasında çox nüfuzları vardır. Fəqət bolşeviklərin məğlubiyyətinə birinci səbəb (bilafərqid-inü-millət [din və millət fərqi olmadan]) bilümum [ümumiyyətlə] əhalinin kəndilərinə nifrətləridir.

Bolşevikliyi bir müsəlmanlar təqbih etməyir [pisləməyir], malakan, xaxol və qeyrədən başqa bu yaxınlaradək bolşeviklərin ümdə pənahları olan Muğan otryadı dəxi bolşeviklərdən üz çevirmişdir. Onlara kömək edən fəqət [sadəcə] Privolnı kəndinin camaatı – subbotniklərdir. Böyləliklə, Zaqafqaziyada sonuncu bolşevik sovdepiyasının [bolşevik hökumətinin] ömrünün tamamına çox az qalmışdır.

Axırıncı davada Hüseyn bolşeviklərdən bir araba güllə, 3 pulemyot alıbdır. Bolşeviklər 60 nəfər ölü buraxmışdırlar. Hüseyn Astaranı alandan sonra Azərbaycan Cümhuriyyətinə 3 nəfər nümayəndə göndərib Cümhuriyyətin nizam və qanun bərpasına kəndi məmurlarını göndərməsini rica edir. Əgər hökumət bu ricanı isaf [qəbul] etməzsə, münqəriz olmağa [dağılmağa] başlayan bolşevik hökuməti yenə möhkəmlənər.

Bolşeviklər Lənkəranı təxliyə və Sarı cəzirəsinə [adasına] köçmək məcburiyyətində bulunduqları zamanda əhalini Lənkəranı yandırıb tərk etməklə təhdid edirlər. Yenə hökumətə keçən məşhur intriqaçı və dövlət xəzinəsini oğurlayan [V. D.] Suxorukov müsəlmanlardan 6 min əsgər və 8 milyon təzminati-hərbiyyə istəyir. Bu, xalqın bədbəxtliyində kəndi səadətini görməyə alışan "hürriyyət qəhrəmanı" müsəlman xalqı arasındakı iğtişaş əfkarını təyid etmək [gücləndirmək] üçün 60 nəfər müsəlman ağsaqqallarını həbs etmişdir.

Denikin tərəfdarlığı ilə müttəhim edilib həbs edilmiş rus zabitləri bu vaxtadək həbsdən buraxılmamışdırlar. Şayiata görə, onların bir qismi bu yaxınlarda edam ediləcəkdirlər.

*Lənkəranlı*

## GÜRCÜSTANDA

**Gürcüstandan nəfy**

Öz evlərində həbsdə saxlanan Zaqafqaziya Rus Cəmiyyəti üzvlərindən doktor Yerofeyev, mühəndis Antonov, Kəndçilər Bankının Zaqafqaziya şöbəsi müdiri İqnatyev, müəllim Şamov və keşiş Çepelyev Gürcüstandan nəfy [sürgün] edilmişlərdir. Mühəndis Antonov Batuma, qalanları Bakıya azim olmuşlardır [yollanmışlar].

**Dolu yağmışdır**

İyulun 8-də Başkoy və Livadi kəndlərinə yumurta yekəlikdə dolu yağmışdır. Dolu bütün əkinləri xarab etmişdir. Başkoy kəndinin qaramalı doludan qaçıb dərələrə tökülüb tələf olmuşdur. Hər iki kənddən bir çox inək, qoyun, öküz tələf olmuşdur. İki arvad və 3 uşaq suda boğulmuşdur. Dolu gündüz saat 1-də başlayıb, axşam saat 9-da kəsmişdir. Həman kəndlərə kömək olmasa, aclığa məhkum olacaqlardır.

**İtibdir**

Rüstəm Rza oğlunun Buxara hökumətindən aldığı 219 nömrəli birillik pasportu itibdir. Etibardan saqitdir [etibarsızdır].

*10255*

**Şağanda**

Buzovna yolu üstə Hacı Seyid Tağıyevin bağı icarəyə verilir. Xahiş edənlər bu adresə müraciət edə bilərlər: Aziatski küçə, dalan nömrə 11, ev nömrə 1.

*10258*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş ibıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*10257*

**Berlin Darülfünunu doktoru S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*8756*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti "Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan
Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov
Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld
Cərrahiyyə 9-11 Sander
Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron
Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]
Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik
Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan
Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;
Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin
Müalicəxana müdiri bakterioloq Lyuba-şevskaya

Müalicəxanada konsultasiyalar icra olu-nur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzihəml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Arvad diş həkimləri Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Məşixətdən***

"Yə eyyühəlləzinə...": "Quran"-ın "Muhəmməd" surəsinin 7-ci ayəsi.

"bütün cənnət həyatını qazanar": qəzetdə "cənnət" yerinə "ümmət" getmişdir.

"Aşiq oldur kim...": beyit Füzulinin qəzəlindəndir.

"Qul innəl-mevtəlləzi...": "Quran"ın "Cümə" surəsinin 8-ci ayəsinin bir hissəsi.

"Negəhdar forsət ke aləm dəmist / Dəmi biş dana beh əz aləmist": "Firsəti gözlə ki, dünya bir dəmdir / Bir dəmi artıq bilmək dünyadan yaxşıdır" (farsca)

"bir millətin namusu, istiqlalı": qəzetdə belə getmişdir: "bir millətin hamusu istiqlalı".

"Kolux əndazra padaşe səng əst": "Sənə palçıq atanın cavabı daşdır" (farsca)

"Qul ma indəllahi...": "Quran"ın "Cümə" surəsinin 11-ci ayəsinin bir hissəsi.

"Hər şəb əz əfğane mən bidar xəlq əmma çe sud / Anke bayəd naleyi mən beşnəvəd bidar nist": "Hər gecə mənim əfğanımdan xalq oyanır, ancaq nə faydası var / Mənim naləmi eşidəcək oyaq deyil" (farsca)

"Zərəbəl-lahu məsələn əbdən məmlukən...": "Quran"ın "Nəhl" surəsinin 75-ci ayəsi.

"İnnallahə lə yuqəyyiru ma biqövmin hətta yuqəyyiru ma biənfüsihim": "Quran"ın "Rəd" surəsinin 11-ci ayəsinin bir hissəsi.

"Xab bəs ey xüftə, şəb bəsəraməd, / Xiz ki, sübhəst, afitab bəraməd": "Ey yatan, yuxu bəsdir, gecə bitdi / Qalx ki, sabahdır, günəş çıxıb" (farsca)

***Xəzər dəryasında bolşeviklərin hərbi qüvvəsi***

"Fort-Aleksandrovsk": İndiki Qazaxıstanın Mangistau (Manqışlaq) vilayətində yerləşən Fort-Şevçenko şəhəri 1857-1924-cü illərdə Aleksandrovsk (Fort-Aleksandrovsk) adlanmışdır.

"barkas": kiçik ölçülü gəmi.

***Nəzarətlərdə***

"Pokrovka": Sabirabad rayonunun Qaratəpə kəndi.

"Nikolayevka": Saatlı rayonunun Qara Nuru kəndi.

"üşr": kənd təsərrüfatı məhsullarından onda bir miqdarında alınan dini vergi.

"Naftluqi": Şərqi Gürcüstanda mühüm dəmiryolu qovşağı olan stansiya.

***Mülkiyyə müfəttişliyi***

"münkir-nəkir" (yaxud "inkir-minkir"): dini etiqada görə, qəbirdə ölünü sorğu-sual edən iki mələk.

***"Gavur arxı" və qaçqınlar***

"Həmidə xanım": Əhməd bəy Cavanşirin qızı və Cəlil Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanım Cavanşir (Məmmədquluzadə) nəzərdə tutulur.

***Bakı xəbərləri***

"uryadnik": kiçik rütbəli polis.

"Ağdərə, Əmbizlər və Dabaqun": Xızı rayonunun kəndləri.

***Çənbərəkəndində***

"9) Əxzi-əsgəriyyədən qaçanların…": qəzetdə 8-ci bənd buraxılmışdır.

***Lənkəranda***

"Putəsər": Astara rayonunun kəndi; indiki Pensər kəndi.

"Privolnı" (yaxud Privolnoye): Cəlilabad rayonunun kəndi. XIX əsrin I yarısında çar hökuməti tərəfindən bura köçürülən subbotniklər tərəfindən əsası qoyulmuşdur.

"Subbotniklər": XVIII əsrin axırlarında ruslar arasında meydana gələn, iudaizm yönümlü cərəyana mənsub olanlar. Subbotniklər "şabat"a (şənbə günü işləməyə), sünnətə və iudaizmin digər əmrlərinə riayət edirdilər. Zaqafqaziyaya subbotniklər XIX əsrin I yarısında çar hökuməti tərəfindən köçürülmüşdü.

"Sarı adası" (yaxud Sara adası): Xəzər dənizində, Lənkəran şəhərinin şərqində yerləşirdi. 1956-cı ildə torpaq yolla Port İliç (indiki Liman) şəhəri ilə birləşdirildikdən sonra yarımada olmuşdur.

***Gürcüstanda***

"Kəndçilər Bankı": Rusiya imperiyasında kəndlilərə uzunmüddətli borc verən dövlətə məxsus kredit qurumu. 1882-1917-ci illərdə fəaliyyət göstərmişdir.



# Mədəniyyət



**Əfzələddin Xaqani Şirvani - 900**

# Mütəfəkkir sənətkar, vətənpərvər şair

**Xaqani poeziyası öz dövründən başlayaraq, bu günə qədər Şərqin, o cümlədən Azərbaycanın bir çox sənətkarları üçün örnək olmuşdur. Prezidentin dünyaşöhrətli mütəfəkkir şairin anadan olmasının 900 illik yubileyi ilə əlaqədar imzaladığı sərəncamda deyildiyi kimi, Xaqani Şirvani Azərbaycan ədəbiyyatı və mədəniyyətinin qızıl dövrünün ümumbəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi nəhəng simalardandır.**

Zəmanəsinin ən müxtəlif elmlərini dərindən bilən və Şərqin çoxəsrlik mədəni ənənələri zəminində əzəmətlə yüksələn qüdrətli söz ustası şeiriyyətin zirvəsində dayanan sənət nümunələrindən ibarət zəngin bir irs qoyub getmişdir. Ədalətə çağırış, mübarizə ruhu və şəxsiyyət azadlığı, mənəvi ucalıq, insan ləyaqəti və idrakın gücünə inam bu nadir irsin səciyyəvi cəhətləridir. Mütəfəkkir sənətkar ictimai-fəlsəfi və didaktik-əxlaqi düşüncələrdən yoğrulan, yüksək estetik dəyərə malik humanist məzmunlu əsərlərində sosial-tarixi hadisələri özünəməxsus bədiiliklə mənalandırmış və bunlardan ibrət almağı tövsiyə etmişdir. Xaqani yaradıcılığında parlaq lirik lövhələrlə ifadəsini tapan vətənpərvərlik motivləri şairin doğma yurda və onun gözəlliklərinə sonsuz sevgisinin dolğun poetik təzahürüdür.

Xaqani Şirvani 1126-cı ildə Şamaxıda anadan olub. Əsl adı İbrahimdir. Xaqani onun təxəllüsü, Şirvani mənsub olduğu yerin adıdır. O, 8 yaşında atasını itirib, dövrünün tanınan alim və həkimi olan əmisi Kafiəddin Ömər Osmanoğlunun himayəsi və tərbiyəsi altında böyüyüb.

Xaqani gənc yaşlarından başlayaraq, şeirlər yazmışdır. Həmişə inamın, həqiqətin, gözəlliyin carçısı olmuş, hər cür şəri rədd etmişdir. 25 yaşında Şirvanşahların "məlik üş-şüara"sı Əbülüla Gəncəvinin dəvəti ilə saraya gələn İbrahim onun qızı ilə ailə həyatı qurmuş, Əbül ülanın ona verdiyi "Xaqani" təxəllüsü ilə şeirlər yazmağa başlamışdır. Sarayda xidmət etdiyi ərəfədə poeziyasındakı ciddi, sərt fikirlər, eyni zamanda hərəkəti, davranışı çoxlarını təşvişə salmışdır. Özünü "qanadı qırılmış quş kimi dəmir qəfəsdə" hiss edən şair daxilindəki gərginliyi yüngülləşdirmək üçün Məkkə ziyarətinə getməyi qərara almışdır. Məkkəni, Mədinəni, Bağdadı və digər şəhərləri gəzmiş, əsərlərində bu yad diyarda ona olan diqqətdən, hörmətdən, ehtiramdan həvəslə, ətraflı söhbət açmışdır. Səyahətinin nəticəsi olaraq "Mədain xərabələri" adlı məşhur fəlsəfi qəsidəsini yazmışdır. Bu əsərində şair Sasani şahlarının xaraba qalmış saraylarının timsalında müasirlərini ibrət dərsi almağa çağırmışdır.

Tədqiqatçıların dedikləri kimi, klassik Şərq poeziyasının bütün janrlarında yüksək sənətkarlıq nümunələri yaratmış Xaqani Şirvanı buna görə tezliklə müasirlərinin diqqətini cəlb etmişdir. O, Yaxın Şərq ədəbiyyatı tarixində epik poeziyanın ilk görkəmli nümunəsi sayılan "Töhvət ül-İraqeyn" adlı məsnəvisini yazmışdır. 1157-ci ildə yazılmış bu əsərdə şair səfər macəraları ilə yanaşı, xalqların həyatından aldığı təəssüratı təsvir etmişdir. "Düşmənləri tənqid", "Günəşə xitab", "Qızıla məzəmmət" başlıqlı hissələr oxucuları bu gün də heyran edir. Şair saflığın, işığın, hərarətin, ucalığın rəmzi olan Günəşi özünün dostu sayır, ondan yardım diləyir. Tədqiqatçı mütəxəssislərin qeyd etdiyi kimi, "Töhvət-ül-İraqeyn" əsəri Azərbaycan ədəbiyyatı tarixində ilk poemadır. Əsərin əsas qəhrəmanı şairin özüdür. Poemada düşünən də, sevinən də, fəxr edən də, qəzəblənən də şairin özü - Xaqanidir.

1176-cı ildə Ərəb və Əcəm İraqını səyahət etmək üçün Kəbə ziyarətinə gedən şair bundan sonra vətənə qayıtmır, ömürlük Təbrizdə məskən salır. Bu zaman Axsitan, Qızıl Arslan və başqaları onu öz sarayına dəvət etsələr də, sənətkar heç bir təklifi qəbul etmir, müxtəlif bəhanələrlə dəvətləri rədd edir.

Təbrizdə şairin həyatının son illəri çox ağır keçib. Onun cavan oğlu, qızı və həyat yoldaşı bir-birinin ardınca vəfat edib. 20 yaşlı oğlu Rəşidin ölümünə yazdığı mərsiyələrdə şairin ruh sarsıntıları, əzab və iztirabları, həyatdan küskünlüyü xüsusilə təsirli və riqqətlidir. Ailə üzvlərini itirən qoca şair bundan sonra tamamilə tək qalıb və 1199-cu ildə dünyasını dəyişib. Surxab qəbiristanlığında "Şairlər məqbərəsi" adlanan yerdə dəfn edilib.

Tədqiqatçı-araşdırmaçıların, alimlərin fikrincə, Əfzələddin Xaqani Azərbaycanda Nizami Gəncəviyə qədər olan ədəbiyyatın ən parlaq, ən qüdrətli nümayəndəsidir. O, ədəbiyyata yüksək sənətkarlıq, güclü siyasi-ictimai, humanist məzmun gətirmişdir. O,



Azərbaycan ədəbiyyatında ən böyük lirik şairlərdən biri kimi tanınıb. Şairin qəzəl və rübailərində Azərbaycan poeziya məktəbinin ən yaxşı ənənələrinin əsası qoyulub. Bu ənənələr sırasında öz əksini tapan başlıca amillərdən biri də türklüyə dərin məhəbbətdir.

Ədəbiyyatşünasların fikrincə, Xaqani olduqca mürəkkəb yaradıcılığa və özünəməxsus bədii ifadə tərzinə malik bir şair olub. Azərbaycan klassikləri arasında ancaq o, əruz vəzninin, demək olar ki, bütün bəhrləri üzrə şeir yazıb. Xaqani qüdrətli bir şair olduğundan öz dövründə və sonrakı əsrlərdə geniş şöhrət qazanıb. Azərbaycanın və Yaxın Şərqin bir çox adlı-sanlı şairləri onu özünə ustad hesab edib və ayrı-ayrı əsərlərinə iftixarla nəzirələr yazıblar.

Xaqani Şirvani yalnız Azərbaycanın yox, bütün yaxın Şərq ədəbi-ictimai fikrinin XII əsrdə yetirdiyi ən görkəmli simalardan biri, sənətinin bəzi əzəmətli keyfiyyətləri ilə birincisidir. Tədqiqatçılar haqlı olaraq onu ədəbiyyatımızda fəlsəfi qəsidənin banisi, ilk və ən güclü məsnəvilərin, incə ruhlu qəzəllərin və müdrik rübailərin, nəhayət, kamil mənzum səyahətnamənin yaradıcısı kimi çox yüksək qiymətləndirirlər.

Xaqani Şirvaninin əsərləri tədqiq edildikdə onun öz dövründəki elmlərə yaxşı bələd olduğu məlum olur. Azərbaycan alimlərindən Məhəmmədəli Tərbiyyət Xaqaninin elmləri necə dərindən bildiyi haqda belə yazır: "Xaqani Şirvani öz dövrünün işlənməkdə olan elmlərinin çoxuna, xüsusən də hikmət, nücum, musiqi elmlərinə yaxşı bələd idi. Onun əsərlərində bu elmlərdən çox istilahlar var; o, tarixi də yaxşı bilirdi. Xaqani Şirvani qəsidəsinin birində bu haqda yazır: "O hansı elmdir ki, mən onu bilmirəm? - məni sınamaq istəyirsən, əsərlərimə diqqət et". Xaqani bu fikri ərəb dilində yazdığı bir əsərində də təkrar edirdi: "Mən elmlə şərafətlənib onun sayəsində şöhrət tapıram".

Tədqiqatlarda Xaqani Şirvani ilə Nizami Gəncəvi arasında səmimi dostluq əlaqələrinin olduğu barədə maraqlı məlumatlar var. Xaqani və Nizami yaradıcılığı bir-birini təsdiq edən, eyni bir dövrün poetik əks-sədası olan iki qüdrətli poetik mənbədir. Hər iki sənətkar dövrün ən mühüm məsələlərində eyni cəbhədə dayanır, şərə, eybəcərliyə, nadanlığa eyni mövqedən "atəş açır", eyni ideallarla çıxış edir. Xaqani ilə Nizamini təkcə saraylar deyil, bütün dövr, zaman, cəmiyyət narahat edir. Hər iki şairin yaradıcılığında güclü bir inkarçılıq ruhu vardır.

Xaqani ənənələrini davam etdirən şairlər arasında Azərbaycan şeirində inqilabçı satiranın böyük siması kimi tanınan Mirzə Ələkbər Sabir də var. Sabir öz şeir yaradıcılığında Nizami ənənələri ilə birlikdə Xaqaninin mübariz və üsyankar ruhunu yaşatmağa çalışmış, onun əsərləri və həyatı ilə yaxından maraqlandığını bildirmişdir.

Xaqani Azərbaycan tarixinə görkəmli dövlət xadimi kimi də daxil olub. O, vətənini dərin məhəbbətlə sevən bir şair idi. Daim vətəni tərənnüm edən şeirləri, əsərləri bu günə qədər sevilir. Şair vətənpərvərlik mövzusunda yazdığı "Savalan dağının tərifi" əsərində hissini belə ifadə edir:

Şamaxı! Ey mənim sevimli yurdum,
Ümidim, pənahım Təbrizdir, Təbriz

Səmimi kəlamlar, ilk növbədə, Xaqaninin bütün varlığı ilə doğma yurduna bağlılığının, Şamaxıya bəslədiyi sonsuz məhəbbətin təzahürü kimi qiymətlidir. Amma sona doğru əsərdə ikinci bir motiv - Təbriz mövzusu boy göstərir və sənətkar onu son dərəcə təbii bir ahənglə birinci mövzuya "peyvənd" edir, nəticədə həm Şamaxı, həm də Təbriz daxil olmaqla bütöv, böyük Azərbaycan mövzusuna qovuşur və bundan qeyri-adi hisslər keçirir, qürur duyur.

Böyük Azərbaycan şairi, görkəmli mütəfəkkir Xaqani Şirvaninin xatirəsi ölkəmizdə daim ehtiramla yad edilir. Bakı və Şamaxıda Xaqaninin adını daşıyan küçələr var. Onun adına park salınmış, abidəsi ucaldılmışdır. Şairin irsi həm də beynəlxalq elmi-mədəni mühitdə Azərbaycan ədəbiyyatının mühüm tərkib hissəsi kimi təbliğ olunur.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

**Sənət dünyası**

# "Əsərlərimdə insanlara həyata başqa gözlə baxmağın mümkün olduğunu göstərmək istəyirəm"

**Sənət adamları ilə tanışlıq və görüşlər həmişə maraqlı, yaddaqalan olur. Uzun zaman unudulmur, həmsöhbətini həmişə düşündürür. Çünki onların həyat və yaradıcılıq yolları bir-birinə bənzəmir, fərqli olur. Həm rəssam, həm də həkim olan Rəhim Həşimovla da söhbətimiz maraqlı keçdi. Bir anlıq da olsa, sənət aləminin dərinliklərinə baş vurduq. Bilmədiyimiz, eşitmədiyimiz bəzi dəyərli mətləblərdən hali olduq.**



Əvvəlcə R.Həşimovun keçdiyi ömür yolunu asta-asta üzü keçmişə doğru vərəqlədik. Öyrəndik ki, 1979-cu ildə Sumqayıtda dünyaya göz açıb. Uşaqlıq illərindən rəssamlığa marağı yaranıb. Bu sahə sirli-sehrli bir aləm kimi onu özünə çəkib. Sehrinə düşdüyü bu sənətin ardınca gedən Rəhim Həşimov 1986-cı ildə Bülbül adına 2 nömrəli incəsənət məktəbinə üz tutub. Burada vurğunu olduğu rəssamlıq sənətinin sirlərini öyrənməyə başlayıb. Amma Rəhim həm də həkim olmaq istəyirdi. Və bir müddətdən sonra ürəyində tumurcuqlayan bu arzunu da reallaşdırıb.



2007-ci ildən fəal yaradıcılıq işlərinə başlayan Rəhim Həşimov çox keçmir ki, İntiqam Ağayev və İqbal Həsənəlizadə kimi istedadlı rəssamlarla tanış olur. Bu dostluq və tanışlıq gənc rəssama böyük təsir göstərir, yaradıcılığında yeni səhifə açılır. Qarşılıqlı xoş münasibətlərdən yeni ideyalar, yeni fikirlər doğulur. Zaman keçdikcə yaradıcılıq duyğuları onu sənət dünyasının dərinliklərinə aparır. 2015-2016-cı illərdə "Femina" adlı fərdi sərgisi keçirilir. Bundan başqa, gənc rəssam həm Azərbaycanda, həm də xarici ölkələrdə keçirilən bir çox kollektiv sərgilərdə iştirak edir. Rəhim Həşimov eyni zamanda Sumqayıt şəhərindəki xəstəxanaların birində cərrah-travmatoloq işləyir.

Rəssamlıq qabiliyyətinin özündə nə vaxt, hansı yaşda olanda hiss etdiyindən söz açan Rəhim Həşimov dedi ki, bəzən insanların istedadlı olduğu təsadüfən ortaya çıxır: "Rəssamlıq qabiliyyətimin olduğunu valideynlərim məndən əvvəl hiss etmişdilər. Bir-iki dəfə özümü sınayandan sonra gördüm ki, doğrudan da, əl qabiliyyətim yaxşıdır, çəkdiklərimdə rəssamlıq əlamətləri müşahidə olunur. Bütün bunlar rəssamlığa maraq və həvəsimi gündən-günə artırırdı. Buna görə də hələ kiçik yaşlarımdan valideynlərim məni incəsənət sahəsinə yönəltdilər. Demək olar ki, həm həkimlik peşəsinə yiyələnməkdə, həm də rəssamlıq sənətini öyrənməyimdə valideynlərim çox böyük rol oynadılar. Buna görə bütün ömrüm boyu onlara minnətdaram".

Söhbətimiz zamanı rəssam-həkim ilk dəfə çəkdiyi rəsm nümunələrindən söz açdı. Dedi ki, illər öncə çəkdiyi əsəri tam xatırlaya bilmir: "Yadımda qalan odur ki, ilk dəfə babamın portretini çəkmişdim. Tanınmış rəssamlar bu işimi maraqla qarşılamışdılar və yüksək dəyər vermişdilər. Təbiidir ki, belə başlanğıc yaradıcılıq üçün qalanmaqda olan həvəs ocağını daha da gur alovlandırdı. 2007-ci ildə rəssam kimi fəaliyyətə başlayandan sonra çəkdiyim və Bakıdakı Muzey Mərkəzində sərgilənən "Corat bağları"nı ilk rəsmim adlandırardım. Bu əsər mənə olduqca doğmadır. Çünki bu əsərimdə uşaqlıqdan bəri xatirələrimdə yaşayan Corat bağlarını təsəvvürümdəki kimi təsvir etməyə çalışmışdım. Əsər hazır olanda baxıb gördüm ki, hər şeyi olduğu kimi təsvir etməyi bacarmışam, əziyyətim hədər getməyib".

Rəhim bu gün eyni sevgi ilə həkim kimi də çalışır. Deyir ki, əslində, kiçik yaşlarından həm rəssam, həm də həkim olmaq istəyib: "Şükürlər olsun ki, valideynlərimin diqqət və qayğısı sayəsində arzuma qovuşmuşam. İşlərim çox olduğuna görə bir müddət rəssamlığa ara vermişdim. Sonra yavaş-yavaş işlərimi qaydasına saldım, yeni ideyalarla, təzə fikirlərlə yaradıcılıq yollarında yaşıl işıq yandırdım".

Rəssamlıq və həkimlik Rəhim Həşimov üçün sanki qoşa qanadlardır. Deyir ki, həkimliklə rəssamlıq sanki qəlbində, ürəyində bir-birini tamamlayır: "Biri olanda, digəri olmayanda özümü rahatsız hiss edirəm, darıxıram. Sanki nəsə çatmır, nəyisə salıb itirmişəm. Mənə sual verəndə ki, sənin üçün hansı əzizdir, zarafatla deyirəm ki, travmatologiya mənim hobbimdir. Əslində isə elə deyil, hər ikisi ilə ciddi məşğul oluram. Ən əsası odur ki, rəssamlığım həkimliyimə, həkimliyim də rəssamlığıma mane olmur, əksinə, bir-birini tamamlayır. Bəzən xəstəxanada iş rejimim xeyli gərgin olur. Xüsusən də əgər travmatologiya cərrahısansa, yaradıcılığa vaxt çox qalmır. Vaxtımın əksər hissəsi xəstələrə qulluqda və əməliyyat otaqlarında keçdiyindən, yaradıcılıqla məşğul olmağa yalnız gecələr vaxt ayırıram".



Çəkdiyi rəsm əsərlərinə diqqətlə baxanda aydın görünür ki, Rəhim Həşimov daha çox qadın portretləri çəkir. Yəqin ki, bu, onun gözəllik vurğunu olduğundan irəli gəlir. Bu barədə fikrini öyrənəndə dedi ki, tamamilə doğrudur: "Kimisi gözəllik aşiqi olduğunu natürmortla, kimisi təbiətlə vurğulayır. Mən isə gözəlliyi bu şəkildə görürəm və bu formada ifadə etməyi sevirəm. Düşünürəm ki, bir-birinə bənzəməyən qadın portretləri baxanlara zövq verir".

Haqqında yazılan məqalələrdən birində oxuduq ki, Rəhim Həşimov Amadeo Modilyani, Qustav Klimt, Anri Matiss kimi görkəmli rəssamların əsərlərindən ilhamlanaraq portretlər çəkir. Düşündük ki, görəsən, bu, təkrarçılığa yol açmır ki? Dedi ki, xeyr: "Görkəmli rəssamların əsərlərinə baxmaq, onlardan ilhamlanmaq sənətkar üçün elə də ziyanlı deyil. Çünki baxışlar, düşüncələr bir-birindən fərqlidir. Bu fəqlilikdə də bir qanunauyğunluq var. Bəlkə kimsə başqa cür düşünə bilər, amma mənə görə belə deyil. Bilirsinizmi, axı mən həmin əsərləri təkrar təsvir etmirəm, necə deyərlər, üzünü köçürmürəm. Mövzu qadın obrazı və ya fovizm üslubu ola bilər. Mən ancaq öz həyatıma aid olan mövzular üzərində işləyirəm. Xəyalımda canlandırdıqlarımı kətan üzərinə köçürürəm. Əsərlərimdə təsvir etdiyim obrazların əksəriyyəti yaxından tanıdığım insanlar, yaddaşımda qalan xatirələr və hadisələrdir. Buna görə də, yaratdıqlarım təkrarçılıqdan xeyli uzaqdır".

Rəssam əlində fırça rənglər dünyasına qədəm qoyanda hansı hisslər keçirdiyindən, ümumiyyətlə, yaradıcılığın necə bir hiss olduğundan da danışdı: "Mənim üçün yaradıcılıq o hissdir ki, reallıqdan bir qədər uzaqlaşırsan, öz dünyanla, yaradıcı fikirlərinlə baş-başa qalırsan, həmin hisslərdən doğulan təəssüratları rənglərin dili ilə ifadə edirsən. Mən fikir aləmimdə olan hadisələri, obrazları reallıqdan müəyyən qədər fərqli formada ifadə etməyi çox sevirəm. Bununla insanlara hər şeyi eyni cür görməməyin, həyata fərqli gözlə baxmağın mümkün olduğunu göstərmək istəyirəm. Həmçinin əsərlərimdə olan gözəllikləri nümayiş etdirməklə rəssamlıq dünyasında özümdən sonra pozulmayan bir iz qoymağa çalışıram".

2015-2016-cı illərdə rəssamın "Femina" adlı fərdi sərgisi keçirilib. Xeyli ziyarətçisi olub, gələnlər əsərlərinə böyük maraqla baxıblar. Ondan sonra fərdi sərgiləri olmayıb, amma kollektiv sərgilərdə iştirak edib. Rəhim Həşimovun əsərlərindən biri hazırda Ankaradakı Mövlana Muzeyində nümayiş olunur. Dediyinə görə, rəssam yaxın zamanlarda bir neçə fərdi sərgi keçirməyi də planlaşdırır.

Hansı əsər üzərində çalışdığından söz açan Rəhim Həşimov dedi ki, hazırda Kür çayı tablosu üzərində işləyir. Bu, görkəmli bəstəkar Cahangir Cahangirovun "Ana Kür" mahnısına həsr olunmuş bir əsər olacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# "Qəbələdə kino günləri" başlayır

Azərbaycan Kinematoqrafçılar İttifaqının (AKİ) təşkilatçılığı ilə aprelin 29-dan mayın 1-dək "Qəbələdə kino günləri" keçiriləcək.




Bildirilib ki, layihə çərçivəsində Azərbaycanın müasir, tanınmış rejissorlarının bədii və sənədli filmləri regionlarda nümayiş olunur, tamaşaçılarla yaradıcı görüşlər keçirilir.

Bu təşəbbüsün əsas məqsədi paytaxtdan kənarda yaşayan tamaşaçıların da müasir Azərbaycan kinosu ilə daha yaxından tanış olmasına şərait yaratmaq, regionlarda kino mədəniyyətini canlandırmaq və xüsusilə gənc tamaşaçılar arasında kinoya marağı artırmaqdır. Nümayişlərdən sonra filmlərin yaradıcı heyəti ilə müzakirələr və sual-cavab sessiyaları tədbirin əsas hissəsini təşkil edir.

Layihə çərçivəsində "Aranda kino günləri", "Lənkəranda kino günləri", "Şirvanda kino günləri", "Gəncədə kino günləri" və digər bölgələrdə silsilə tədbirlər təşkil olunub. Proqramda həm dövlət sifarişi əsasında çəkilmiş, həm də müstəqil Azərbaycan filmləri yer alıb.

Tədbir çərçivəsində rejissor Zaur Qasımlının "Tağıyev: Neft", İlqar Nəcəfin "Nar bağı" tammetrajlı bədii filmləri, Pərviz Həsənovun "Başlıbel - Mühasirə gündəliyi" tammetrajlı sənədli filmi, Fariz Əhmədovun "Sonuncu" qısametrajlı sənədli filmi, Elvin Adıgözəlin "Rəna xanımın çəkilişi", Teymur Qəmbərovun "Quxuroba", Orxan Ağazadənin "Oturacaqlar", Emin Əfəndiyevin "Tənha insanın monoloqu", Qulu Əsgərovun "Hasar", Daniel Quliyevin "Uzaq" qısametrajlı bədii filmləri nümayiş olunacaq.

AKİ bu təşəbbüslə milli kinonun regionlarda daha geniş auditoriyaya çatdırılmasını və kino sahəsində dialoqun inkişafını hədəfləyir.

# Bakının tarixini sözə çevirən ustad qələm sahibi



Xalq yazıçısı, görkəmli ədib Qılman İlkinin anadan olmasından 112 il ötür. Ədəbi yaradıcılığa "Yaralı şahin" adlı hekayəsi ilə başlayan Q.İlkin 1947-ci ildə "Həyat yollarında" adlı ilk kitabını nəşr etdirib.

Eyniadlı povestdə müəllif görkəmli dramaturqumuz Nəcəf bəy Vəzirovun uşaqlıq illərinin maraqlı, yaddaqalan lövhələrini yarada bilib. 1949-cu ildə hekayələrdən ibarət ikinci kitabı nəşr edilib, sonra Q.İlkin daha məhsuldar çalışaraq "Üçtəpə uşaqları", "Sahil küçəsində", "Yazılı daş", "Qalada üsyan" kitablarını yazıb. Axırıncı əsər müəllifinə daha çox şöhrət qazandırıb və onun motivləri əsasında uşaqların və böyüklərin çox sevdiyi "Yenilməz batalyon" filmi çəkilib. Onun qələmindən çıxan "Şah və qarışqa", "Şimal küləyi", "Tapşırıq", "Sərvinazım mənim", "Ömrün oğlan çağları", "Dağlı məhəlləsi", "Tayqa nağılı", "Dəniz qapısı" və s. kitabları bu gün də maraqla oxunur.

Professor Qara Namazov yazırdı: "Q.İlkinin əsərlərinin mövzu dairəsi genişdir. Onun əsərlərində təkcə inqilabi keçmişimiz və vətəndaş müharibəsi deyil, dinc quruculuq illərində uşaqların təhsili, işi və fəaliyyəti, vətənimizin zəngin sərvətlərinin axtarılması, kəndlərimizin keçmişinin və bu gününün öyrənilməsi və s. geniş və ətraflı təsvir, tərənnüm olunmuşdur". Mövzusu və ideyası bugünkü baxımdan məqbul görünməsə də, Qılman İlkinin sənətkarlıqla qələmə alınmış əsəri "Şimal küləyi"dir. Burada xalqımızın keşməkeşli tarixinin müəyyən, hələ düzgün şərhi verilməyən illərinin bədii mənzərəsi vardır.

Yazıçının ensiklopedik səciyyəyə malik olan "Bakı və bakılılar" əsəri bizə təkcə Bakı tarixindən deyil, onun coğrafiyasından, mədəniyyətindən, mənəviyyatından, iqtisadiyyatından, adət-ənənələrindən, yaşayış tərzindən geniş və ətraflı məlumat verməklə yanaşı, sanki köhnə Bakımızı qarış-qarış gəzdirir, möhtəşəm bir tarixlə bizi tanış edir. Çox zəngin arxiv materialları və tarixi faktlarla əhatə edilən bu əsərdə yazıçı Qılman İlkini yalnız Bakı tarixinin bilicisi kimi deyil, həm də bir ədəbiyyatşünas, mətbuatşünas, arxivşünas, kitabşünas, alim kimi də çıxış edir.

"Kölgələr sürünür", "Yenilməz batalyon" bədii filmlərinin və bir neçə televiziya filminin ssenarisini də Qılman İlkin yazıb. Görkəmli yazıçı xidmətlərinə görə bir çox fəxri adlar, orden və medallarla mükafatlandırılıb.

Yazdığı dəyərli əsərlərlə əbədiyaşarlıq qazanan yazıçı 2009-cu il noyabrın 6-da dünyasını dəyişib.

# "Bakı Marafonu 2026":

## 25 min iştirakçı birincilik uğrunda yarışacaq

Heydər Əliyev Fondunun təşəbbüsü ilə bu bazar günü keçiriləcək "Bakı Marafonu 2026"da 25 min iştirakçı qeydiyyatdan keçib.

AZƏRTAC xəbər verir ki, marafonda Azərbaycan vətəndaşları ilə yanaşı, ABŞ, Almaniya, Böyük Britaniya, Çin, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Rusiya, Türkiyə, Ukrayna və digər ölkə vətəndaşları da qələbə uğrunda yarışa qoşulacaq.

Hər dəfə olduğu kimi, builki yarışda da fiziki imkanları məhdud, eləcə də Daun sindromlu şəxslər də iştirak edəcək.

Qeyd edək ki, aprelin 26-da London marafonunda yeni dünya rekordu müəyyənləşib. Keniyalı atlet Sebastian Save (Sabastian Sawe) London marafonunun qalibi olaraq dünya rekordunu yeniləyib. O, 42.195 km məsafəni iki saatdan az müddətdə - 1 saat 59 dəqiqə 30 saniyəyə qət edib. Qadınlar arasında isə efiopiyalı




Tigst Assefa 2 saat 15 dəqiqə 41 saniyə göstərici ilə qalib olub.

Mayın 3-də isə start nöqtəsi Dövlət Bayrağı Meydanı, finiş Sea Breeze ərazisi olmaqla ilk dəfə 42 km məsafədə keçiriləcək Bakı Marafonunun kişi və qadın iştirakçıları qaçış zolağında ilk 3 yer uğrunda mübarizə aparacaq.

# "Turizm sahəsində Azərbaycandan öyrənəcəyimiz çox şey var"

Ölkələrimizin ortaq mədəni və tarixi irsi var. Şuşa şəhərinin gözəlliyi bizi valeh etdi. Buraya ilk dəfədir gəlirəm, Bakıdan çıxdıqdan sonra yolboyu gözəl mənzərələri seyr etmək üçün yatmaq istəmirdim. Həqiqətən, füsunkar mənzərələr - buğda zəmiləri, meşələr, uca dağlar və Şuşanın özü məni heyran etdi. Şuşada videoçarxa baxanda başa düşdük ki, bu yerlərə gəlməyimiz əbəs deyil. Burada Azərbaycanın kökləri, onun tarixi var.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Şuşada keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının Turizm üzrə Yüksək Səviyyəli Ekspert Qrupunun doqquzuncu iclasında




iştirak edən Türkmənistan Mədəniyyət Nazirliyi Turizm Departamentinin sədr müavini Gülşat Bakiyeva ifadə edib.

O deyib: "Bizi çox qonaqpərvər Azərbaycan xalqı qarşıladı. Təbii ki, burada hər şey yüksək səviyyədə təşkil olunub. Qeyd etmək istərdim ki, turizm və qonaqpərvərlik baxımından azərbaycanlılardan öyrənəcəyimiz çox şey var. Bəli, türkmənlər də qonaqpərvər xalqdır və qədim zamanlardan bəri onların bu keyfiyyəti qeyd olunur. Amma hər bir xalqın özünəməxsus cazibəsi var və biz bunu həmişə xatırlamaq istəyirik. Özümü şanslı hesab edirəm ki, buraya gəlmişəm və Tanrı mənə bu gözəlliyi görmək imkanı verib".

Gülşat Bakiyeva Şuşada keçirilən görüşün öz bəhrəsini verəcəyinə əminliyini ifadə edib. "Şuşa şəhərini və bütün Azərbaycan xalqını İqtisadi Əməkdaşlıq Təşkilatının turizm paytaxtı seçilməsi münasibətilə təbrik edirəm. Bu, çox yüksək tituldur", - deyə departament müdirinin müavini sözlərini yekunlaşdırıb.

# İranda əhaliyə ərzaq yardımının artırılması nəzərdən keçirilir

İran hakimiyyəti əhalinin dolanışığını təmin etməkdə üzləşdiyi problemlərdən xəbərdardır və ərzaq rasionu kartlarına köçürülən məbləğləri artırmağı düşünür. İRNA agentliyinin məlumatına görə, İran hökumətinin rəsmi nümayəndəsi Fatimə Mühacirani bu açıqlamanı ölkənin iqtisadi vəziyyətini qiymətləndirərkən verib.

O qeyd edib ki, Prezident Məsud Pezeşkian əhalinin zəruri mallara əlçatanlığı və dolanışığını təmin etməkdə üzləşdiyi problemləri yaxından izləyir. Müharibənin ölkə iqtisadiyyatına təsiri barədə danışan Mühacirani hökumətin xalqın maliyyə yükündən xəbərdar olduğunu bildirib. "Qida rasionu kartlarına köçürülən məbləğin artırılması məsələsi nəzərdən keçirilir", - deyə rəsmi nümayəndə bildirib. Mühacirani həmçinin qeyd edib ki, qlobal yanacaq böhranı olsa da, daxili uçuşların qiymət artımının qarşısını almaq üçün lazımi monitorinq aparılacaq.

İranda 2025-ci il dekabrın 28-də iqtisadi çətinliklər fonunda başlayan etirazlar zamanı əhalinin çətinliklərini aradan qaldırmaq üçün adambaşına aylıq 10 milyon rial (təxminən 7 dollar) yardım ayrılması qərara alınıb. Yardımın aylıq olaraq hesablara köçürüləcəyi və əsas ərzaq məhsullarının qiymətləri artarsa, məbləğin



müvafiq olaraq artırılacağı açıqlanıb. İranda əvvəllər yardım nağd şəkildə ödənilirdisə, bu halda həddindən artıq qiymət artımının qarşısını almaq üçün vəsaitin yalnız ərzaq alışı üçün birbaşa hesablara köçürülməsinə qərar verilib.

Bu arada İranın kənd təsərrüfatı naziri Qulamrza Nuri ABŞ-nin dəniz blokadasının ölkənin mal və ərzaq təchizatına demək olar ki, heç bir təsir göstərmədiyini bildirib. O, bunu yüksək səviyyədə daxili istehsal və alternativ idxal yolları ilə əlaqələndirib. Nuri bildirib ki, ABŞ-nin dəniz blokadasına baxmayaraq, ölkənin coğrafi xüsusiyyətləri müxtəlif sərhədlərdən idxala imkan verdiyindən, əhalinin əsas mallar və ərzaq məhsulları ilə təminatında heç bir problem yoxdur. Nazir əlavə edib ki, kənd təsərrüfatı məhsullarının və zəruri malların təxminən 85 faizi daxili istehsaldır ki, bu da İranın ərzaq təhlükəsizliyinin sabit və maneəsiz qalmasını təmin edir.

***R.HİLALOĞLU,***
***"Azərbaycan"***

# 22 buddist rahib 112 kiloqram kannabislə həbs edilib

Şri-Lanka gömrüyü Kolombo Beynəlxalq Hava Limanında 22 buddist rahibi əl yüklərində 112 kiloqram narkotik aşkarlayaraq həbs edib. Gömrük rəsmiləri Tailanddan olan rahiblərdə külli miqdarda kannabis aşkarlayıblar.

Bildirildiyinə görə, marixuana şəffaf torbalara qablaşdırılıb və onlar əl yüklərinin gizli ikiqat altlığına yerləşdirilib. Şri-Lanka gömrük rəsmisi bildirib ki, hər bir rahib təxminən 5 kiloqram narkotik maddə güman edilən bitki materialı daşıyıb və bunun cəmi 112 kiloqram olub.

Polis mənbələri yerli "The Daily Mirror" qəzetinə bildiriblər ki, 22 rahib bazar günü Şri-Lankanın qərbində yerləşən Ne-



qombo şəhər Magistrat Məhkəməsinə gətirildikdən sonra əlavə dindirilmə üçün həbsxanaya göndəriliblər. İlkin araşdırma əməliyyatın Kolombo şəhərinin kənarında Camburaliya ərazisindəki bir məbəddən 3 rahib tərəfindən koordinasiya edildiyini ortaya qoyub. Onların "facebook" vasitəsilə daha 19 nəfəri bu işə cəlb etdikləri barədə məlumat var. Əsasən 30 yaşdan kiçik və təlim keçən gənc rahiblərə pulsuz uçuş, yaşayış yeri və yemək vəd olunub. Deyilənə görə, əvvəlcə onlara məktəblilər üçün təhsil materialları və şirniyyatlar daşıyacaqları bildirilib.

Yerli medianın məlumatına görə, kannabis və həşiş olduğu güman edilən narkotik maddələrin dəyəri təxminən 3,6 milyon ABŞ dollarıdır. Onu da qeyd edək ki, Tailandda kannabis və ya həşişin satışına və istifadəsinə ölüm cəzası verilmir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


**OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Keyfiyyətli yuxu sağlamlığın şərtlərindən biridir

Milyonlarla insan gecə kifayət qədər yatdığını düşünsə də, səhər yenə yorğun, enerjisiz oyanır. Bir çoxları bunu şəxsi intizamsızlıq, telefondan ayrıla bilməmək və ya sadəcə, "pis vərdişlər"lə izah edir. Ancaq son illər yuxu laboratoriyalarında aparılan araşdırmalar göstərir ki, problem təkcə neçə saat yatmaqda deyil. Daha mühüm məsələ beynin və bədənin, həqiqətən, gecə rejiminə keçib-keçməməsidir. Başqa sözlə, ideal yuxu vaxtı hesab edilən səkkiz saat yatmaq heç də faydalı yuxu demək deyil.

Mütəxəssislərin fikrincə, əsas problem beynin günün bitdiyini qəbul etməməsidir. İnsan işlərini başa vura, telefonunu kənara qoya, işıqları söndürə bilər, amma sinir sistemi hələ də ayıq rejimdə qala bilər. Bu zaman kortizol hormonu lazım olduğu qədər enmir, parasimpatik sistem, yəni bədəni sakitləşdirən mexanizm tam aktivləşmir. Nəticədə insan yuxuya getsə də, bədən bərpa proseslərinə tam başlaya bilmir.

Rəqəmsal həyat tərzi bu problemi daha da dərinləşdirir. Stanford Universitetinin psixiatrı Anna Lembke qeyd edir ki, daimi rəqəmsal stimullaşdırma beynin mükafatlandırma sistemini daim "növbəti nədir?" sualına kökləyir. Sosial media lentləri, qısa videolar, bildirişlər və mesajlar insan diqqətini bir nöqtədə saxlamır, onu davamlı gözlənti vəziyyətində gözlədir. Ekran sönəndən sonra belə beynin həmin ritmdən çıxması zaman alır.

Bu təsirin nəticələri artıq ölçülə bilir. 2025-ci ildə yayımlanan araşdırmalardan biri smartfon asılılığı artdıqca yuxu keyfiyyətinin azaldığını, psixoloji stresin isə yüksəldiyini göstərib. Maraqlısı odur ki, bu vəziyyət yalnız gec yatmağa məcbur olan insanlarda deyil, özünə istirahət üçün vaxt ayıranlarda da müşahidə olunub. Deməli, problem təkcə yatma saatının gecikməsi deyil, bədənin bərpa mexanizmlərinin aktivləşə bilməməsidir. Yuxu laboratoriyalarında aparılan ölçmələr də bunu təsdiqləyir. Belə insanlarda kortizol səviyyəsi gecə ərzində daha yavaş enir, ürək döyüntüsü dəyişkənliyi aşağı qalır. Bu göstərici orqanizmin sakitləşmə qabiliyyətini əks etdirir. Yəni insan hərəkətsiz uzansa belə, sinir sistemi hələ də "təhlükə yoxlaması" rejimində işləyir. Beynin görüntülənməsi ilə aparılan tədqiqatlar da maraqlı nəticələr verib. Məlum olub ki, real təhlükə olmadığı hallarda belə, həll olunmamış tapşırıqlar, ya-



rımçıq işlər və gözlənilən mesajlar beyni aktiv saxlayır. Axşam saatlarında parlaq ekranlara baxmaq yalnız melatonin hormonunun ifrazını gecikdirmir, eyni zamanda oyanıqlıq yollarını gücləndirir. Nəticədə "bir video da baxım", "bir mesaj da cavablandırım" düşüncəsi ilə gecə daha da uzanır.

Yuxu təkcə yorğunluğun nəticəsi deyil, həm də vaxtla tənzimlənən bioloji prosesdir. Beyin müəyyən saat aralığında yatmağı gözləyir. Həmin zaman ötdükdə yuxuya getmək çətinləşir, yuxu daha səthi olur və tez-tez bölünür. Bir çox insanın "məndə yuxusuzluq var" dediyi hal, əslində, yuxunun yanlış saatda alınmasıdır. Bu səbəbdən iş günləri erkən durub həftəsonları günortaya qədər yatmaq zərərsiz görünən, amma bədəni çaşdıran davranışdır. Mütəxəssislər bunu "sosial jetlag" adlandırırlar. Yəni insan hər həftə bir neçə dəfə saat qurşağını dəyişirmiş kimi yaşayır. Bioloji saat sabitləşmir, bazar ertəsi yenidən erkən qalxmaq isə əlavə stres yaradır. Uzunmüddətli dövrdə bu uyğunsuzluğun ürək-damar və metabolik riskləri artırdığı düşünülür.

Yavaş dalğalı yuxunun əhəmiyyəti isə getdikcə daha aydın görünür. Bu mərhələdə bədən toxumaları bərpa olunur, böyümə hormonları aktivləşir, enerji balansı tənzimlənir. Eyni zamanda beynin "qlimfatik sistemi" adlanan tullantı təmizləmə mexanizmi daha səmərəli işləyir. Gün ərzində toplanan metabolik qalıqlar məhz gecə saatlarında xaric edilir. Dərin yuxu pozulduqda səhər başda ağırlıq, halsızlıq və zehni duman hissi yaranması təsadüfi deyil.

Bəs çıxış yolu nədir? Tədqiqatçılar ekranlardan tam imtinanı real həll hesab etmirlər. Daha səmərəli yanaşma günün bitdiyini beyinə göstərən aydın siqnallar yaratmaqdır. Məsələn, hər gün eyni saatda kompüteri bağlamaq, bildirişləri söndürmək, otaq işığını azaltmaq, yataqdan əvvəl eyni sakit ritualı təkrarlamaq. Bu təkrarlar sinir sisteminə "təhlükə yoxlaması bitdi" mesajı verir.

Müntəzəm yatmaq və oyanmaq saatı xüsusilə vacibdir. Hətta həftəsonu belə cədvəli çox dəyişməmək tövsiyə olunur. Axşamlar işığı azaltmaq kortizolun enməsinə, melatoninin artmasına kömək edir. Nəticədə həm yuxuya getmək asanlaşır, həm də dərin yuxunun payı artır.

Son dövrlərdə populyarlaşan digər anlayış isə "yuxu ehtiyatı"dır. Bu yanaşmaya görə, insan qarşıda yuxusuz günlər olacağını bilirsə, əvvəlcədən bir neçə gecə daha çox yataraq orqanizmi hazırlaya bilər. Termin ilk dəfə ABŞ-də hərbi araşdırmalarda istifadə olunub. Tədqiqat zamanı bir qrup iştirakçı bir həftə ərzində yeddi saat, digər qrup isə on saat yatıb. Sonrakı mərhələdə hər iki qrupun yuxusu üç saata endirilib. Nəticələr maraqlı olub. Əvvəlcədən daha çox yatan iştirakçılar yuxu məhdudiyyəti dövründə diqqət testlərində daha yaxşı nəticə göstərib, səhvləri daha az olub və normal rejimə daha tez qayıdıblar.

Sonrakı araşdırmalarda həkimlər gecə növbələri zamanı idmançılarda reaksiya sürəti və performans baxımından bənzər faydalar müşahidə ediblər. Məsələn, bir neçə gecə əlavə yuxu alan həkimlərin gecə növbələrində daha ayıq olduqları bildirilib. Peşəkar idmançılarda isə daha uzun yuxu daha aşağı fiziki stres, daha yaxşı sprint nəticələri və daha dəqiq atışlarla əlaqələndirilib. Bu səbəbdən bəzi məşqçilər yarışlardan əvvəl yuxu rejiminə xüsusi diqqət ayırırlar. Lakin mütəxəssislər onu da bildirirlər ki, "yuxu toplamaq" xroniki yuxusuzluğun həlli deyil, yalnız fövqəladə vəziyyətlər üçün qısamüddətli taktikadır. Qarşıda intensiv iş həftəsi, gecə növbəsi, uzun səyahət və ya yarış varsa, bir-iki həftə əvvəl hər gecə 30-60 dəqiqə artıq yatmaq faydalı ola bilər. Gündüz qısa mürgüləmələr də dəstək verə bilər. Amma aylarla az yatıb sonra bir həftə çox yatmaqla zərəri tam kompensasiya etmək mümkün deyil.

Deməli, yaxşı yuxu, sadəcə, uzun yatmaq demək deyil. Bədənin, həqiqətən, dincəlməsi üçün beynin sakitləşməsi, bioloji ritmin qorunması və günün bitdiyinə dair aydın siqnallar alması vacibdir. Telefonu bir kənara qoymaq, yatmaq saatını sabit saxlamaq və axşam ritmini yavaşlatmaq bəzən əlavə bir saat yuxudan daha təsirli ola bilər. Çünki səhər enerjili oyanmağın sirri yalnız yuxunun müddəti yox, həm də keyfiyyətindədir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən Rəşad Rəfail oğlu Rüstəmovun adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Sabunçu rayonu, Pirşağı qəsəbəsi, Sovxoz 2-də yerləşən 188 saylı tam orta ümumtəhsil məktəb tərəfindən Natiq Əbilhəsən oğlu İmaməliyevin adına verilmiş attestat itdiyi üçün etibarsız sayılır.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi general-polkovnik Vaqif Axundova bacısı

**SƏKİNƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Dispetçer İdarəetmə Mərkəzinin rəhbəri İlham Ağasıyevə bacısı

**ÜLVİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3685
Sifariş 538

Qiyməti 60 qəpik